

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA



№ 1 (26) 2010

# KİTABXANAŞÜNASLIQ

# VƏ

# BİBLİOQRAFİYA

№1 * 2010

**BAKI –2010**

İSSN 2079-4150

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ**

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

Elmi-nəzəri, metodik və təcrübi jurnal

**№1 (26) * 2010**

1997-ci ilin
oktyabrından çıxır

**BAKI –2010**

*KBT- 78*
*K 73*

***Təsisçi və baş redaktor:*** ***professor Xəlil İSMAYILOV***

***Məsul katib:*** ***dosent Knyaz ASLAN***

***REDAKSİYA HEYƏTİ:***

***Professor Abuzər XƏLƏFOV***
***Professor Zöhrab ƏLİYEV***
***Professor Bayram ALLAHVERDİYEV***
***Dosent Nadir İSMAYILOV***
***F.e.d. Aybəniz ƏLİYEVA-KƏNGƏRLİ***
***T.e.n. Kərim TAHİROV***
***Tamella İSMİXANOVA***
***Mələk HACIYEVA***
***B. m. Solmaz SADIQOVA***

K 73 *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-B.: Bakı Universiteti Nəşriyyatı, 2010.-№1.-141 s.*

*Redaksiyanın ünvanı:*
*AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23,*
*2№-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-informasiya fakültəsi,*
*«Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının redaksiyası*
*Telefonlar: 439-05-47; 439-08-03*

**© «Kitabxanaşünaslıq və biblioqrafiya», 2010**

İSSN 2079-4150

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЕ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ
БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫЙ ФАКУЛЬТЕТ**

# БИБЛИОТЕКОВЕДЕНИЕ И БИБЛИОГРАФИЯ

**Научно-теоретический,
методический и практический журнал**

**№1 (26) * 2010**

Выпускается
с 1997 года

**БАКУ-2010**

*ББК-78*
*К 73*

***Учредитель и главный редактор:*** ***профессор Халил ИСМАИЛОВ***

***Ответственный секретарь:*** ***Доцент Князь АСЛАН***

***РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ:***

**Профессор Абузар Халафов**
**Профессор Зохраб Алиев**
**Профессор Байрам Аллахвердиев**
**Доцент Надир Исмаилов**
**Д.ф.н.  Айбениз Алиева-Кенгерли**
**К.и.н. Керим Тахиров**
**Тамелла Исмиханова**
**Мелек Гаджиева**
**Ст. преп. Солмаз Садыгова**

**К 73** *Библиотековедение и библиография: Научно-теоретический, методический и практический журнал .- Б., Изд-во Бакинского Университета, 2010.-№1.-141 с.*

*Адрес редакции:*

*Аз –1073/1 г. Баку, ул. Захида Халилова, 23,*
*учебный корпус №2, этаж IV, Библиотечно-информационный факультет, редакция журнала «Библиотековедение и библиография».*
*Тел.: 439-05-47; 439-08-03*

**© «Библиотековедение и библиография», 2010**

# MÜNDƏRİCAT

## *KİTABXANAŞÜNASLIQ*


| | |
|---|---|
| ***X.İSMAYILOV*** | *Kitabxana işinin metodik təminatının yeni istiqamətləri* |
| ***S.XƏLƏFOVA*** | *Kitabxana fondunun formalaşması: ideyası, anlayışı və inkişafı* |
| ***O.QULİYEV*** | *Müasir şəraitdə Xətai rayon MKS-in fəaliyyəti* |
| ***R.QARDAŞOV*** | *Azərbaycanda kitabxanaçılıq üzrə orta ixtisas təhsilinin yaranması və inkişafı* |
| ***M.D.NASRİN*** | *Təbriz Universiteti kitabxanalarının sənəd-informasiya resursları* |
| ***G.SƏFƏROVA*** | *Müstəqillik dövründə AMEA MEK-in fondunun təşkili və idarə edilməsi* |
| ***C.ZEYNALOV*** | *F.Köçərli adına Respublika Uşaq Kitabxanası fondunun istifadə səmərəliliyi və təkmilləşdirilməsi (2000-2008)* |
| ***A.MƏMMƏDOVA*** | *Qabaqcıl xarici universitetlərin Kitabxanaçılıq-informasiya fakültələrinin tədris proqramları haqqında* |


## *BİBLİOQRAFİYAŞÜNASLIQ*


| | |
|---|---|
| ***Z.ƏLİYEV*** ***Ə.XƏLİLOVA*** | *Azərbaycanın beynəlxalq əlaqələri biblioqrafik mənbələrdə* |
| ***N.İSMAYILOV*** | *Kitabxana-informasiya resurslarının yerləşməsinin nəzəri və təcrübi məsələləri* |
| ***Q.HACIYEVA*** | *Türkiyədə milli biblioqrafiya* |

| | |
|---|---|
| ***X.AĞAYEVA*** | *Təhsilin biblioqrafik informasiya təminatının müasir vəziyyəti* |
| ***S.SADIQOVA*** | *İqtisadiyyat elminə həsr olunmuş ümumi xarakterli biblioqrafik informasiya mənbələri* |
| ***S.İSMAYILOVA*** | *Azərbaycanda uşaq və gənclər üçün ədəbiyyatın biblioqrafik nəşrlərinin yaranması və inkişafı* |
| ***Ə.MƏMMƏDOV*** | *Azərbaycanda yer haqqında elmlər kompleksinin biblioqrafik təminatının bəzi məsələləri* |
| ***İ.BAYRAMOVA*** | *Azərbaycan Respublikasının regionlarının kitabxana-informasiya resurslarının inkişafının bəzi məsələləri (Quba-Xaçmaz iqtisadi rayonunun nümunəsində)* |

**Xəlil İSMAYILOV**
***Əməkdar mədəniyyət işçisi***
***tarix elmləri doktoru***
***professor***

# KİTABXANA İŞİNİN METODİK TƏMİNATININ YENİ İSTİQAMƏTLƏRİ

Müasir dövrdə gündəlik həyatımızın real tələbatına uyğun olaraq həyatı həqiqətlərin yerinə yetirilməsi, xüsusilə, kitabxana işi sahəsində konkret olaraq əməli tədbirlərin həlli olduqca vacibdir. Xüsusilə kitabxana işinin elə vacib sahələri vardır ki, bu fəaliyyət sahəsi tezliklə yeniləşməli, yeni texnologiyaların tətbiqi ön plana çəkilməlidir.

Bütün bu tədbirlərin həyata keçirilməsində, xüsusilə, kitabxana fəaliyyətinin yaxşılaşdırılması sahəsində metodik mərkəzlərin qarşısında çox ciddi vəzifələr durur.

Artıq son onilliklərdir ki, kitabxana fəaliyyətinin müxtəlif aspektlərinin inkişafında metodiki təminat işinin tətbiq olunması və bu sahədə metodistlərin fəaliyyəti dünya təcrübəsinə cavab verən səviyyədə təkmilləşdirilməlidir.

Bu inkişaf ilk növbədə kitabxana işinin metodiki təminatına müasir prizmadan baxmaqla keçmişə tənqidi yanaşmaqla kitabxana-informasiya sahəsinə yeni meyarların tətbiqinə üstünlük verilməlidir. Tarixi təcrübədən məlum olduğu kimi, kitabxanaların metodiki təminatında inzibati əmirlik işinin həmişə ön plana çəkilməsi və ona üstünlük verilməsi danılmaz bir faktdır. Metodiki təminat işində inzibati orqanlarla, metodik mərkəzlərlə, bir sıra təşkilatlarla birgə idarəetmə işinə ciddi nəzarət edilməklə demokratik prinsiplərin pozulması halları baş verir, yuxarı təşkilatların ciddi müdaxiləsi də mövcud idi.

Görkəmli kitabxanaşünas alimlər, eləcə də təcrübi kitabxana işçiləri öz əsərlərində və polemika xarakterli çıxışlarında dil və stilistika fərqlərinə baxmayaraq həmişə eynifikirlilik nümayiş etdirməklə bir qayda olaraq, bir məsələnin vacibliyini qəbul etmişlər ki, metodiki təminat işi kitabxana fəaliyyətinin vacib sahələrindən biri kimi, olduqca perspektivlidir və onun inkişaf etdirilməsi olduqca vacibdir.

Mütəxəssislərin bu sahədə eyni fikirli olmaları başa düşüləndir, ona görə ki, kitabxana mütəxəssisləri belə düşünürlər ki, kitabxanaların metodik təminatı, metodiki köməklik, metodiki yardım olduqca vacibdir.

Kitabxana işçilərinin eyni fikirli olmaları başa düşülən və qəbul olunandır.

Hazırda kitabxana yeniliklərinin həddindən çox artması və onların kitabxana rəhbərlərinin qarşısında çox mühüm bir vəzifə kimi durması ciddi və yeni tədbirlərin həyata keçirilməsini tələb edir. Həmçinin idarəetmənin konseptual, iqtisadi, marketinq, sosioloji, psixoloji tərəflərini, həmçinin, idarəetmənin xüsusi forma və metodlarının, kitabxana işinin metodik vasitələrinin metodik təminatın fəaliyyətinə olduqca böyük təsiri vardır. Ona görə ki, kitabxanalarda metodiki fəaliyyətə çox mühüm tələblər qoyulur və bu tələblər professional düşüncəyə görə birmənalı olaraq yenilik xarakteri daşıyır. Daha doğrusu, mütərəqqi problemlərin tətbiqi ilə bağlı həyata keçirilir, yeniliklərin qəbul olunması ilə başa çatır.

Qeyd etmək lazımdır ki, bu problemlər təhlil edilib işlənilərkən geniş kitabxana ictimaiyyətini, təcrübəli mütəxəssisləri, həmçinin, mərkəzi kitabxanalarda çalışan metodistləri cəlb etməklə diqqəti cəlb edən yeniliklərin müzakirəsinə həsr olunmuş araşdırma və polemika aparmaqla qərarlar qəbul etməlidirlər. Bu məsələlər müzakirə edilərkən “metodiki işin” əhatə dairəsi və müasir mərhələdə ona verilən tələblər müəyyənləşdirilməlidir. İndiki zamanda “metodiki iş” nəzərə çarpan dərəcədə genişlənmiş, əhatə dairəsi və tətbiqi  xeyli zənginləşdirilmiş, müxtəlif istiqamətlərdə yeni funksiya və istiqamətləri  özündə əks etdirmişdir. Metodik fəaliyyətin spesifik cəhətləri, yəni ənənəvi prinsipləri, xüsusilə təşkilati, informasiya, tədqiqat və pedaqoji funksiyaları artıq öz forma və üsullarını dəyişmiş, yeni və müasir cəhətlər kəsb etmişdir.

Artıq dünyanın kitabxanaşünas alimləri, təcrübi kitabxana işçiləri kitabxana işinin metodik təminatında yeniliklərin tətbiqi ilə bağlı yeniləşmə prosesinin dünya təcrübəsinə əsaslanan yeniliklərlə əlaqəli inkişafına ciddi cəhd göstərirlər. Bununla bağlı müxtəlif ölkələrin aparıcı kitabxanalarında məqsədli konsepsiyaların işlənməsi və perspektivli metodiki tədbirlərin həyata keçirilməsi gündəlikdə duran əsas məsələlərdəndir. Metodik təminatın yeniləşməsində bir sıra müxtəlif  fikirlilik hökm sürür. Bu müxtəlifliyi şərti olaraq iki istiqamətdə nəzərdən keçirmək olar. Birinci istiqamətdə böyük əksəriyyətin qəbul etdiyi  tədqiqatçılar metodik fəaliyyətin ənənəvi formalarının təkmilləşdirilməsinə diqqət yetirilməsinə məqsədli proqramlaşdırma və planlaşdırmaya yeniləşmə və innovasiya fəaliyyətinin yüksəldilməsinə, menecmentin əsaslarının tətbiqinə üstünlük verirlər. İkinci qrup iştirakçılar isə  əvvəlkilərdən fərqli

olaraq metodiki fəaliyyətin daha radikal formada dəyişməsini, metodik xidmətin kökündən yeniləşməsi və marketinq fəaliyyəti ilə əlaqələndirilməsini və yenidən qurulmasını nəzərdə tuturlar.

Bunlardan başqa bir sıra görkəmli kitabxanaşünas alimlər müxtəlif dövrlərdə metodik fəaliyyətin perspektivlərinə dair elmi fikirlər söyləmiş və göstərmişlər ki, metodik fəaliyyət elmi əsaslara söykənən məqsədli proqramlaşma əsasında inkişaf etməlidir. Əvvəllər görkəmli kitabxanaşünas alimlərdən S.A.Basov, sonralar isə A.F.Xorunjiy məqsədli proqramlaşmaya dair məqalələr yazmışlar və bu fikri bir daha təsdiqləmişlər. Onlar sübut etmişlər ki, məqsədli proqramlaşdırma ilə həm uzun müddətli, həm də qısa müddətli məsələləri keyfiyyətli və səmərəli həll etmək mümkündür, bu metod aşağı idarəetmə orqanlarının rolunu artırır, işçilərin yaradıcılıq fəallığını aktivləşdirir. Ən başlıcası isə metodiki iş, təşkilatçılıq formasından tədqiqatçılıq fəaliyyətinə keçir, ənənəvi istiqamətlər qorunub saxlanılır, qabaqcıl təcrübənin öyrənilməsi və yayılması, kitabxana işçilərinin ixtisasının artırılması, ayrı-ayrı kitabxana işçilərinə köməklik təmin olunur.

Artıq XX əsrin 90-cı illərində kitabxanaların metodik təminatının marketinq fəaliyyəti ilə əlaqələndirilməsi çox geniş vüsət almışdır. Marketinq fəaliyyətinin tətbiq olunması kitabxanaların fəaliyyətində həlledici stimul olmaqla yeni proqressiv forma və metodlardan biri kimi kitabxana ictimaiyyəti tərəfindən birmənalı qarşılandı. Hətta Rusiyanın bir sıra aparıcı kitabxanalarında metodiki işin həyata keçirilməsində əsasnamələr hazırlandı, bu sahədə tədqiqatlar həyata keçirildi.

Metodiki işin tətbiqi ilə bağlı marketinq fəaliyyətinin müxtəlif istiqamətləri üzrə konsepsiyaların işlənməsi 90-cı illərdə daha geniş vüsət aldı.

Beləliklə, kitabxana fəaliyyətində marketinq tətbiqi həlledici stimul yaratmaqla yeni və proqressiv marketinq və metodiki işin yeni forma və metodlarını müəyyənləşdirdi. Elə həmin vaxtda kitabxanaların metodiki fəaliyyətində marketinqin tətbiqi ilə bağlı yeni əsasnamələr işlənilməyə başlandı. Xüsusilə "Şöbədə kitabxana marketinqinin tətbiqi və metodiki işin yeniləşdirilməsi" M.A. Nekrasov adına MDEK-da (Mərkəzi Dövlət Elmi Kitabxanası) marketinq fəaliyyətinə həsr olunmuş bir sıra metodiki işləmələri buna misal göstərmək olar.

Metodiki təminatın müxtəlif aspektlərinin öyrənilməsi və tədqiq edilməsi, tələbələr və təcrübi kitabxana işçiləri ilə aparılan problem məsələlərin müzakirəsi və təhlili zamanı metodiki işlə bağlı bir sıra yeni

konsepsiyalar, o cümlədən, məsləhət verən bir qurum kimi metodşöbələrin rolunun artdığı müəyyən oldu. Metodşöbələrin məsləhət verən bir qurum kimi müstəqil fəaliyyət növü kimi meydana çıxması professional kitabxana fəaliyyətində, xüsusilə, idarəetmə sahəsində geniş perspektivlər açır, metodiki işin yeniləşməsinə xidmət edir.

Müasir dövrdə belə bir fakt özünü doğruldur ki, "elmi- metodiki təminat anlayışı "uzun illər formalaşaraq elə bir mərhələyə çatmışdır ki, kitabxana fəaliyyətinin inkişafı ilə müqayisədə bugünkü tələbatdan çox geri qalır. Odur ki, respublikamızda kitabxanaların metodiki fəaliyyəti dünya standartlarına uyğun olaraq yeni kitabxana texnologiyalarını özündə əks etdirməklə aparılmalıdır. Metodiki təminatın yeniləşdirilməsi problemi uzun illərdir ki, kitabxana ictimaiyyətini həmişə narahat etmiş və düşündürmüşdür. Xüsusilə metodik təminatın rolu, funksiyaları, inkişaf istiqamətləri metodik təminatın kitabxana işində rolu, kitabxanaların strukturu, yeni şəraitdə diskusiyaların aparılması və s. tədbirlərin keçirilməsi hələ də vahid qənaətə gəlməyə imkan verməmişdir.

Metodiki işin formalaşması və inkişafı ərzində onun metodları və funksiyaları nəzərə çarpacaq qədər genişlənmiş, müxtəlif istiqamətlərdə təşkilati ənənələri və formaları dəyişmiş, tədqiqatçılıq və informasiya, həmçinin, pedaqoji fəaliyyəti xeyli zənginləşmişdir.

Bütün bu keyfiyyətləri özündə birləşdirən metodiki işdə bir sıra idarə, müəssisə və təşkilatların fəaliyyəti birləşməli, qarşılıqlı fəaliyyətdə iş qurulmalıdır. Xüsusilə kitabxanaların informasiya və təşkilati işləri elmi-tədqiqat institutları ilə, pedaqoji fəaliyyətdə təhsil müəssisələri ilə, təşkilati məsələlərdə idarəetmə orqanları ilə əməkdaşlığın qurulması metodiki işin əhatəli aparılmasını təmin edər. Nəticədə aparılan metodiki işin həm məzmunu, həm də struktur quruluşu müasir tələbləri ödəmiş olar. Odur ki, uzun illər metodiki işlə bağlı həm rus, həm də Azərbaycan müəlliflərinin əsərlərində metodik təminatla əlaqədar onun kitabxana fəaliyyətinin bütün proseslərini hərtərəfli əhatə etməsinə həsr olunmuş məsələlər xüsusi qeyd olunur və bu da olduqca əhəmiyyətlidir.

Demək olar ki, kitabxana ictimaiyyətinin böyük əksəriyyəti metodiki işdən danışarkən kitabxana fəaliyyətində onun başlıca məqsədini- bütün istiqamətlərinin təkmilləşdirilməsi, forma və metodların yeniləşdirilməsi kimi qəbul edirlər. Xüsusilə görkəmli rus kitabxanaşünas alimlər bu fikrin üzərində daha çox təkidlə dayanırlar. Görkəmli kitabxanaşünas alim B.N.Baçaldin metodiki işdən danışarkən göstərir ki, metodiki mərkəzlərin səlahiyyətləri imkan verir ki, onlar kitabxanaların bütün təd-

birlərində fəal və yaxından iştirak etsinlər. Metodistlər kadr işini yaxşı bilməli, onlarla işləməyi bacarmalı, onları yaxından tanımalı, onların gündəlik ehtiyaclarını bilməli, beləliklə, hər bir kitabxananın inkişafına kömək etməlidirlər. Bu fikirlərlə bir sıra görkəmli kitabxanaşünas alimlər E.K.Vısoçkaya, N.A.Semyonova və başqaları razılaşaraq göstərirlər ki, metodiki iş kitabxanaların gündəlik fəaliyyətinə kömək etməyə istiqamətləndirilməlidir (5). Bu alimlərin baxışlarına görə bu köməklik gündəlik aparılmalı, vaxtında və əməli olaraq həyata keçirilməlidir. Analoji fikirləri kitabxanaşünas alim N.Bibika da təsdiq edir və göstərir ki, "Metodiki şöbənin başlıca vəzifəsi-bütün istiqamətlərdə kitabxanalara köməklik göstərməkdir" (2). Belə bir fikri O. Budetskaya təsdiqləyərək hesab edir ki, bu gün metodiki işin məzmununu dərinləşdirmək və əhatəli etmək lazımdır. O göstərir ki, metodistlər öz üzərlərinə məsləhətlər verməyi götürməlidirlər. Kitabxana işçilərinin daha az-az qarşılaşdığı mühasibat işi, iqtisadi məsələlər hüquqi və digər problemlərə dair əməli məsləhətlər verməlidirlər (4). Metodiki təminat işinin əsas problemlərinin müəyyənləşdirilməsi metodik mərkəzlərin qarşısında duran çox mühüm vəzifələrdən biridir. Xüsusilə Respublika Milli Kitabxanası metodik mərkəz, respublikanın bütün kitabxanalarının metodiki əlaqələndirmə mərkəzi kimi müasir problemləri araşdırmalı və respublikada fəaliyyət göstərən bütün metodiki mərkəzlərə əməli təkliflər verməlidirlər (5). Bu təkliflər mərkəzi kitabxana sistemlərinə, yerlərə, filial kitabxanalarına çatdırılmalıdır ki, bütün kitabxana şəbəkələri və sistemlərini əhatə etsin.

Müasir dövrdə kitabxanaların elmi- metodiki təminatında Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsində 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda Kitabxanaların metodiki təminatına xüsusi yer verilmiş və göstərilmişdir ki, "Kitabxana işi sahəsində elmi-tədqiqat və elmi–metodiki fəaliyyətin stimullaşdırılması, sahəyə aid ədəbiyyat nəşrinin genişləndirilməsi nəzərdə tutulmuşdur" (1). Bu proqramdan irəli gələn digər məsələlərin həll edilməsində metodik mərkəzlərin üzərinə çox böyük vəzifələr qoyulmuşdur. Metodiki mərkəzlər kitabxanaların inkişaf proqramının yerinə yetirilməsində respublika səviyyəli bütün tədbirlərin həyata keçirilməsində xüsusilə respublika və regional mərkəzlər fəal mövqeyə malik olmalıdırlar.

Son illərdə metodiki işin müxtəlif illərdə bir məfhum kimi dəyişməsi, onun bir termin kimi yeniləşməsi metodik təminatın məzmununda

da mühüm dəyişikliklərin aparılmasını tələb edir. Bu dəyişikliklər artıq dünya təcrübəsində, eləcə də, respublikamızda xeyli inkişaf etmişdir.

Məlum olduğu kimi, kitabxana-informasiya proseslərinin son dərəcə mürəkkəbləşdiyi, yeni texnologiya ilə zənginləşdiyi bir zamanda kitabxana işinin metodik təminatının öhdəsinə çox mühüm vəzifələr düşür. Müasir dövrdə kitabxana ictimaiyyəti metodik təminatın necə inkişaf etməsini düşünürlər. Bu problem kitabxana işinin ən aktual problemlərindən biridir. Kitabxanaların metodik təminatının həmişəki məzmunu xeyli dəyişmiş və zənginləşmişdir. Bu, şübhəsiz ki, ilk növbədə kitabxana işinin inkişafı, cəmiyyətdəki informasiya proseslərinə inteqrasiyası ilə əlaqədardır.

Hazırda, kitabxanaların metodiki təminat probleminin müxtəlif izahlara, şərhlərə və münasibətlərə məruz qaldığı kitabxanaçılıq fəaliyyətində baş verən kəmiyyət və keyfiyyət dəyişmələri ilə izah olunmalıdır.

Müasir dövrdə kitabxana işçiləri, metodistlər kitabxanaların metodik təminatı anlayışının mahiyyətinin dərindən dərk edilməsi üçün müasir dövrdə dünya informasiya məkanında baş verən yeni prosesləri, bu proseslərlə əlaqədar kitabxanaların fəaliyyətində meydana gələn konseptual dəyişiklikləri dərindən öyrənməli və tətbiq etməlidirlər.

Müasir dövrdə kitabxanaların metodiki təminatı dedikdə metodik mərkəzlər tərəfindən kitabxanaların və kitabxanaçıların fəaliyyətinin dövrün tələblərinə uyğun dinamik inkişafına yönəlmiş nəzəri əsaslara və mütərəqqi təcrübəyə söykənən, özündə rəngarəng forma və üsulları birləşdirən təşkilati-metodiki əməliyyatların hazırlanıb həyata keçirilməsi nəzərdə tutulur.

Kitabxanaların metodik təminatı sistemli fəaliyyət olub, cəmiyyətin kitabxana işinin analitik-sintetik təhlil metodlarına əsaslanan elmi informasiya, pedaqoji və təşkilati funksiyaları yerinə yetirir. Elmi funksiya bu gün ən vacib funksiyalardan biridir. Metodik təminat sisteminin elmi funksiyasının əsasını metodik mərkəzlərin ölkədə kitabxana işinin vəziyyətini və inkişaf yolların müəyyənləşdirən təhlil metodu ilə aparılan elmi tədqiqatlar təşkil edir. Bunun əsasında metodiki mərkəzlər cəmiyyətində kitabxanaların işinə yaradıcı çəkildə müdaxilə edərək metodiki təminatın istiqamətləndirilməsinə dair tövsiyələr irəli sürülməlidir.

Son illərdə dünya metodik təminat sistemində nəzərə çarpan cəhət metodik iş üsullarının elmi-tədqiqat üsulları ilə yaxınlaşması bir çox hallarda isə onların sintezidir. Bu müasir cəmiyyətdə baş verən mühüm kitabxana proseslərinin inkişaf qanunauyğunluqları ilə əlaqədardır. Həm

də metodik fəaliyyətin elmi-tədqiqat metodları ilə sintezi bu fəaliyyət özünün xarakterik cəhətlərindən irəli gəlir.

Metodik təminat sistemi baş verən kitabxana-informasiya proseslərinin ayrılmaz hissəsidir. Lakin bu prosesdə onun öz yeri vardır. Əgər hər bir kitabxananın əsas xidmət obyekti oxucu və ya informasiya istehsalçısıdırsa, metodik təminat sisteminin üç fəaliyyət obyekti vardır: oxucu, kitabxanaçı və kitabxana. Metodik fəaliyyət eyni zamanda elmi fəaliyyətin bir sahəsidir. Bu metodik fəaliyyətin əsas vəzifələrindəndir. Metodik fəaliyyət zamanı yalnız elmi müddəalar və prinsiplərdən, həmçinin kitabxanaşünaslığın nəzəri nailiyyətlərindən istifadə etməklə kitabxanaların metodik təminat prosesi öz inkişafını və səmərəliliyini təmin edə bilər. Beləliklə müasir dövrdə kitabxana işinin metodik təminat sistemi kitabxanaşünaslıq tədqiqatları ilə vəhdətdə olan sistemli fəaliyyət kimi təzahür edir. Bu baxımdan kitabxanaların təşkilari-metodik prosesində kitabxana işinin proqramlaşdırılması mühüm kitabxana əməliyyatlarının səmərələliyinin öyrənilməsi, kitabxanalarda sosioloji tədqiqatların keçirilməsi eksperimentlərin qoyulması və ya digər xarakterli müddəaların kitabxana işində tətbiq edilməsi, analitik təhlil xarakteri daşıyan arayışların məruzə və informasiya sənədlərinin hazırlanması, kitabxana işinin iqtisadi təhlili və s. kimi elmi- tədqiqat üsulları metodik–təminat sisteminin ayrılmaz tərkib hissəsinə çevrilməlidir.

Metodiki təminat sisteminin müasir dövr üçün başlıca istiqamətləri yeni kitabxana proqramlarının tətbiqi ilə bağlıdır. Azərbaycan Respublikasında bu sahədə bir sıra iri elmi kitabxanalarda yeni proqramların tətbiqinə başlansa da hələlik bu iş tamamlanmamış vəziyyətdədir. Yəni kitabxanalardan dünya təcrübəsində olduğu kimi geniş oxucu kütləsi lazımi səviyyədə istifadə edə bilmirlər, yəni bu iş sistem halında oxuculara xidmət göstərə bilmir. Elektron kitabxana, elektron kataloqun yaradılması və istifadəsi ürək açan deyil. Respublikamızın MKS-lərində və digər məktəb, uşaq, elmi-texniki və s. kitabxana şəbəkələri və internet sistemlərindən istifadə etməklə kitabxana xidməti yarıtmaz vəziyyətdədir.

Bütün bunlar onu göstərir ki, tez bir zamanda kitabxana şəbəkələri və sistemlərinin proqram təminatı həyata keçirilməli, bütün kitabxanaların kompüter təminatı, internetə qoşulması, lokal şəbəkə sisteminin qurulması və kitabxana xidmətinin dünya standartlarına uyğun həyata keçirilməsi təmin olunmalıdır.

Azərbaycan Respublikasının Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 saylı sərəncamı iə təsdiq edilmiş 2008-2013-cü illər üçün Döv-

lət proqramının tələblərinə uyğun olaraq Respublikamızda kitabxana işi sahəsində çox qlobal məsələlərin həll olunması durur. Prezidentin sərəncamında kitabxana işi sahəsində ciddi nöqsanların olduğu göstərilir. Göstərlir ki, beynəlxalq əlaqələr sahəsində kitabxanaların fəaliyyəti müasir tələblərə cavab vermir. Ölkədə milli biblioqrafiyanın, milli formatın, elektron kitabxananın, toplu kataloqun, koorporativ kitabxana şəbəkələrinin olmaması, dünya informasiya məkanında layiqli təmsil edilməyə imkan vermir.(1)

Bütün bu kimi çatışmazlıqların aradan qaldırılması işində metodik mərkəzlərin üzərinə çox ciddi vəzifələr düşür. Xüsusilə M.F.Axundov adına Milli Kitabxana onun elmi metodiki şöbəsi, həm kütləvi kitabxanalar, həm də digər kitabxana şəbəkələri və sistemləri üçün metodiki əlaqələndirmə mərkəzi kimi bu sahədə xüsusi proqnozlar, elmi tədqiqatlar və əməli tədbirlər həyata keçirməlidirlər.

Bunun üçün Dövlət proqramının icrasının əsas istiqamətlərində çox ciddi məsələlərin həlli qarşıya qoyulur. Xüsusilə kitabxana fondlarının müasir komplektləşdirmə mexanizminin yaradılması, inkişafı və müasir informasiya daşıyıcıları ilə təmin edilməsi, kitabxanaların kompüter və informasiya proqram təminatı, respublika üzrə kompüterləşdirilmiş kitabxana informasiya şəbəkəsinin yaradılması və inkişafı, metodik mərkəz olan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının modernləşdirilməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və madii-texniki bazasının möhkəmləndirilməsi və s. bu kimi problemlərin həlli bütövlükdə kitabxana işinə və elmi-metodik təminat işinin inkişafına güclü təkan verəcək.

## ƏDƏBİYYAT

### Azərbaycan dilində

1. *Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsində 2008-2013-cü illərdə inkişafi üzrə Dövlət Proqramı//Kitabxaşünaslıq və biblioqrafiya.- 2008.- № 2.- S.12*

2. *İsmayılov. X.İ. Kitabxana menecmentinin əsasları: Dərs vəsaiti.- B., 2005.-196 s.*

3. *İsmayılov. X.İ. Kitabxana informasiya texnologiyaları: Dərs vəsaiti.- B.: Nurlar, 2009.- 312 s.*

4. *İsmayılov. X.İ. Kitabxana işinin təşkili və idarə eilməsi: Dərslik.- B.: Nurlar, 2009 .- 392 s.*

5. *M.F.Axundov adına Azərbaycan Milli kitabxananın illik hesabatları: 2005-2009-cu illər*

**_Rus dilində_**

*6. Бибика Н. Не люблю быть проверяющим//Библиотекарь.-1991.-№II.-С.22-23.*

*7. Библиотечное дело: терминолог . словар М.,1986.-С.87*

*8. Будецкая О.Управленец? Методист? Консультант!// Библиотекарь.-1990.-№5.-С.41-42.*

*9. Высоцкая Е.К,Семенова Г.А.Методической службе развиваться // Сов.библиотековедение.-1991.-№1С.-46.*

*10. Тюлина Н.И. О развитии интеграционных пропессо в библиотечном деле // Сов.библиотековедение.-1986. № 4.-С.3-14*

*11. Фенелонов Е.А. Актуальные вопросы совершенствования теории практики организация методической работы в библиотечном деле.-М.,1984.-23 с.*

**_Х. И.ИСМАИЛОВ_**

**НОВЫЕ НАПРАВЛЕНИЯ МЕТОДИЧЕСКОГО ОБЕСПЕЧЕНИЙ БИБЛИОТЕЧНОГО ДЕЛА**

**_РЕЗЮМЕ_**

В статье рассматриваются новые направления методического обеспечения библиотек в соответствии Государственной программой развитии библиотек Азербайджана. Здесь также особое внимание удаляется работе методических центров в этом направлении.

**_Kh.İ.İSMAİLOV_**

**THE NEW DRECTION S of METHODICAL PROVISION of LIBRARY**

**_SUMMARY_**

Given article describes new directions of methodical provision of libraries in accordance with State Program of Azerbaijan Republic on Library Development. Special attention was paied also to the activity of methodical centers on the direction.

**Sevda XƏLƏFOVA**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının baş müəllimi*
*tarix üzrə fəlsəfə doktoru*

## KİTABXANA FONDUNUN FORMALAŞMASI: İDEYASI, ANLAYIŞI VƏ İNKİŞAFI

Kitabxana fondunun formalaşması- fondşünaslığın son illər yeni elmi təhlil tələb edən əsas problemlərindən biridir. Bu mövzu həm nəzəriyyəçilərin, həm də praktiklərin diqqətini özünə cəlb etmişdir. Çünki bu sahədə təxirə salınmadan baxılmasını tələb edən bir sıra suallar yaranmışdır. Fondun formalaşmasının tədqiqat problemlərinin işıqlandırıldığı və analiz olunduğu icmal xarakterli ümumiləşdirici işlərin az olması kitabxana işçilərinin informasiya alma səviyyəsini əhəmiyyətli dərəcədə azaldır (7).

1920-40-cı illərdə A.A. Pakrovski, L.B.Xavkina, V.N.Denisyev, A.N. Barabaşov və s. alimlər tərəfindən fondşünaslıq fikrinin yaranması, tarixi və inkişaf mərhələləri təhlil edilmiş, ümumiləşdirilmiş və əsərlərində öz əksini tapmışdır. 1950-70-ci illərdə kitabxana fondunun formalaşması və inkişafı sahəsində Y.V.Qriqoryev, T.D.Aydenberq, K.L.Varonko, N.S.Kartaşov və başqaları əvvəlki fondşünas alimlərdən müəyyən qədər irəli getmiş, onların fikirlərinə əlavələr etmişlər. 1980-90-cı illərdə isə uzun müddət kitabxana fondunun formalaşmasının nəzəri problemləri ilə məşğul olan müəlliflərdən professor Y.N.Stolyarov, V.İ.Tereşin, A.V.Markina, V.V.Şilov, T.A. Jdanov, İ.S.Pilko, respublikamızda isə professor A.A.Xələfov, M.M.Həsənov, A.Əliyev və başqaları bu işin təkmilləşdirilməsi sahəsində xeyli işlər görmüşlər.

Kitabxana fondu haqqında təlimin işlənməsində əsas rol Y.V.Qriqoryevə (1899-1973) məxsusdur. "Kitabxana fondunun formalaşması" anlayışı 1960-cı illərin sonunda Y.V.Qriqoryev tərəfindən sənədləri sistemləşdirilmiş toplu, daha dəqiqi, kitabxana fondu şəklinə salan bütün texnoloji prosesləri özündə əks etdirən ifadə kimi düşünülərək elmi dövriyyəyə buraxılmışdır. Bu, kitabxana fonduna sistem şəklində yanaşmanın ortaya çıxmasında, eləcə də kitabxana fondunun formalaşması nəzəriyyəsinin inkişafında böyük rol oynadı. Kitabxana fondşünaslığının görkəmli banisi sayılan Y.V.Qriqoryev 50 ilə yaxın müddətdə kitabxanaşünaslıq problemlərinin işlənməsi ilə məşğul olmuş,

kitabxana fondunun formalaşmasının müxtəlif nəzəri və təcrübi məsələlərinə dair 30-dan artıq iş çap etdirmişdir. Dağınıq tədris qaydalarının "Kitabxana fondları" mükəmməl ali məktəb kursunda birləşdirilməsində də onun mühüm xidmətləri olmuşdur (10).

"Kitabxana fondlarının təşkili" anlayışının geniş şəkildə təşəkkül tapması 1950-ci illərin əvvəlinə təsadüf edir. Həmin vaxtlar Y.V.Qriqoryevin indinin özündə də məşhur olan eyni adlı kitabı çapdan çıxmışdı. 1955-ci ildə geniş "kitabxana fondları" anlayışı meydana çıxdı. Bu termin "kitabxana fondunun təşkili" anlayışını "komplektləşdirmə" və "məzmun" anlayışları ilə birgə ehtiva edirdi.

Bu sahədə keyfiyyətli sıçrayış 1973-cü ildə baş verdi- Y.V.Qriqoryev bütün bu prosesləri "formalaşma" anlayışı altında birləşdirdi. Və onun "Kitabxana fondunun formalaşmasının nəzəri əsaslsrı" kitabı fondşünaslığın inkişafında əhəmiyyətli təkan oldu, Y.V.Qriqoryev ilk dəfə olaraq sistemli yanaşmanın tətbiqinin mümkünlüyünü bəyan etdi, kitabxana fondunun yaradılması və qorunması üzrə bütün proses və əməliyyatları birgə götürməklə bu yanaşmanı təcrübədə reallaşdırdı.

Y.V.Qriqoryevin əsas nəzəri nailiyyəti fondun komplektləşdirilməsi və təşkilinin (onun təbirincə desək, uçot, işlənmə, yerləşdirmə, qorunma), habelə idarə olunmasının ümumi prinsiplərə əsaslanan və vahid tələblərə tabe olan vahid sikl olmasını sübut etməsindən ibarətdir. Bu traktovka sayəsində kitabxana fondu haqqında təlim bütövlük, mükəmməllik qazandı və qəti olaraq kitabxanaşünaslığın müstəqil bölməsinə çevrildi. Y.V.Qriqoryev kitabxana fondunun mahiyyətini müəyyənləşdirdi, bu anlayışın geniş və dar planda miqyasını, kitabxana fondunun fərqləndirici cəhət və xüsusiyyətlərini, onun formalaşmasının ümumi prinsiplərini (o vaxta qədər yalnız komplektləşdirmə prosesinin prinsipləri işlənmişdi) səciyyələndirdi. Müasir dövrdə onlardan daha əhəmiyyətlisi ilk dəfə olaraq əsaslandırılmış fondun tərkib və həcminin kitabxananın vəzifələrinə və onun oxucularının tələblərinə uyğunluğu prinsipidir. Müəllif bəzən uyğunluq prinsipinə qanun kimi baxırdı.

Kitabxana fondunun formalaşması nəzəriyyəsində daha bir ideya fondların vahid formalaşma prosesinin bir-biri ilə bağlı olan və dialektik birlikdə çıxış edən üç mərhələyə (komplektləşdirmə; kitabxananın komplektləşdirmə üzrə işinin təşkili və idarə olunması; fondların cəmiyyətin yeni tələblərinə daim uyğunluğunun təmin edilməsi əsasında təşkili) ayrılması haqda Y.V.Qriqoryevin təklifi oldu (6). aha dəqiq desək, fondun komplektləşdirilməsi, fondun təşkili və fondun idarə

olunması. Bu dəyərləndirmə uzun illər olduğu kimi qəbul edilmiş və ali məktəb dərsliyinə (Y.N.Ctolyarov, "Kitabxana fondu", 1979) daxil edilmişdir (9).

Sonralar bəzi kitabxanaşünaslar (V.İ.Tereşin, A.V.Markina, Y.N.Stolarov, V.V.Şilov) kitabxana fondunun formalaşmasına dair proseslərə daha dərindən, detallı şəkildə və bir qədər də qeyri-ənənəvi baxış bucağından yanaşsalar da, bu məsələdə hələ də yekdil rəyə gəlinməmişdir.

Y.N.Stolyarovun 1991-ci ildəki "Kitabxana fondu" (9) adlanan ali məktəb dərsliyində isə kitabxana fondlarının formalaşmasının texnoloji sistemi aşağıdakı proseslərə bölünmüşdü: kitabxana fondlarının modelləşdirilməsi, komplektləşdirmə, sənədlərin uçotu, sənədlərin işlənməsi, sənədlərin yerləşdirilməsi, sənədlərin qorunmasının təmin olunması, sənədlərin çatdırılması, informasiyanın analizi.

Y.V.Qriqoryevin davamçıları onunla əsasən razılaşsalar da, fondun formalaşması prosesinin mərhələlərə bölünməsi ideyasından imtina etdilər. Məsələ ondadır ki, "təşkil" anlayışı bütün bu mərhələləri özündə birləşdirir: həm komplektləşdirmə, həm də idarə olunma təşkil edilməlidir; idarəetməyə həm komplektləşdirmə, həm də fondun formalaşmasının sonrakı prosesləri aiddir. Beləliklə, idarəetmə özlüyündə ayrıca mərhələ olmayıb, kitabxana fondunun formalaşmasının bütün proses və mərhələləri ilə paralel həyata keçirilir. Görünür, problemin həlli bir qədər də vaxt tələb edir. Y.V.Qriqoryevin təsəvvürlərinə görə, idarəetmə fondun oxucular tərəfindən istifadəsinin nəticələri bəlli olduqdan sonra başlayır. O, nəticə dedikdə, təkrar seçməni və fondun fasiləsiz diferensiasiyasını nəzərdə tuturdu. Y.V.Qriqoryev kitabxana fondunun yoxlanılmasını ikinci mərhələdən üçüncü mərhələyə keçirmişdi. Bunlar "idarəetmə" bölməsini öz məzmunu ilə tamamlamaq cəhdləri olmaqla çox qiymətlidir. Baxmayaraq ki, burada bir sıra dəqiqləşdirmələrə də ehtiyac vardı. Belə ki, ikinci seçməyə təkcə nəticə deyil, həm də idarəetmə vasitə kimi baxılmalıdır. Eyni ifadələri birinci seçim haqqında da demək olar. Üstəlik, onları bir-birindən ayırmaq, ayrı-ayrı mərhələyə aid etmək olmaz. Çünki onlar qarşılıqlı əlaqədə mövcuddurlar.

Xüsusi vurğulamaq gərəkdir ki, Y.V.Qriqoryev fondşünaslıqda idarəetmə aspektinin işlənməsinin vacibliyini əsaslandırdı, ümumi kitabxanaşünaslıqda "kitabxana menecmenti" adlanan konsepsiyanın meydana çıxmasından bir qədər əvvəl bu aspekti işləməyə başladı.

“Kitabxana fondlarının formalaşmasının nəzəri əsasları” Y.V.Qriqoryevin kitabxana fondşünaslığı sahəsində yaradıcılığının zirvəsi idi. Bu əsər kitabxanaşünaslığın bu bölümündə əhəmiyyətli nailiyyətləri ümumiləşdirir, eyni zamanda onun inkişafında keyfiyyətcə yeni mərhələnin başlandığına dəlalət edirdi.

Elmi ədəbiyyatda kitabxana fondlarının formalaşması prosesləri haqqında bir neçə tərifə rast gəlmək mümkündür. Y.V.Qriqoryevin tələbəsi və davamçısı hesab edilən Y.N.Stolyarovun “Kitabxana fondu” dərsliyində aşağıdakı tərif verilmişdir: “Formalaşdırma dedikdə, kitabxana fondunun yaradılması, daimi inkişafı və işlək vəziyyətdə saxlanılması nəzərdə tutulur.

Kitabxana işi üzrə terminoloji lüğətdə ("Kitabxana işi. Terminoloji lüğət", M., 1997) “Kitabxana fondlarının formalaşması” anlayışına daha dolğun tərif verilir: “Kitabxana fondunun yaradılmasına və inkişafına yönəlmiş proseslərin məcmusu komplektləşdirmədən, fondun təşkili və idarə olunmasından, eləcə də çap məhsullarının və digər materialların çıxarılmasından ibarət olub, kitabxananın növündən, oxucuların tərkibindən, sayından və maraqlarından, oxucu məhsullarının buraxılmasından, elm və istehsalın informasiya tələbatlarının inkişafından asılıdır”.

Kitabxana fondlarının formalaşması fasiləsiz prosesdir. Bu proses kitabxana mövcud olduqca davam edir. Fondun formalaşması üzrə iş kitabxananın bir çox əməkdaşlarının fəaliyyətinin əsas məzmununu təşkil edir. Kitabxana fondunun formalaşması kitabxanaçıdan kitabxana qarşısında duran tapşırıqları dəqiq bilməyi, istifadəçi kontingentini daim öyrənməyi, onların tələbatlarını, maraqlarını, ədəbi zövqlərini, stimullarını və sənədlərə yanaşma motivlərini bilməyi tələb edir.

Kitabxana fondlarının texnoloji cəhətdən formalaşması fondun ideal obrazının və ya modelinin müəyyənləşdirilməsindən başlayır. Növbəti mərhələ sənədin əldə olunması, seçilməsi və ya komplektləşdirmədir. Daha sonra sənədin uçotu, işlənməsi, yerləşdirilməsi, qorunması və oxucunun tələbi ilə çatdırılması gəlir. Bu proseslərin gedişində informasiya daim analiz olunur və analizin nəticələrinə uyğun olaraq ona korrektələr edilir.

“Kitabxana fondları” sistemi üçün kitabxana fondlarının formalaşmasının əhəmiyyəti ondadır ki, fondun, demək olar, bütün səciyyəvi cəhətləri məhz və yalnız onun formalaşması nəticəsində yaranır. Fondun

keyfiyyəti və böyüklüyü isə kitabxananın sonrakı fəaliyyətini şərtləndirir.

1960-cı illərdə yeni informasiya texnologiyalarının meydana gəlməsi və sürətlə tətbiqi nəticəsində kitabxana fondları və bütövlükdə kitabxanalar üzərində ciddi təhlükə yarandı. İnformasiyanın telekommunikasiya vasitələri ilə ötürülməsi imkanı, qeyri-ənənəvi sənədlərin inkişafı "kitablarsız kitabxana" konsepsiyasını ortaya çıxardı ki, bu da sonradan "kitablarsız, oxucularsız, kitabxanaçılarsız kitabxana" iddiasına qədər yüksəldi. Zamanın yeni çağırışına bir çox kitabxanaçılar çap yaradıcılığı ilə işləməyin prinsipial xüsusiyyəti və sənəd növü olaraq kitabın üstünlüklərini əldə əsas tutaraq kitabxanaları kompüterləşmədən kənarda qoymaq cəhdi ilə cavab verdilər.

Bunun nəticəsi olaraq kitabxanalara alternativ sənəd-kommunikasiya institutları meydana çıxdı. Yeni yaradılmış informatika elminin nəzəriyyəçiləri kitabxanaşünaslığın arxaikliyini sübut etməyə çalışırdılar.

İnkişaf etmiş ölkələrdə isə, xüsusən ABŞ-da bu cür kəskin konfrontasiya yox idi, diskussiyalar kitabxanaşünasların öz aralarında aparılırdı. Onlar yeni informasiya texnologiyalarının üstünlüklərini yetərincə tez qiymətləndirərək, onları səylə tətbiq etməyə başladılar, nəzəri səviyyədə isə inteqral kitabxana-informasiya elmi anlayışını işləyib hazırladılar.

Sovet kitabxanaşünaslığında, xüsusən fondşünaslığında isə vəziyyət daha dramatik şəkildə inkişaf edirdi. Fondşünaslar informatiklərin tənqidlərindən konstruktiv nəticələr çıxardılar. Bu, hər şeydən əvvəl fondyaradıcı element haqqında təsəvvürlərin genişlənməsinə aid idi. Onlar 1970-ci illərdən başlayaraq kitabxanaşünaslığın predmeti və obyekti haqqında müzakirələrin gedişində sənəd anlayışını qəbul edərək, onu həm termin dövriyyəsinə, həm də ümumi kitabxanaşünaslıq leksikasına daxil etdilər.

Məlum olduğu kimi, kitabxana fondşünaslığında fondların formalaşma sisteminə aşağıdakı prosesləri daxil etmək qəbul edilmişdir: 1) Fondun modelləşdirilməsi;

2) Fondun komplektləşdirilməsi; 3) Fonda daxil olan və ya çıxarılan sənədlərin uçotu; 4) Sənədlərin xüsusi işlənməsi; 5) Sənədlərin fondda yerləşdirilməsi; 6) Fondun düzülüşü; 7) Onun qorunmasının təşkili; 8) Fondun istifadə edilməsi; 9) Fondun idarə edilməsi və s.

Bu zaman fondun idarə olunması başlıca yer tutur. O, iki aspekti özündə birləşdirir:

1) Fondun formalaşmasının və inkişafının idarə olunması (həcmində, tematikasında, dolğunluğunda və s.-də əks olunur);

2) Fondun istifadəsinin idarə olunması (kitab verilişi, sorğu, rədd cavabı, uyğunluq indeksi, sitat-analiz və s.-də əks olunur).

Beləliklə, fondun idarə olunması onun formalaşması strategiyasının müəyyənləşdirilməsini, həmçinin onun inkişafı və istifadəsinə uçot və nəzarət olunmasını əks etdirir (7).

1990-cı illərdə fondun formalaşması məsələlərinə dair silsilə məqalələr nəşr olunur. Bu məqalələrdə əsas diqqət aşağıdakı problemlərə ayrılırdı: prioritet oxucu kateqoriyalarının informasiya tələbatlarının dolğun və operativ təmin olunması; fondun nüvəsinin formalaşması və fonda daxil etmək üçün sənədlərin seçim və qiymətlilik kriteriyalarının müəyyənləşdirilməsi; komplektləşdirmə proseslərinin avtomatlaşdırılması (naşir və kitab ticarəti təşkilatlarının verilənlər bazasının yaradılması, perspektiv və cari informasiya əsasında ədəbiyyat sifarişlərinin verilməsi); termin sisteminin işlənməsi; komplektləşdirmə prosesində kitabxanaçının rolu və s.

Bu gün fondların formalaşması ilə bağlı kitabxanaların qarşısında bir çox əngəllər dayanır: kəskin maliyyə çatışmazlığı, daxilolmaların həcminin azaldılması üçün texnoloji hazırlıqsızlıq, komplektləşdirmə üsul və metodlarının konservativliyi, əməyin qeyri-mükəmməl təşkili, milli depozitar mühafizə sisteminin dağılması, nəhəng milli kitabxanaların fondlarına yeni daxilolmaların natamamlığı, buraxılışa hazırlanan və yeni nəşr olunmuş ədəbiyyatlar haqqında tam və dolğun informasiyanın olmaması, məcburi pulsuz nüsxələrdə boşluqların mövcudluğu və s. (11)

## ƏDƏBİYYAT

### Azərbaycan dilində

1. *Əliyev A. Kitabxana fondunun formalaşmasının yeni prinsipləri və onlara müasir baxışlar // Kitabxanaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri və təcrübi jurnal.- 2001, № 2 (9).- 56-66*

2. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik: (üç hissədə). B., 2001.- 798 s.*

3. *Həsənov M. Kitabxana fondunun yaranması, formalaşması və idarə edilməsi: Dərs vəsaiti.- B.: BDU, 2004.- 143 s.*

**Rus dilində**

4. *Библиотечные фонды: Учебник для библ. фак. ин-тов культуры, пед. ин-тов и ун-тов / Ю.Н. Столяров и др. М.: Книга, 1979. С. 27—33.*

5. *Васильченко Н.П. Формирование библиотечных фондов // Научные и технические библиотеки 1996. № 5. С. 22—28;*

6. *Григорьев Ю.В. Теоретические основы формирования библиотечных фондов: Уч. пособие. М.: Книга, 1973. С. 47.*

7. *Жданова Т.А. Проблематика научных исследований в области формирования фондов библиотек: некоторые акценты // Научные и технические библиотеки 1999. № 6. С. 3—14*

8. *Пилко И.С. Формирование библиотечного фонда: о терминологии и технологии // Научные и технические библиотеки 1997. № 10. С. 16-25.*

9. *Столяров Ю.Н. Библиотечный фонд: Учебник для библ. фак. ин-тов культуры, ун-тов и пед. вузов. М.: Кн. палата, 1991. 271 с.*

10. *Столяров Ю.Н. Сто лет библиотечного фондоведения. // Научные и технические библиотеки .- 2001.- №6.- С 16-46*

11. *Шилов В.В., Эйдемиллер И.В., Тихонова О.В. и др. Проблемы формирования фондов на современном этапе // Библиотековедение. 1996.- № 3.-С.65-*78.

***С.А.ХАЛАФОВА***

## ФОРМИРОВАНИЕ БИБЛИОТЕЧНОГО ФОНДА: ИДЕЯ, ПОНЯТИЕ И РАЗВИТИЕ

### *РЕЗЮМЕ*

В статье рассказывается о возникновении идеи формирования, понятии и развитии библиотечных фондов, новшества, внесенные выдающимся представителем библиотечного фондоведения Ю.В.Григорьевым в эту область, комментарии по отношению к Григорьеву его продолжателями и существующие проблемы фондоведения.

*S.A. KHALAFOVA*

**LİBRARY FUND FORMATİON: İTS İDEA, CONCEPT AND DEVELOPMENT**

***SUMMARY***

The article is about the creation of idea of library fund formation, its concept and development and it makes comments on the innovations brought to this field by the outstanding researcher of the library fund studies Y.V.Grigoriev and his successors' attitude and existing problems of the fund studies.

**Oruc QULİYEV**
*Xətai rayon MKS-in direktoru*

# İNFORMASİYALAŞDIRMA CƏMİYYƏTİNDƏ XƏTAİ RAYON MKS-İN FƏALİYYƏTİ HAQQINDA

Tarixi-mədəni, ədəbi-bədii və elmi fəlsəfi irsin toplanıb saxlanılmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında, cəmiyyətin intellektual mənəvi potensialının inkişafında əvəzsiz rol oynayan və xalqın milli sərvəti olan kitabxanalarımız çox qədim bir tarixə malikdir.

Azərbaycan ərazisində ilk kitabxanalar həmin ərazidə ən erkən dövlət qurumlarının mövcud olduğu dövrdə yaranmışdır. V əsrdə Albanların yazılı dili yarandıqdan sonra Qafqaz Albaniyasında kilsə və məktəblərdə bu dilə tərcümə edilmiş kitablardan ibarət kiçik kitabxanalar yaradılmışdır. VII əsrdə (bu dövrdə Azərbaycan ərəblər tərəfindən istila edilmişdi) məscidlərin və mədrəsələrin nəzdində kitabxanalar yaradılmışdı.

Orta əsrlərdə Azərbaycanda saray kitabxanaları ilə yanaşı, dini, xüsusi elmi və şəxsi kitabxanalar mövcud idi.

XIX əsrin ikinci yarısında Azərbaycanda kütləvi kitabxana və qiraətxanalar, əsrin sonunda isə neft sənayesi işçiləri üçün texniki ədəbiyyat fonduna malik olan kitabxanalar yaradılmağa başlanmışdı.

XX əsrdə respublikanın ən böyük kitab xəzinələri yaradılmış, bütün bölgələri əhatə edən geniş kiabxanalar şəbəkəsi qurulmuş və mərkəzləşdirilmiş kitabxanaların maddi-texniki bazası möhkəmləndirilmiş və kitab palatası təşkil olunmuşdur.

Bu gün Azərbaycanda geniş kiabxana-informasiya şəbəkəsinə malik 12 mindən artıq müxtəlif tipli kitabxana mövcuddur.

Müasir informasiyalaşdırılmış cəmiyyət şəraitində kitabxanaların qarşısında əhalini yüksək kitabxana və informasiya xidməti ilə təmin etmək, Respublikanın sosial-iqtisadi, siyasi və mədəni inkişafında, müstəqilliyin irəli sürdüyü tələblərə uyğun yeni insanın yetişdirilməsində, ictimai-siyasi həyatın humanistləşdirilməsində, demokratiyanın və milli özünüdərkin inkişafında, azərbaycançılıq ideologiyasının təbliğində insanların ümumbəşəri sərvətləri olan kitabxanalardan istifadə etmək hüququnu təmin etmək vəzifələri qoyulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin son illər kitabxana sahəsinin inkişafı ilə bağlı bir-birinin ardınca qəbul etdiyi çoxsaylı qərarlar, o

cümlədən ilk dəfə Azərbaycan Respubliksaında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafi üzrə Dövlət proqramı Azərbaycan Dövlətinin bu sahəyə prioritet bir məsələ kimi baxdığını və kitabxana ictimaiyyətinin bu qərarlardan irəli gələn məsələlərin həyata keçirilməsi üçün çox böyük məsuliyyət daşımasının vacibliyini ortaya qoymuşdur.

Bu və ya digər vəzifələrin həyata keçirilməsində digər kitabxanalar kimi, Xətai rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi də öz töhfəsini verməyə çalışır.

Xətai rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1974-cu ildə Keçmiş SSRİ hökümətinin ölkədə kitabxana işinin inkişafında yeni keyfiyyət mərhələsi olan kitabxanaların mərkəzləşdirilməsi haqqında qərarından sonra Bakıda eksperiment olaraq ilk və yeganə sistem kimi 1975-ci ildə yaradılmışdır.

Xətai rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi Mərkəzi Kitabxana və 4 filialı özündə birləşdirir və yarandığı gündən kitabxana işinin bütün forma və metodlarından istifadə edərək əhaliyə kitabxana-biblioqrafiya və informasiya xidməti göstərmiş, MKS-in maddi-texniki bazasının möhkəmləndirilməsi, digər kitabxanalarla əlaqələrin qurulması, zamana uyğun kitabxana işində baş verən yeniliklərin MKS-də tətbiqi və s. istiqamətdə iş aparmışdır ki, nəticədə Xətai rayon MKS hal-hazırda öz səmərəli fəaliyyəti ilə digər kitabxanalardan fərqlənir.

Mərkəzləşdirilmiş Kitabxana Sistemi fondunda müxtəlif məzmunlu 170 min nüsxədən artıq ədəbiyyat qoruyub saxlamaqla 20 mindən artıq oxucuya xidmət göstərir ki, bunlar da müxtəlif kateqoriyaya (müəllim, həkim, mühəndis, fəhlə, tələbə və şagird, təqaüdçü, istehsalatda çalışanlar, mütəxəssislər və s.) aid oxuculardan ibarətdir.

İl ərzində kitabxanaya ayrı-ayrı elm sahələri üzrə, milli və digər dillərdə təxminən 4 minə qədər yeni ədəbiyyat daxil olur ki, bunların kitabxana qaydasında işlənib kitabxanalara verilməsi və oxucuların istifadəsinə çatdırılması üçün operativ şəkildə iş aparılır.

Dövri mətbuata abunə ilə yanaşı Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasında internet vasitəsi ilə oxuculara xidmət işi təşkil olunmuşdur ki, bu da son vaxtlar kitabxanaya müraciətləri xeyli artırmış, kitabxanaya gəliş il ərzində 100 mindən artıq olmuş, oxuculara kitab verilişi isə 200 mindən çox olmuşdur.

Mərkəzləşdirilmiş Kitabxana Sistemində kataloqlarla aparılan iş-ədəbiyyatın kataloqlaşdırılması, kataloqlara düzülmüş kartoçkalar, kataloqların redaktə olunması; məlumat-biblioqrafiya işi - oxuculara verilən

yazılı və şifahi arayışlar, biblioqrafik kartotekaların və onlara daxil edilmiş yeni kartoçkalarin işlənməsi; kütləvi tədbirlərin keçirilməsi - sərgilər, biblioqrafik icmallar, oxucu konfransları, kitab təqdimatları, ədəbi-bədii gecələr, görüşlər, məruzə və mühazirələr, stendlərin təşkili; təşkilatı-metodik iş - filiallara gedişlər, metodiki məktubların və tövsiyələrin hazırlanması, kitabxana işçilərinə verilən məsləhətlər, seminarların keçirilməsi, Mərkəzləşdirilmiş Kitabxana Sisteminə daxil olan yeni ədəbiyyat haqqında informasiya bülletenlərinin hazırlanması və digər metodiki tədbirlər; kadrlarla iş- işçilərin ixtisasının artırılması üçün müxtəlif kurslara o cümlədən kompüter kurslarına göndərilməsi, işə qəbul zamanı təhsilli və təcrübəli işçilərə üstünlük verilməsi, təcrübə mübadiləsi üçün müxtəlif kitabxanalara ezamiyyələrin təşkili və s. xüsusi diqqət mərkəzində olmuşdur ki, nəticədə oxuculara verilən rədd cavabları  xeyli azalmışdır.

İl boyu ayrı-ayrı şöbələrin fondla aparılan sistemli işi nəticəsində fondun düzülüşü və ondan istifadə işi yaxşılaşmış, fonddakı lazımsız ədəbiyyat silinmiş, lazımlı, lakin az istifadə olunan ədəbiyyat depozitar fonda verilmişdir.

İnformasiya texnologiyalarının tətbiqi və istifadəsinə xüsusi diqqət yetirilmiş kitabxanada beynəlxalq təşkilatların köməyi ilə  resurs informasiya mərkəzi yaradılmış, və mərkəz kömpüter, sürətçıxarma apatarı və digər lazımi avadanlıqlarla təmin olunmuş yüzlərlə oxucu həmin mərkəzdə pulsuz kömpüter kursları keçərək biliklərə yiyələnmişlər.

Mərkəzkəzləşdirilmiş Kitabxana Sisteminin saytı yaradılmış (Xətai-MKS.az) və oxucuların istifadəsinə verilmişdir, eyni zamanda M.F. Axundov adına Milli Kitabxananın dəstəyi ilə VTLS-Virtua proqramı əsasında Mərkəzləşdirimiş Kitabxana Sisteminin fondunda olan ədəbiyyatın elektron kataloqunun yaradılması üzərində bir neçə ildir iş aparılır və hal-hazırda fondda olan ədəbiyyatın 50%-ə qədəri kömpüterin yaddaşına verilmişdir ki, bu da  oxucuların kitabxanadan istifadəsinin xeyli yaxşılaşdırmışdır.

Mərkəzləşdirilmiş Kitabxana Sisteminin kollektivi öz işini günün tələbləri səviyyəsində qurmaq üçün kitabxana işinin müxtəlif forma və metodlarından istifadə edir, ətrafdakı təhsil ocaqları və istehsalat müəssisələrinə gedişlər edir, oxucular üçün səyyar xidmətlər təşkil edir, açıq rəf üsulundan istifadə edir, müxtəlif mövzularla əlaqədar məqalələr hazırlanır ki, bütün bunlar oxucuların kitabxanadan istifadəsini asanlaşdırır, diyarşünaslıq işi, ekologiya, gənclərlə iş, ölkəşünaslıq, vətənpərvərlik,

milli bayramlara aid olan işlər, əmək tərbiyəsi, estetik tərbiyə və s. bağlı müxtəlif tədbirlər keçirilir.

Xətai rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin S. Vurğun adına Mərkəzi Kitabxanası Mədəniyyət və Turizm Nazirliyinin xüsusi əmrinə əsasən Mərkəzi İncəsənət kitabxanası statusu almışdır ki, bununla əlaqədar Mərkəzi Kitabxanada ayrıca İncəsənət və Fonoteka şöbəsi fəaliyyət göstərir və burada incəsənətin bütün sahələri ilə əlaqədar çeşidli tədbirlər keçirilir.

Kitabxananın fəliyyətinin səmərəli olması üçün ən vacib işlərdən biri kitabxanaların maddi-texniki bazasının möhkəmlədirilməsi olmasının əhəmiyyətini dərk edərək, Mərkəzləşdirilmiş Kitabxana Sisteminin rəhbərliyi bu sahəyə xüsusi diqqət yetirməsi, Mərkəzi Kitabxana və filialların təmirinə, yeni avadanlıq və inventarların alınmasına, xüsusilə yeni texnologiyaların alınıb tətbiq olunmasına kommunal təsərrüfat işinin düzgün qurulmasına, problemlərin lazımi instansiyalar qarşısında qaldırılması və həllinə nail olunmasına səy göstərmişdir.

Mərkəzi Kitabxana Sisteminin kollektivi eyni zamanda şəhər və rayonun ictimai-siyasi həyatında fəal iştirak etmiş və bu işə öz töhfəsini vermişdir.

Mərkəzi Kitabxana Sistemində kitabxana fəaliyyətinin vacib hissəsi olan sorğu-biblioqrafiya və məlumat işi aparılır. Kitabların biblioqrafik icmalları keçirilir, biblioqrafik sərgilər, kataloqlarla iş, əlamətdar günlərə həsr olunmuş mövzu kartotekaları düzəldilir, informasiya bülletenləri tərtib olunur, biblioqrafiya dərsləri keçirilir, diyarşünaslıqla əlaqədar Azərbaycana həsr olunun kitabların biblioqrafik icmalları: Azərbaycanın xoş gələcəyi üçün çalışıb-vuruşmuş, mərd qəhrəman oğullarına həsr olunmuş kitabların bibiloqrafik icmalları, 20 yanvar, Xocalı faciəsinə həsr olunmuş biblioqrafik icmallar və s. keçirilir ki, bu da əhaliyə daha səmərəli xidmət göstərməyə kömək edir.

XXI əsrdə elmin, texnikanın inkişafı, qloballaşma, informasiya bolluğu, cəmiyyətin bütün sahələrində olduğu kimi kitabxanalarda da yeni texnologiyaların tətbiqi dünyada kitabxana işinə yeni məzmun vermiş, fəaliyyətimizin bütün sahələrində işimizə tamamilə yenidən baxışı zəruri etmişdir. Bu mənada kitabxanalarımızda maddi-texniki bazanın möhkəmlədirilməsinə müasir dövrün tələblərinə uyğun əsaslı təmir və yenidənqurma işlərinə,yeni texnika və texnologiyanın tətbiqinə, inventar və avadanlıqların müasirləşdirilməsinə və s. ehtiyac vardır.

Rayon ərazisində kitabxanaların səmərəli yerləşdirilməsi, kitabxanası olmayan ərazilərdə kitabxanaların yaradılması məqsədəmüvafiq olardı. Təcrübə mübadiləsi üçün digər ölkələrə ezamiyyələrin təşkili, beynəlxalq konfraslarda kitabxana işçilərinin iştirakı və s. lazımi instansiyalarda bu işə daha çox diqqət ayırmağı zəruri edir ki, bu da dünyada kitabxana-informasiya sahəsində baş verən yenilikləri praktiki olaraq görmək, bu işdə bilavasitə iştirak etmək və qabaqcıl təcrübənin işimizdə tətbiqinə çox böyük töhfə verərdi.

Xətai rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi gələcəkdə fəaliyyətini kitabxana "Kitabxana işi haqqında" qanuna uyğun qurmaqla, beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən layihələrdə iştirak etməklə, Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə dövlər proqramının müddəaları əsasında, kitabxana işində yenilikləri özündə tətbiq etməklə müasir dövrün tələbləri səviyyəsində fəaliyyət göstərməyə çalışacaqdır.

Fikrimi ümummilli liderimiz Heydər Əliyevin kitabxanalar haqqında aşağıdakı sözləri ilə tamamlamaq istərdim "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir, ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir...Kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm".

Ümid etmək istərdim ki, yaxın gələcəkdə bizim kitabxanalar da müstəqil Azərbaycanın uğurlarının rəhninə çevriləcəkdir.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı. 2008-ci il*
2. *Xələfov.A.- XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişafı istiqamətləri.:Bakı,2006, 106 s.*
3. *İsmayılov.X.- Kitabxana işinin idarə edilməsinin metodiki və təşkilati məsələləri: Dərs vəsaiti.-Bakı,1996, 98 s.*
4. *Kuzmin.Y. Azərbaycan Kitabxanaları.: Bu gün və Sabah, məruzə.: Bakı,2004, 60 s.*
5. *Məmmədova.L. Azərbaycan kitabxanaları: Modernləşmə yolları axtarışında.:Bakı,2003, 56 s.*
6. *Xətai rayon Mərkəzi Kitabxana Sisteminin hesabatları*

***O. КУЛИЕВ***

**О ДЕЯТЕЛЬНОСТИ ЦБС ХАТАИНСКОГО РАЙОНА В ИНФОРМАТИЗАЦИИ ОБЩЕСТВА**

***РЕЗЮМЕ***

В статье рассматривается деятельность Хатаинского ЦБС г. Баку, особенности обслуживания читателей, модернизация работы библиотеки, процесс создания электронной библиотеки.

***O.GULİYEV***

**ABOUT CONTEMPORARY ACTIVITY OF CONTRALISED LIBRARY SYSTEM OF KHATAI REGION**

***SUMMARY***

The article reviews the activities of Khatai CLS of Baku, particularly service to readers, the modernization of the library, the process of creating an electronic library.

**Rəşad QARDAŞOV**
***Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müəllimi***

## AZƏRBAYCANDA KİTABXANAÇILIQ ÜZRƏ ORTA İXTİSAS TƏHSİLİNİN YARANMASI VƏ İNKİŞAFI

Azərbaycanda orta ixtisas təhsili məktəblərinin yaranma tarixi XIX əsrin 80-ci illərinə təsadüf etsə də, bu təhsil şəbəkəsinin geniş şəkildə inkişafı XX əsrin 20-ci illərində başlanır. Sovet hakimiyyəti dövründə texnikumların açılması dövrün zəruri tələblərindən irəli gəlirdi. Sosialist təsərrüfat sistemi elm, maarif, mədəniyyət və istehsalat sahələri üçün sovet ideologiyasının daşıyıcıları olan ixtisaslı kadrlar hazırlanmasına xüsusi diqqət yetirirdi. Belə kadrların hazırlanması üçün açılan müxtəlif profilli texnikumlar çox sürətlə artıb çoxalırdı.

1920-ci illərin axırlarına yaxın respublikada 39 orta ixtisas məktəbi fəaliyyət göstərirdi. 1930-cu illərin ortalarında onların sayı artıq 89 idi. Savadsızlığın elliklə ləğv edilməsi işinə ölkənin bütün imkanları səfərbərliyə alınmışdı. Bu sahədə təhsil müəssisələri ilə yanaşı kitabxanalar və klublar da mühüm işlər görürdülər. 1930-cu illərdə bütün cəbhə boyu yeni ideoloji əsaslar üzərində qurulan mədəni-maarif işləri Sovet ideologiyasının böyük həssaslıqla yanaşdığı bir iş sahəsi idi. Ona görə də bu istiqamətdəki quruculuq işləri ilə xüsusi peşə-ixtisas hazırlığı olan adamların məşğul olmasına böyük siyasi əhəmiyyət verilirdi. Bakı Mədəni-Maarif texnikumu da məhz bu zərurətdən yarandı. Azərbaycan Xalq Komissarları Sovetinin 5 mart 1938-ci il tarixli qərarı ilə yaradılan bu təhsil ocağı 1938-ci ilin sentyabr ayında Bakı şəhər sovetinin kitabxanaçılıq məktəbi adı ilə fəaliyyətə başlayır (6, s.18).

Fəaliyyət göstərdiyi dövrdə onun adı bir neçə dəfə dəyişsə də, uzun illər profili dəyişməmişdir. İstər sovet Azərbaycanında, istərsə də müstəqillik əldə etmiş Azərbaycanımızda kitabxana və klub şəbəkələrinin inkişaf edib formalaşmasında bu təhsil müəssisəsinin hazırladığı orta ixtisas təhsilli kadrların əvəzsiz rolu olmuşdur.

Təkcə, 1920-1927-ci illərdə Respublikada 15 pedaqoji texnikum açılır. Bakıda onların sayı xüsusilə sürətlə artır. Rəssamlıq texnikumu (1920), Neft texnikumu, Sovet Ticarət texnikumu (1921), Bakı Məktəbəqədər Pedaqoji texnikumu və s. tədris müəssisələri ixtisaslı kadrlar hazırlayırlar. 1926-1927-ci tədris ilində respublikada artıq 39

pedaqoji, kənd təsərrüfatı, sənaye-texniki, sənaye-iqtisad, nəqliyyat, tibb, bədii və s. sahələr üzrə orta ixtisas təhsil ocaqları var idi. Bu məktəblərdə 7,1 min nəfər təhsil alırdı. 1930-cu ildən başlayaraq ikinci dərəcəli məktəblərin yuxarı siniflərinin (8-9-cu siniflərin) ixtisas texnikumlarına çevrilməsi prosesinə başlanılır. Birinci beşilliyin sonu (1920-1925-ci illər) üçün artıq respublikada 14,8 minə yaxın tələbə kontingentinə malik olan 85 orta ixtisas məktəbi fəaliyyət göstərirdi. Orta pillə üçün ixtisaslı kadrların hazırlanmasında əhəmiyyətli rol oynamış bu təhsil ocaqlarından hər birinin özünəməxsus inkişaf yolu, ömür tarixçəsi vardır. Onların inkişaf mərhələləri Azərbaycanın siyasi, sosial-iqtisadi, mədəni və təsərrüfat həyatının inkişaf mərhələlərini əks etdirir.

Belə orta ixtisas məktəblərindən də biri 70 ilə yaxın fəaliyyət göstərən Bakı Mədəni Maarif texnikumudur.

Mədəni quruculuğun kitab nəşri, mətbuat, kitabxanaçılıq və klub işi kimi vacib ideoloji sahələrinə sovet hökuməti xüsusi həssaslıqla yanaşır. 1920-ci ildən başlayaraq kağız ehtiyatı və mətbəələrin milliləşdirilməsinə başlanılır. Yeni dövlət nəşriyyatları yaranır.

Kitabların mövzu və məndəricəsi yeni quruluşun tələblərinə uyğun olaraq dəyişdirilir. İlk sovet kitabları dövrün vacib ideoloji məsələlərinə, partiya və dövlət sənədlərinə, siyasətə, xalq təsərrüfatına, mədəni quruculuq məsələlərinə həsr olunmuş kütləvi nəşrlər idi. Eyni zamanda kitab nəşrinin dinamik inkişafında nəzərə çarpacaq canlanma yaranır. Əgər 1920-ci ildə Azərbaycanda vur-tut 3 adda 63 min nüsxədə kitab nəşr olunmuşdursa, 1938-ci ildə artıq ümumi tiraj həcmi 9774,0 min nüsxəni təşkil edən 1030 adda kitab məhsulatı buraxılmışdı. (4, s.7).

1923-cü ildə Azərbaycan Dövlət kitabxanasının, 1925-ci ildə Azərbaycan Dövlət Kitab Palatasının açılması Azərbaycanın mədəni həyatında mühüm hadisə oldu.

Mədəni quruculuq işində mədəni-maarif müəssisələrinin təşkil edilməsi dövrün vacib və təxirəsalınmaz vəzifələrindən idi. Kütləvi savadsızlığın ləğvi, əhali arasında siyasi-maarif işinin gücləndirilməsi üçün mədəni-maarif müəssisələri mühüm əhəmiyyətə malik idi. Bunun üçün yerlərdə kitabxanalar, klublar, qırmızı çadrlar, qiraət komaları təşkil edilir, mədəni-maarif müəssisələrinin geniş şəbəkəsi yaradılırdı. Bütün bunlar isə bir tərəfdən sovet hökumətinin əhaliyə göstərdiyi qayğının təbliği idisə, digər tərəfdən sovet quruluşunun prinsiplərini müdafiə edən ideologiya bazarlarının yaradılması idi. Təkcə, 1921-ci ildə Bakıda və onun ətrafında 40 klub açılmışdı. 1922-ci ilin sonuna yaxın isə onların

sayı artıq 90 idi. Azərbaycanın ərazisində olan bütün kitabxanalar Respublika Xalq Maarif Komissarlığının tabeliyinə keçirilir, mövcud kitabxanaların fondları əsasında ictimai kitabxanalar yaradılır. Yeni-yeni kitabxanalar açılır. 1921-ci ildə respublikada ümumi kitab fondu 390 min nüsxəni təşkil edən 69 kütləvi kitabxana fəaliyyət göstərdiyi halda, 1940-cı ildə artıq 2 milyon 62 min nüsxə kitabı olan 1383 kütləvi kitabxana oxuculara xidmət edirdi.

Bu kitabxanaların 1089-u kənd yerlərində idi. 1940-cı ildə fəaliyyətdə olan 1633 klub müəssisəsindən 1399-u rayon və kənd yerlərində iş aparırdı. Göründüyü kimi, mədəni quruculuq illərində Azərbaycanda klub və kitabxanaların sayı sürətlə artır. Şəhər, rayon və kəndlərdə onların geniş şəbəkəsi yaradılırdı. Təbiidir ki, iş təkcə mədəni maarif müəssisələrinin sayını artırmaqla bitmirdi. Ən vacibi bu müəssisələri səriştəli işçilərlə, ixtisaslı kadrlarla təmin etmək idi.

Lazımi kadrlar hazırlamaq üçün Bakıda Respublikanın digər iri şəhərlərində qısa müddətli seminarlar, kurslar təşkil edilir. Lakin bunlar günü-gündən artan və getdikcə daha vacib və məsul vəzifələri yerinə yetirməli olan klub və kitabxanaçı kadrlarına olan ehtiyacı ödəyə bilməzdi. 1930-cu illərin axırlarına yaxın Azərbaycanda klub işçisi və kitabxanaçı hazırlayan bir dənə də olsun tədris müəssisəsi yox idi. Azərbaycan höküməti 1934-cü ildən başlayaraq Moskvanın kitabxanaçılıq institutuna Leninqradın siyasi-maarif institutuna, habelə şəhərlərin siyasi-maarif məktəblərinə tələbələr göndərməyə başlayır. Sonralar həmin tədris müəssisələrini bitirib Azərbaycana qayıdan məzunlar demək olar ki, ilk milli kadrlar kimi mədəni-maarif işinin təşkilatçıları və qurucularından oldular. Lakin onlar ümumən Respublikada aparılan geniş mədəni-quruculuq işlərinin tələbatını yerinə yetirə bilmirdilər.

1938-ci ilin martında Azərbaycan hökuməti respublika kitabxanalarını ixtisaslı kadrlarla təmin etmək məqsədilə Bakıda 1938-1939-cu dərs ilində kitabxanaçılıq texnikumunun yaradılması ilə bağlı qərar qəbul edir. Qərarda deyilirdi: “1938/39-cu dərs ilinin əvvəli üçün Bakıda 3 əsas şöbədən ibarət təhsil müddəti 3 il olan texnikum açılsın. Azərbaycan, rus və erməni dillərində kadr hazırlamaq üçün 300 nəfərlik və kitabxana işçilərinin ixtisasını artırmaq üçün təhsil müddəti 1 il olan 60 nəfərlik kurslar təşkil edilsin”.

Qərarda Azərbaycanın rayonlarından gələn tələbələr üçün 200 nəfərlik və ixtisasartırma kurslarına gələn işçilər üçün 40 nəfərlik – cəmi 240 yerlik yataqxana təşkil edilməsi, texnikumu ixtisaslı müəllimlərlə

təmin etmək üçün Moskva və Leninqradın Ali kitabxanaçılıq institutlarını bitirənlərdən 5 nəfərini Azərbaycan Xalq Maarif Komissarlığının sərəncamına göndərilməsi, habelə həmin institutlarda Bakı kitabxanaçılıq texnikumunu bitirənlər üçün 5 yer ayırması üçün RSFSR Xalq Maarif Komissarlığı qarşısında məsələ qaldırılması da nəzərdə tutulurdu.

Qərar özlüyündə çox geniş və əhatəli idi. Demək olar ki, burada texnikumun yaradılması və normal işləməsi üçün lazım gələn bütün məsələlərə diqqət yetrilirdi.

Bakı şəhər sovetinə təklif olunurdu ki, 1938-ci ilin avqust ayının 1-dək tədris korpusu üçün 360 nəfərlik yataqxana üçün 240 nəfərlik bina ayrılsın. RSFSR-dən dəvət olunan mütəxəssis müəllimlər üçün şərait yaratmaq, onları mənzillə təmin etmək üçün Azərbaycan Xalq Maarif Komissarlığına göstəriş verildi. 1938-ci ilin iyul ayında respublika qəzetlərində texnikuma qəbul ilə əlaqədar elanlar dərc olunur. Azərbaycan Xalq Maarif Komissarlığı Ələsgərov Əli Qafar oğlunu Kitabxanaçılıq texnikumuna direktor təyin edir.

1938-ci ilin sentyabr ayının 15-də bu tədris müəssisəsi Azərbaycan Xalq Maarif Komissarlığının Kitabxanaçılıq məktəbi adı ilə fəaliyyətə başlayır. İlk gündən müxtəlif maddi-texniki çətinliklərlə qarşılaşan məktəb normal fəaliyyət göstərə bilmir. Bakı Xalq Maarif şöbəsinin ayırdığı sinif otaqlarında bütün gün ərzində ümümtəhsil məktəblərinin dərsləri keçirildiyi üçün onlardan ancaq üçüncü növbədə - axşamlar istifadə olunurdu ki, bu da çox böyük çətinliklər yaradırdı.

1938/39-cu tədris ilində məktəbə 150 nəfər tələbə qəbul olunur. Lakin tələbə qəbulu bununla bitmir və bütün tədris ili ərzində davam edir. Məhz buna görədir ki, 1939/40-cı tədris ilində artıq məktəbdə 177 nəfər oxuyurdu. İxtisas fənlərindən dərs deyən müəllimlər çatışmırdı. Azərbaycan Xalq Maarif Komissarlığı Respublikasının görkəmli maarif xadimi, kitabxana işinin bilicilərindən biri olan M.H. Rzaquliyev Azərbaycan bölməsinə, 1933-cü ildə Moskva Kitabxanaçılıq institutunu bitirmiş S. Yəhyazadəni isə rus bölməsinə ixtisas fənn müəllimi təsdiq edir. Fəaliyyətə başladığı birinci tədris ilində məktəbdə işləyən ilk müəllim kollektivi və onların apardığı dərslərin ümumi mənzərəsi aşağıdakı kimi olmuşdur.

Siyasi Maarif məktəbinin 1 oktyabr 1941-ci il tarixli pedaqoji şurasının qərarı ilə tələbələr kitabxanaçılıq və siyasi maarif profili üzrə qruplaşdırılır. Bununla da yeni ixtisas, klub işçisi ixtisası üçün zəmin ya-

radılır. Öz fəaliyyətin təşkili üzrə peşəkar, ixtisaslı adamlar müəllim kimi dəvət olunurlar.

1948-ci ildə çağırılmış Azərbaycan respublikası kitabxana işçilərinin müşavirəsində ixtisaslı kitabxana işçilərinin hazırlanması sahəsində yeni vəzifələr irəli sürülür. Təhsilin səviyyəsini yüksəltmək üçün Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinin ayrıca kitabxanaçılıq fakültəsinə çevirmək və siyasi maarif məktəbində keçirilən kitabxanaşünaslıq və biblioqrafiya fənlərinə dair dərs kitabları hazırlamaq siyasi-maarif məktəbində qiyabi şöbə yaratmaq kimi vəzifələri mədəni-maarif müəssisələri komitəsi qarşısında qoyur.

Şuşa Mədəni-Maarif məktəbi 1921-ci ildən seminariya kimi fəaliyyətə başlamışdır. 1932-ci ildən pedaqoji (məktəb) texnikum kimi fəaliyyət göstərmişdir. 1938-ci ildə texnikuma M.Əzizbəyovun adı verilmişdir. Texnikumda 1980-81-ci tədris ilinə kimi əsasən orta təhsilli pedaqoji kadr hazırlanmışdır. 1974-cü ildə Şuşa pedaqoji məktəbinin ilk buraxılışının 50 illiyi qeyd edilərkən məktəb fəaliyyətə başladığı dövrdən 50 il müddətində 5823 nəfər orta ixtisaslı müəllim hazırlanmışdır. 1976-77-ci dərs ilindən başlayaraq Şuşa pedaqoji məktəbinə əlavə iki ixtisas üzrə tələbə qəbulu keçirildi: kitabxanaçılıq işi ixtisası orta təhsil bazasından 30 nəfər, mədəni-maarif işi ixtisası üzrə 25 nəfər natamam orta təhsil bazasından.

Orta ixtisas təhsilli kitabxanaçı qismən də olsa aradan qaldırmaq məqsədilə 1981-ci il 13 dekabr tarixində SSRİ Alı və Orta ixtisas təhsili Nazirliyi Azərbaycanda orta ixtisaslı kadr hazırlayan texnikumların təşkili üçün 93-01-54/109-18 nömrəli məktubuna əsasən Azərbaycan Respublikası Ali və Orta ixtisas Təhsili Nazirliyinə xüsusi göstəriş verdi. Həmin məktubu əsas götürərək Azərbaycan Respublikası Ali və Orta ixtisas Təhsili Nazirliyi özünün 11 noyabr 1981-ci il 169 nömrəli əmri ilə M. Əzizbəyov adına Şuşa pedaqoji məktəbinin adı dəyişdirilərək, Şuşa Mədəni Maarif Məktəbi kimi fəaliyyətə başladı. Odur ki, məktəbə ibtidai sinif müəllimi ixtisası üzrə tələbə qəbulu dayandırıldı və məktəbin yeni profilinə uyğun olaraq tələbə qəbulu iki ixtisas: "Kitabxanaçılıq işi və mədəni-maarif işi" ixtisasları üzrə aparılırdı.

1982-ci ildən "Kitabxanaçılıq" və "Mədəni-maarif" işi ixtisasları üzrə təhsil və tərbiyə sahəsindəki işlərin keyfiyyətini yaxşılaşdırmaq üçün ayrı-ayrı ixtisaslar üzrə şöbələr fəaliyyətə başladı. Artıq bu zaman kitabxanaçılıq işi şöbəsində 228 nəfər, mədəni-maarif işi şöbəsində isə 250 tələbə təhsil alırdı. Tələbə kontingentinin çoxalması ilə əlaqədar ola-

raq hər iki ixtisas üzrə müxtəlif şöbələr fəaliyyətə başladı. Kitabxanaçılıq şöbəsində 228 nəfər, mədəni-maarif işi şöbəsində isə 250 tələbə təhsil alırdı. Tələbə kontingentinin çoxalması ilə əlaqədar olaraq hər iki ixtisas üzrə müxtəlif şöbələr fəaliyyətə başladı. Kitabxanaçılıq şöbəsində qəbul qaydası belə idi. Şöbəyə qəbul orta və natamam orta təhsil bazasından qəbul olunan 2 il, natamam orta təhsil bazasından qəbul olanlar isə 2 il 10 ay təhsil alırdılar. Təhsil müddəti başa çatdıqdan sonra mövcud tədris planlarına əsasən məzunlara kütləvi kitabxanalarda işləmək hüququ ilə kitabxanaçı ixtisası verilirdi. Ümumiyyətlə, 1982-ci ildən başlayaraq şöbəyə tələbə qəbulu planı Respublika Təhsil Nazirliyi tərəfindən müntəzəm olaraq ildən-ilə artırılmağa başlandı. Əyani şöbəyə 1982-ci ildə 90 nəfər tələbə qəbul edildi. Onlardan 30 nəfəri natamam orta təhsil bazasından, 60 nəfəri isə orta təhsil bazasından qəbul edilmişdir. 1983-cü il tələbə qəbulu planı bu şöbədə bir qədər də artırılır. Belə ki, natamam orta təhsil bazasından, 60 nəfər yəni 2 qrup, orta təhsil bazasından isə 90 nəfər, yəni 3 qrup qəbul edilmişdir. Dağlıq Qarabağ Muxtar Vilayətində ərazinin profilliyinə uyğun olaraq erməni dilli əhalinin tələblərini nəzərə alan Respublika hökuməti 1984-cü ildə məktəbin əyani şöbələrində hər iki ixtisas üzrə ayrıca erməni şöbəsi yaradılmasına göstəriş verdi və ilk qəbulda hər ixtisasdan 25 nəfər olmaqla 50 nəfər tələbədən ibarət erməni şöbəsi fəaliyyətə başladı. 1989-cu ildə bu şöbə Qarabağ hadisələri ilə bağlı olaraq Xankəndinə köçdü və 1990-cu ilə kimi Şuşa Mədəni-Maarif texnikumunun büdcəsindən maliyyələşərək hər il müstəqil tələbə qəbulu keçirtməyə nail oldu(4).

Beləliklə, respublikada kitabxanaların sayının artması və mövcud kitabxanaların maddi-texniki bazasının güclənməsi ixtisaslı kadrların yetişdirilməsinə diqqəti artırdı. Artıq 40-cı illərin sonlarından başlayaraq respublikada ali təhsilli kitabxanaçı kadrların hazırlanması prosesi başlandı.

## ƏDƏBIYYAT

1. Cəbrayılov F. Mədəniyyətə xidmət edən təhsil ocağı. Bakı: Vətən nəşriyyatı, 2005, 223 s.

2. Xələfov.A Azərbaycanda kitabxana işinin tarixindən.- Bakı,1986.-50s

3. Xələfov.A Azərbaycanda kitabxanaçılıq təhsilinin inkşafı. Bakı:Maarif, 1987, 130 s.

4. Quliyev T. Azərbaycanda kitabxanaçılıq işi. Azərbaycan Dövlət Universiteti. 1986, 85 s.
5. Nəcəfov Ə. Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işi tarixindən (1923-1990-cı illər).-Bakı: Səda, 2000, 232 s.

***Rus dilində***

6. Културная политика в Азербайджане. Министерство культуры Азербайджанской Республики, Баку: «Нагыл еви» 2003, 252 с.

***Р.ГАРДАШОВ***

**ВОЗНИКНОВЕНИЕ И РАЗВИТИЕ СРЕДНЕГО БИБЛИОТЕЧНЕГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ**

***РЕЗЮМЕ***

Библиотечное образование в Азербайджане прошло очень длинный путь. В нашей статье освещается о библиотечных курсах, которые в первые прошли путь для создания библиотечных кадров. В подготовление кадров средних образовательных специальности средней школы играет большую роль Просветительные Техникумы Баку, Шушинский Гуманитарный Колледж. В статье также были перечислены имена некоторых школ и их деятельность, также было широко раскрыто их направление.

***R.QARDASHOV***

**The ARISING and DEVELOPMENT of the EDUCATION of MIDDLE PROFESSION for LIBRARY in AZERBAIJAN**

***SUMMARY***

Education of library science has passed a long way in Azerbaijan. A long way which arising from librarian courses to the middle speciality schools has been lightened in the article. There are its role of Shusha humanitarian college and Baku cultural and educational technical school In the preparing of the secondary education librarian cadres. There is has been talked about the way which they passed and activities directions of these schools in the article.

**Mitra DADAŞİ NASRİN**
***Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının aspirantı***

# TƏBRİZ UNİVERSİTETİ KİTABXANALARININ SƏNƏD-İNFORMASİYA RESURSLARI

Təbriz Universitetinin Mərkəzi kitabxanası ölkənin ən zəngin ali məktəb kitabxanalarından biridir. Təbriz Universiteti 1967-ci ildə yenidən yaradılmış və həmin ildə də onun strukturunda önəmli yeri olan kitabxana təşkil olunmuşdur. Təbriz Universiteti bərpa edildikdən dərhal sonra rəhbərlik ali məktəbin bir nömrəli laboratoriyası hesab olunan universitet kitabxanasının yaradılmasına başladı. İlk növbədə universitetə ayrılmış binanın birinci mərtəbəsində kitabxanaya yer verildi. Kitabxananın fondunu yaratmaq üçün 1967-ci ildə universitetin keçmiş fakültələrinin bazasında yaranmış institutlardan kitablar köçürüldü və Mərkəzi kitabxananın fondu yaradıldı. Azərbaycanda fəaliyyətə başlayan ilk elmi kitabxana Təbriz Universitetinin Mərkəzi Kitabxanası olmuşdur (1).

Universitetlərdə fakültə kitabxanaları ilə yanaşı mərkəzi kitabxana fakültə kitabxanalarının işlərini harmonikləşdirmək, eyni işlərin yenidən təkrar olunmaması, vaxtı itirməmək, xərcdə qənaətçilik, başqa kitabxanalara texniki xidmətlər (yeni kitab və sənədlərin sifarişi, alınması və s. vermək və oxucuların kütləvi tələbatını təmin etmək məqsədilə yaradılır. Deyilən məqsədlərə görə 1967-ci ildə ədəbiyyat və tibb kitabxanaları birləşdi və Təbriz Universitetinin Mərkəzi kitabxanası yarandı.

Universitetin Mərkəzi kitabxanası tələbələrin və professor-müəllim heyətinin mədəni və mənəvi mərkəzidir. Təbriz Universitetinin Mərkəzi kitabxanası şəxsiyyətin formalaşması üçün mədəniyyət fenomenidir. O, yaradılan mədəni sərvətləri və informasiya resurslarını toplayır, qoruyur, eyni zamanda onların istifadəsini və yayımlanmasını təmin edir. Bu kitabxana 2008-ci ilə qədər Təbriz Universitetinin içindəki binada xidmət göstərirdi.

Əvvəlki binanın üç mərtəbəsi vardı. Zirzəmidə dövri nəşrlər (300 adda), dissertasiya, xəritə, nadir və əlyazma kitablar, əvvəlki mətbuatın arxivi yerləşmişdir. Birinci mərtəbədə uçot şöbəsi, kitabişləmə və kataloqlaşdırma, təsnifat şöbəsi, sənədlərin sifariş şöbəsi, məlumat fondu yerləşmişdir. İkinci mərtəbədə kitabların bazası, abonement şöbəsi və kitabxana rəhbərinin otağı vardı (1,2,3,4,5,6).

Əvvəlki kitabxanada yer məhdudiyyəti yeni kitabların alınması və başqa planların yerinə yetirilməsinə imkan vermirdi. Buna görə də 1990-cı ildə Mərkəzi kitabxananın yeni binasının tikintisi başlandı və 2008-ci ildə başa çatdı. İlbəil Mərkəzi kitabxananın maddi-texniki bazası xeyli yaxşılaşır. Yeni binada kitabsaxlayıcı üçün ayrılan yerin genişlənməsi yeni kitabların alınmasına şərait yaratmışdır (7,8).

Kitabxana fondu əvvəllər bilavasitə Onluq Təsnifat əsasında formalaşmışdır. Bu kitabxanada və həmçinin fakültə kitabxanalarında Amerika Konqres kitabxanası (LC) təsnifatından istifadə edilir. Həmçinin fondun məzmununu açmaq üçün kitabxana kataloqlarının tərtib edilməsinə də xüsusi diqqət yetirildi. Mərkəzi kitabxana universitetin elmi-tədqiqat və texnologiya şöbəsinin nəzarəti altında xidmət edir.

Təbriz Universitetinin Mərkəzi kitabxanası əvvəllərdə öz məlumat bazalarını Təbriz Universitetinin veb saytında əks etdirirdi. 2009-ci ildən Mərkəzi kitabxana İnternetdə öz fəaliyyətini əks etdirən xüsusi veb saytını yaratmışdır. Həmin veb sayt vasitəsilə geniş elmi ictimaiyyət və kitabxana ictimaiyyəti kitabxananın fəaliyyəti ilə ətraflı tanış ola bilərlər.

2010-cu ildən Təbriz universitetinin rəqəmli kitabxanası işə başladı və Təbriz universitetinin portalı 10 fakültə portalı ilə birliklə təsis olundu. Beləliklə, "Pars Azərəxş" proqram təminatının Veb versiyası vasitəsilə Mərkəzi kitabxananın fondunda və bütün fakültə kitabxanalarının fondunda axtarış aparmaq mümkündür. Həmçinin bu versiya vasitəsilə kitabxanaçılar bütün sənədlərin və kataloqların informasiylarını bu proqram təminata daxil edə və ya silə bilərlər.

Mərkəzi kitabxananın veb saytının sol tərəfində elektron nəşrlərin siyahısı yerləşir. Birinci sətirdə abonementdə olan informasiya bazalarının üzərində kilik etmək lazımdır. Sonra açılan səhifədə verilənlər bazalarının siyahısı ekranda təqdim olunur.

Kitabxanada 16 verilənlər bazaları mövcuddur ki, onlar da aşağıdakılardan ibarətdir:

1. **ScienceDirect:** ScienceDirect tam mətnli verilənlər bazasıdır ki, 2.500-dən artıq jurnal məqalələrini kitab fəsilləri və 11.000 artıq kitabı təqdim edir. Hal-hazırda onda 9.5 milyondan çox məqalə, fəsil var və hər il demək olar ki onun sayı 0,5 milyon artırılır. Science Direct, Elsevierin bir hissəsidir. Elsevier dünyanın ən böyük elmi, texniki və tibbi informasiya provayderidir və 2.000-dən artıq jurnal, kitab və verilənlər bazasını nəşr edir (9).

2. **EBSCO:** Dünyada çox məşhur məlumat bazasıdır ki, onun vasitəsilə tam mətnli e-jurnal, e-kitablar, verilənlər bazaları və s. istifadə etmək olar. Bu jurnallardan ən kütləvi və oxunaqlı səciyyə daşıyanları CD-ROM-larda təqdim edilir. Bütün başqa məlumatlar isə İnternet şəbəkəsi vasitəsilə əldə olunur. EBSCO bütün bunlarla bərabər, təkcə ABŞ və Avropada deyil, kontingentin başqa yerlərində də nəşr olunan sənədlərin elektron variantlarını oxucularımıza təqdim edir və 81.000-dən artıq naşir ilə əlaqəsi var. Ümumilikdə EBSCO məlumat bazası 20-dən artıq mövzunu özündə birləşdirmişdir. Buraya «Dil və dilçilik», «Ədəbiyyat və ədəbi tənqid», «Fəlsəfə», «Fizika», «Astronomiya, astro-fizika», «İqtisadiyyat, biznes, menecment», «Kimya», «Tarix, arxeologi-ya», «Hüquq, kriminalogiya», «Psixologiya, psixiatriya», «Coğrafiya», «Geologiya», «Riyaziyyat», «Biologiya və biologiya elmləri», «Tibb», «Kompüter və proqramlaşdırma texnologiyaları», «Kənd təsərrüfatı», «Ətraf mühit», «Sosiologiya, sosial elmlər», «Təhsil», «Politologiya, si-yasi elmlər» və s. mövzular daxildir. Bütün universitetlər EBSCO Host məlumat bazasından sərbəst şəkildə istifadə edə bilərlər.(10)

3. **ProQuest:** Dünyada ən böyük elektron kitabxana Ann-Arborda (ABŞ. Miçiqan ştatı) yerləşmiş "ProQuest"şirkətinə məxsusdur. Bu elek-tron kitabxana minlərlə dövri nəşri, dissertasiyanı, kitab və digər çap əsərini özündə əks etdirir. Bu məlumat bazası müxtəlif mövzularda, mə-sələn, menecment, hüquq, iqtisadiyyat, kompüter, siyasi elmlər, ticarət və s. sahələr üzrə 6500-dən artıq Amerika qəzetlərinin xülasəsini əhatə edir. 16 verilənlər bankı var ki, onlar da aşağıdakılardan ibarətdir:

a) ABI/ INFORM Global (iqtisadiyyat, bank, ticarət və s. mövzu-larda).

b) Academic Research Library (humanitar elmlər, hüquq, qanun, uşaqlar, incəsənət, qadınlar, psixologiya və s. mövzularda).

c) Banking Information Source və s.

ProQuestin dissertasiya verilənlər bazasında 700 universitet iştirak edir və hər il 60.000-dən arıq yeni dissertasiya ora əlavə olunur. 1861-ci ildən dünyada dissertasiyaların biblioqrafik informasiyası və xülasəsi mövcüddür və 1997-ci ildən magistratura və doktorantura pilləsində olan dissertasiyaların əvvəlki 24 səhifəsi onda əks edilib 11).

4. **Wliey – BlackWell:** 2007-ci ildə iki böyük naşir "John Wiley" və "Blackwell birləşdi və Wliey-BlackWell verilənlər bazası yarandı. Hazırda o dünyanın ən məşhur universitet və professional naşirlərindən biridir. O, 1400 etibarlı elektron jurnalları, fizika elmləri, tibb və səhiy-

yə, mühəndislik, humanitar və ictimai elmlər və s. mövzusunda dünyada ən çox müraciət olunan elektron kitabları əhatə edir (12).

5. **MathSciNet:** Amerika Riyaziyyat Cəmiyyəti tərəfindən tanınan verilənlər bazasıdır ki, onda riyazi elmlər sahəsində məqalələr, istinadlar, xülasələr və s. biblioqrafik informasiyalar diqqətlə saxlanır və rahatlıqla axtarış aparılır. Hər il 100.000-dən artıq yeni riyazi mövzular təsnifatda yerləşdirilir, əlavə edilir. MathSciNet-nin 2 milyondan çox mənbəni özündə saxlayır və 1 milyon orijinal məqalələrin biblioqrafik informasiyasını əldə etməyə imkan verir. 400-dən artıq jurnalın istinad siyahısını toplayır və jurnallar, müəlliflər, məqalələr və icmallar üçün sitat informasiyasını təmin edir. Bu verilənlər bazasının əsas mövzuları riyaziyyat, kompüter elmləri, statistika və tətbiqi statistikadır (13).

6. **Sage Journals Online**: Hazırda 450 tam mətnli jurnaldan istifadəni təmin edir. Bu jurnallar elmin müxtəlif sahələrini, məsələn, humanitar, dilçilik, texnologiya, tibbi və s. əhatə edir (14).

7. **Scopus:** Ən böyük verilənlər bazasıdır ki, keyfiyyətli elmi-tədqiqat və veb mənbələrin xülasələrini və sitatını özündə əks edir və elmi-tədqiqatı izləmək, analiz və aydın təsəvvür etmək üçün yaxşı vasitədir. Scopusda 500-dən artıq beynəlmiləl kitabxana iştirak edir. Bu verilənlər bazası hər gün yenilənir və 4 000-dən artıq naşirin 15.000 jurnalın xülasələri və istinadlarını əks etdirir. Bu verilənlər bazası vasitəsilə 1000 açıq girişli jurnalların tam mətnli məqalələrindən istifadə etmək olar. Bu verilənlər bazası ən məşhur naşir “Elsevier” vasitəsilə yaradılır (15).

8. **ISI Web of Knowledge:** Bu verilənlər bazası humanitar elmlər, incəsənət, ictimai elmlər mövzusunda güclü informasiya-axtrış vasitəsidir. Bu platforma dünyanın sitat gətirilən verilənlər bazalarına girişi təmin edir. 23.000 jurnal, 192000 konfrans materialı, 5500 veb saytı, 5000 kitabı və s. əhatə edir. Thomson Reuterin nəzarəti altında işləyir (16).

9. **EndNotWeb:** Hazırda şəxsı informasiyanın menecmenti tədqiqatçılara problemlər yaradır. “Thomson” şirkəti tədqiqatçıların rahatlığı üçün Endnote proqram təminatını təmin edir. Bu proqram təminatı vastəsilə tədqiqatda informasiyanın menecmenti, istinadlarını yazmaq və biblioqrafiyaları yaratmaq üçün ən yaxşı vasitədir. Endnote tədqiqatçılara və elmi məqalələr yazan yazıçılara istinadların menecmenti, məqalə yazmaq və müxtəlif beynəlxalq naşirlərin standartına müvafiq məqalələri nəşr etməkdə böyük köməklik edir. WOK portalında bu proqram təminatı veb sayt vasitəsilə tədqiqatçılar, müəllimlər və tələbələrin istifadəsinə verilib. İstifadəçilər axtarış zamanı, axtarışın nəticələrini bu

proqram təminatına daxil edib, formalaşdırıb və çıxış edə bilərlər. Bu proqram təminatı 2300-dən artıq məqalə nəşr etmək standartları və müxtəlif formatları beynəlxalq istinad yazma tərəfindən qəbul olunmuşdur (17).

10. **IEEE (Institute of Electrical and Electronics Engineers):** İnformasiya texnologiya, elektronika, kompüter, fizika, tətbiqi fizika və işıq mühəndisliyi və s. mövzularında ən böyük verilənlər bazasıdır. 1988-ci ildən jurnallar, standartlar, konfransların informasiyalarını əks etdirir. XXI əsrə qədər 38 cəmiyyətə və üzvlərinə 130 jurnal, 300-dən artıq illik konfrans və 900 aktiv standart ilə xidmət edir (18).

11. **ACM (Association for computing Machinery):** Hesablayıcı maşınların assosiasiyası 1947-cı ildən işə başlamışdır. Hazırda ACM assosiasiyasının 92000 üzv və kompüter-riyaziyyat, kompüter-biologiya, kompüter-dilçilik, kompüter-ticarət və iqtisadiyyat, kompüter şəbəkələri, kompüter proqram təminatı, İnternet və s. mövzularda 37 jurnal nəşr edir. ACM bir elmi təşkilatdır və (İT) İnformasiya Texnologiyalarının ixtisasındadır. Hazırda bu assosiasiya elektron kitabxanasının fəaliyyətini genişləndirib və ACM e-jurnalları, 6 illik onlayn konfrans hesabatının arxivi və 1985-ci ildən verilənlər bazalarının biblioqrafik informasiyalarından istifadə etməyi mümkün edir. Bu elektron kitabxananın imkanlarından istifadə etmək pulsuzdur (19).

12. **ACS (American Chemical Society):** Amerika Kimya Cəmiyyəti 1875-ci ildən kimyəvi elmlərin inkişafı məqsədilə fəaliyyətə başladı. Hazırda o dünyanın ən böyük elmi cəmiyyətidir ki, onun 158.000-dən artıq üzvü var. Hazırda ACS 35 jurnal vasitəsilə geniş xidmət edir və mühəndislər və elmi- tədqiqat işçilərini informasiya ilə təmin edir. Bu informasiyalardan kimyəvi cəmiyyətlər və kimyəvi ekspertlərin istifadəsinə imkan yarardır (20).

13. **AIP (American Institute of physics):** 1931-ci ildən Amerika Fizika İnstitutu fəaliyyətə başladı. AIP-in məqsədi fizika elminin istifadəsini genişləndirmək və inkişafıdır. Bu institut və ona bağlı cəmiyyətlər dünyanın dörddə bir elmi-tədqiqat mətnlərini nəşr edir. 125.000 alim, mühəndis və tələbə ondan istifadə edir (21).

14. **APS (American physics Society):** Amerika Fizika Cəmiyyəti 1899-cu ildən fizika elmlərinin inkişafı məqsədilə fəaliyyətə başladı. APS fizika elmi üzrə dünyanın ən məşhür jurnallarını nəşr edir.(22)

15. **ASME (American Society of Mechanical Engineers):** Amerika Mexanika Mühəndisləri Cəmiyyəti 1880-cı ildə öz fəaliyyətinə baş-

ladı və hazırda dünyanın ən qabaqcıl və tanınmış Mühəndislik cəmiyyətlərindən biridir. ASME 100 ildən artıq təcrübəsi var və 127.000-dən artıq dünyanın mexanika mühəndisləri olan üzvləri ilə öz fəaliyyətini davam etdirir. ASME hər il 30 konfrans təşkil edir və mexanika mühəndislik ixtisasında texnika üzrə ən böyük naşirlərdən biridir. 1980-ci ildən jurnalları, 1999-ci ildə e-kitabları, 2002-ci ildən konfransların informasiyasını əks etdirir.(23)

16. **ASCE ( American Society of Civil Engineers):** Amerika İnşaatçılar Cəmiyyəti 1852-ci ildə fəaliyyətə başladı və hazırda 123.000 üzvü var. ASCE onlayn tədqiqat kitabxanası 1995-ci ildən 630.000-dən artıq səhifədən ibarət 73.000 jurnalın 185.000-dən artıq tam mətnli məqalələrini əks etdirir. Hər il 4000 yeni səhifə ona əlavə olur. (24)

İranda çap olmuş jurnallardan istifadə etmək üçün Təbriz Universiteti "Magiran" verilənlər bazasından istifadə edir. Magiran 1990-cı ildən fəaliyyətə başlamış və hazırda 1300 jurnalın tam mətnli məqalələrindən istifadə etməyə imkan verir. O, jurnallar haqqında informasiyaları, cildin dizaynını, mündəricatını göstərir. Həmçinin əlifba, mövzu siyahısı vasitəsilə məqalələri axtarış etmək olar. Təbriz Universiteti bu verilənlər bazasının abonenti olmuş və beləliklə, oxucular İranda çap olmuş istənilən jurnal və məqalələri e-jurnal formasında axtarış və pulsuz əldə edə bilərlər.**(www. magiran.com)**

Yuxarıda qeyd etdiyimiz kimi Təbriz Universitetinin Mərkəzi Kitabxanasının yeni binası 2008-ci ildə dövlət həftəsində işə başladı. Bu kitabxananın 14000 kv.metr ərazisi var və 3 mərtəbəlidir. Oxu zalında 900 nəfər yerləşə bilər. Oxu zalı birinci mərtəbədədir. Kitabxananın oxucuları Təbriz Universitetinin tələbə, müəllim və köməkçi işçi heyətidir. Həmçinin birinci mərtəbədə dissertasiya şöbəsi yerləşir. Bu şöbədə 10.000-dən artıq magistratura və doktorantura pillələrində yazılmış dissertasiyalar saxlanılır. Dissertasiyaları yalnız bu şöbənin zalında mütaliə etmək olar və onun surətini çıxarmaq qadağandır. Həmçinin bu mərtəbədə muzey üçün də yer ayrılmışdır.

Birinci mərtəbədə kitabxananın elektron kataloqlarından istifadə etmək məqsədilə 20 kompüter oxucuların xidmətinə verilmişdir. Oxucular elektron kataloqdan istifadə etməklə, istənilən kitabın şifrəsini yazıb və abonement şöbəsinə müraciət edə bilirlər.

2-ci mərtəbədə abonement şöbəsi, kataloqlaşdırma şöbəsi, sifariş şöbəsi, informatika şöbəsi və İnternet şöbəsi yerləşir. Həmçinin bu mərtəbədə elektron kitabxana, indeksləşdirmə otaqları var.

Abonement şöbəsində Fars və Latın kitabxanaları ayrıca iki salonda yerləşir və kitablar rəflərdə Amerika Konqres kitabxanasının təsnifatı əsasında düzülmüşdür. Bu şöbə açıq rəf üsulu ilə idarə olunur və tələbələr özləri rəflərə yaxınlaşıb istənilən kitabı şifrə üzrə tapırlar və əgər lazım olsa kitabxanaçının köməyindən də istifadə edə bilirlər. Bu şöbədə 37.391 nüsxə Fars kitabı və və 46.330 nüsxə Latın kitabı var ki, hər gün onların sayı artırılır. Həmçinin bu şöbədə oxucular haqqında informasiyalar proqram təminatına daxil olur, oxucu bileti çap olunur və oxucuların ştrix kodu biletin arxasına yazılır.

Kataloqlaşdırma şöbəsinin iki bölməsi var: Fars və Latın kitablarının kataloqlaşdırması. Bu şöbədə kitablar proqram təminatı vasitəsilə kataloqlaşdırılır. Beləliklə, kitab haqqında biblioqrafik informasiya proqram təminata daxil olur və elektron kataloqda yerləşdirilir. Həmçinin burada kitabın ştrix kodu çap edilir və kitabın arxasına yerləşdirilir.

Sifariş şöbəsi iki yerə bölünür: Fars və Latın kitabları, jurnallar, qəzetlər və s. bölməsi. Məsələn, Fars bölməsi yalnız sifariş olunmüş Fars kitablar, jurnallar və qəzetlərlə təmin edir. Bu şöbə kitablar, jurnallar və qəzetlərin siyahısını fakültələrə göndərir və seçilən sənədləri naşirlərdən və ya kitab sərgilərindən alır.

İnformatika şöbəsi Mərkəzi kitabxana və fakültə kitabxanalarının proqram təminatına nəzarət edir və yaranmış problemləri aradan qaldırır. Həmçinin oxuculara verilənlər bazalarından necə istifadə etməyi öyrədir.

İnternet şöbəsində 20 kompüter var. Bu şöbədə oxucular İnternet vasitəsilə e-kitab, e-jurnal və müxtəlif verilənlər bazalarından istifadə edirlər.

İndeksləşdirmə şöbəsində 1994-cü ildən jurnalların indeksləri CD formada təmin olunur və oxuculara təqdim olunur. 1988-ci ildən jurnalların indeksləri kompüterdə mövcuddur.

Mərkəzi kitabxananın 3-cü mərtəbəsində məlumat fondu, nəşriyyat, jurnal fondu, əlyazma və nadir kitabların fondu, doktor Notqının hədiyyə etdiyi kitabların fondu, Əlqədir layihəsi və ictimai əlaqələr otağı, kitabxana rəhbərinin (rəis), köməkçisinin, makinaçının otağı və uçot şöbəsi yerləşir.

Məlumat fondunda ensiklopediyalar, lüğətlər, salnamələr, məlumat kitabları, statistikaya aid kitablar, biblioqrafik göstəricilər və s. Toplanmışdır. Kitabxananın məlumat-biblioqrafiya şöbəsi elmin bütün sahələri üzrə yazılı və şifahi arayışlar verir, oxucuların çoxcəhətli sorğularini ödə-

yir. Bu fonda 15.000 nüsxədən artıq Fars və Latın məlumat kitabları saxlanılır.

Dövri nəşrlər, qəzet və jurnal fondunda çap formasında abunə yolu ilə alınan Fars və Latın dilində jurnallar və qəzetlər saxlanır. Burada 2314 adda Fars dilində və 500 adda Latın dilində jurnal saxlanılır. Bu şöbənin jurnalları yalnız oxu zalında mütailə üçün verilir. İstənilən məqalənin sürəti çıxarılır və oxucuya verilir. Jurnalların axırıncı nömrələri vitrin formada olan rəflərdə əlifba sırası əsasında istifadə üçün yerləşdirilmişdir. Əvvəlki nömrələri isə oxucular kitabxanaçıdan istəyə bilərlər. Hər ilin sonunda kitabxanaçı jurnalları və qəzetləri cildləmək üçün cildləmə şöbəsinə göndərir. Hər gün qəzetlərin yeni tarixli nömrələri birinci mərtəbə olan oxu zalında oxucuların mütaliəsinə verilir və əvvəlki qəzetlər toplanıb və jurnal şöbəsinə göndərilir. Bu şöbədə jurnallarin və qəzetlərin əvvəlki nömrələri arxivləşdirilir.

Xəritə şöbəsində İrana aid 4534 xəritə saxlanır və onlarla yalnız oxu zalında tanış olmaq olar.

Mikrofilm və mikrofiş şöbəsində əvvəlki illərə aid 130 adda jurnalın 1154 mikrofilmi saxlanır. Mikrofilmlər əlifba əsasında rəfdə düzülüb. Mikrofişlərdən qədim kataloqlaşdırma işlərində istifadə olunurdu. Hazırda mikrofilm və mikrofişlərdən istifadə olunmur və onun yerində İnternetdən istifadə olunur.

Əlyazma və Nadir kitablar fondunda 30 nüsxə əlyazma kitab və 626 nadir kitab saxlanır.

**Əlqədir layihəsi**: Müasir dövrədə universitet kitabxanalarının əsas məqsədi oxucuların sorğularının tam və dolğun ödənilməsidir. Bunun üçün İranda Təhsil Nazirliyi "Əlqədir layihəsini" yaratdı. 66 universitetin 235 kitabxanası bu layihədə iştirak edir. Təbriz Universiteti 1999-ci ildən bu layihədə iştirak edir. Universitetin professor-müəllim heyəti, magistratura və doktorantura pilləsində təhsil alan tələbələr bu layihəyə üzv ola bilərlər. Hər oxucuya bir oxucu bileti və 3 abonement kartı verilir. Hər abonement karta bir kitab 3 həftəyə qədər verilir. Beləliklə oxucular ölkədə bütün universitet kitabxanalarının xidmətindən istifadə edə bilərlər. (25, 26)

# ƏDƏBIYYAT

## Fars dilində


.1 ر
وابط عمومی دانشگاه تبریز. دانشگاه تبریز در یک نگاه- تبریز,،1387.- 9ص.

.2 د
انشگاه تبریز در یک نگاه/روابط عمومی دانشگاه تبریز.- تبریز ، 1378. 9 ص.

.3 د
انشگاه تبریز. سایت شهرداری
www.Shahrdari2.com/default/aspx?tabid=144

.4 ر
اهنمای دانشگاه آذرآبادگان. تبریز، دانشگاه تبریز، 1355. 55 ص.

.5 م
عرفی دانشگاه تبریز: زیر نظر معاونت آموزشی دانشگاه. گرد آوری و تنظیم عباسعلی حیدرپور و محمد رضا دشتی. تبریز. دانشگاه تبریز.1378.

.6 م
عرفی و تاریخچه دانشگاه تبریز .تبریز.www.tabrizu.ac.ir./show.asp?id=65

.7 " بهره
برداری از بزرگترین کتابخانه استاندارد شمالغرب کشور در دانشگاه تبریز".مرکز اطلاع رسانی تحقیق و توسعه ایران. (دسترسی در 87/12/25 )
www.irdic.ir/News/1386/04/20/6492.aspx

.8 "
کتابخانه مرکزی دانشگاه تبریز در هفته دولت افتتاح می شود". مرکز اطلاع رسانی تحقیق و توسعه ایران. http://www.irdic.ir/News/1386/06/05/7087.aspx


## İngilis dilində


.9 www. Sciencedirect.com
.10 www.search.ebscohost.com
.11 www.proquest.com
.12 www3.interscience.wiley.com
.13 www.ams.org/mathscinet
.14 www.sagepub.com
.15 www.scopusnet.com
.16 www.isikonwledge.com
.17 www.endnoteweb.com
.18 www.ieee.org
.19 www.acm.org

www.acs.org .20
www.aip.org .21
www.aps.org .22
www.asme.org .23
www.asce.org .24
www.tabriz.ac.ir .25
www.library.tabrizu.ac.ir .26

***М.Д.НАСРИН***

## ДОКУМЕНТАЛЬНО-ИНФОРМАЦИОННЫЕ РЕСУРСЫ БИБЛИОТЕКИ ТЕБРИЗСКОГО УНИВЕРСИТЕТА

***РЕЗЮМЕ***

В статье анализируются документально-информационный ресурсы, характеризуются прогромное обеспечение "Pars Azərəxş", о также дается информация 16 база данных использованных этой библиотека.

***M.D.NASRIN***

## DOCUMENTAL-INFORMATION RESOURCES Of TEBRIZ UNIVERSITY LIBRARY

***SUMMARY***

Given article describes of Tebriz University library documenal-information resources, analyses "Pars Azarachs" software, also presents 16 databasees used on this library.

**Günel SƏFƏROVA**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı*

# MÜSTƏQİLLIK DÖVRÜNDƏ AMEA MEK-in FONDUNUN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

Azərbaycanın müstəqilliyi şəraitində, bir sıra sahələrdə irəliləyiş olduğu kimi, xalqımızın mədəni, təhsil və elmi səviyyəsinin də yüksəlməsində müşahidə olunan uğurlar gözdən qaçmamaqdadır. Bu tarixi dövr məhz informasiyalaşdırma əsrinə təsadüf etdiyindən kitabxanaların qarşısında cəmiyyətin elmə, biliyə olan tələbatını ödəmək, oxuculara daha yüksək səviyyəli xidmət göstərmək kimi ümdə vəzifələri qoymuşdur.

Kitabxanalar bəşəriyyətin mədəni elmi irsinin qoruyucusu, yaradıcısı və ən əsası müasir informasiya sistemi ilə birbaşa əlaqə yarada biləcək mərkəz olmağa başlamışdır. Cəmiyyət gələcək kitabxanaları yalnız müxtəlif növ çap məhsullarının saxlayıcısı kimi deyil, həm də avtomatlaşdırılmış xidmət komplekslərini özündə cəmləşdirən informasiya müəssisəsi kimi görmək istəyir. Azərbaycan kitabxana şəbəkəsində AMEA MEK çox əhəmiyyətli və əsas yerlərdən birini tutur. Buna bir səbəb də Azərbaycan Respublikası Prezidentinin 4 yanvar 2003-cü il tarixli fərmanı ilə təsdiq edilmiş AMEA nizamnaməsinin 5-ci maddəsinin 54-cü bəndinə əsasən Mərkəzi Elmi Kitabxananın elmi status almasıdır.(4,2003-cü il, s.2) Bundan əlavə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında imzaladığı sərəncamda AMEA-nın MEK-a dünya standartlarına cavab verən yeni binanın tikilməsi, bu və digər kitabxanaların modernləşdirilməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və maddi texniki bazasının möhkəmləndirilməsi kimi əhəmiyyətli məsələlər öz əksini tapıb. Hazırki dövrdə MEK-ı nəinki akademiya, hətta, dünya və ölkə səviyyəsində elmi informasiya, kitabxana biblioqrafiya və sosial mədəni funksiyaları yerinə yetirəcək müasir informasiya mərkəzinə çevirmək üçün bir imkan yaranmışdır.

Kitabxana Azərbaycanın görkəmli ziyalıları N.Nərimanov, Ə.Haqverdiyev, T.Şahbazi və başqalarının təşəbbüsü və yaxından köməyi ilə Azərbaycanın tarixini, təbii sərvətlərini, incəsənətini və s. öyrənmək məqsədi ilə 1923-cü ildə təşkil edilmiş “Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti”nin əsasında 1925-ci ildə yaradılmışdır. Kitabxana yaranan-

dan fondun da təməli qoyulmuşdur. Hər bir ictimai siyasi müəssisənin əsasını təşkil edən bir sistem olduğu kimi kitabxananın da əsasını fond təşkil edir. MEK fondları kitabxana kollektoru, kitab ticarəti müəssisələri, nəşriyyat orqanları, poliqrafiya müəssisələri, abunə, məcburi nüsxə, beynəlxalq kitab mübadiləsi və hədiyyələr yolu ilə komplektləşdirilir. Azərbaycan, rus, türk, fars, ərəb, ingilis, alman, fransız və b. dillərdə olan kitabların xronologiyası böyük bir dövrü əhatə etdiyindən AMEA MEK fondu çox zəngindir.

Kitabxananın fondları əsas, ixtisaslaşdırılmış və yardımçı fondlardan ibarətdir (1, s.6-7). Əsas fondun tərkibinə Azərbaycan, rus, qərbi avropa dillərində kitab fondları, Sovet dövrünə qədərki dövri mətbuat fondu, görkəmli alimlərin şəxsi kolleksiyaları dissertasiya və avtoreferatlar fondları, dövri və nəşri davam edən ədəbiyyat fondu, fotosənədlər fondu, qəzetlər fondu və s. daxildir. İxtisaslaşdırılmış fondlara şərq dillərində ədəbiyyat fondu, nadir və qiymətli nəşrlər fondu, məlumat biblioqrafiya ədəbiyyat fondu daxildir. Yardımçı fondlar –kitabxananın ümumi və dövri mətbuat zallarında açıq rəf üsulu ilə oxucuların istifadəsinə verilmiş ədəbiyyat fondlarıdır. Azərbaycan dilində ədəbiyyat fondu, Azərbaycan ədəbiyyatı fondu, Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərindən, xarici ölkə klassiklərinin tərcümələrindən ibarətdir. Bundan əlavə, Azərbaycan tarixinə, ədəbiyyatına və incəsənətinə aid elmi-tədqiqat əsərləri, müxtəlif lüğətlər, məlumat kitabları fondun ən qiymətli hissəsidir.

1998-ci ildə yeni yaranmış nadir nəşrlər şöbəsinin (9 min) fondu əsas fondun ədəbiyyatından seçilmişdi. Nadir nəşrlər bölməsinə elmi əhəmiyyətinə, nəşr tarixinə görə qiymətli sayılan nümunələr daxildir. Nadir nüsxələr 3 minə yaxın rus dilində, 500 nüsxə Azərbaycan dilində, 500 nüsxə xarici dillərdə ədəbiyyat, ensiklopedik materiallardan və s. ibarətdi.

Şərq ədəbiyyatı fondu yaranarkən onun tərkibində şərq dillərində cəmi 300 nüsxə ədəbiyyat toplanmışdır. Həmin dövrdə bu fondun xeyli hissəsini ərəb, fars və türk dillərində olan kitab, jurnal və qəzetlər təşkil edirdi. Hazırda fond əsasən şərq ölkələrindən mübadilə yolu ilə alınan ədəbiyyatla zənginləşdirilib.

Kitabxana fondunun komplektləşdirilməsi, təşkili bilavasitə onun idarə edilməsi ilə üzvi surətdə bağlıdır. Oxucu tələbatının, sorğusunun artması, peşə ixtisas təhsil dairəsinin genişlənməsi komplektləşdirmə prosesində idarəetmə məsələlərinin yüksəldilməsinə ciddi təsir göstə-

rir.(3, s.48) AMEA MEK fondunun komplektləşdirilməsi ənənəvi üsulla və internet vasitəsi ilə həyata keçirilir. Ənənəvi üsul deyərkən nəşriyyatların işini xüsusi qeyd etmək yerinə düşər. Müasir dövrdə komplektləşdirmə şöbəsi MEK-ın kitab fondunun formalaşmasını aşağıdakı üsullarla təmin edir:

1. Kitab fondunun sistematik yeni ədəbiyyatla operativ təmin olunması;
2. Əlavə komplektləşdirmə- az nüsxədə olan və ya tələb olunan köhnə ədəbiyyatla zənginləşdirilməsi;
3. Dövri nəşrlərin komplektləşdirilməsi.

Dövrləri xronoloji ardıcıllıqla müqayisə edərkən 1991-ci ildən bu günə kimi bir sıra dəyişikliklərin şahidi oluruq. Bu gün kitabxanalarda qazanılan nailiyyətin əsası həmin dövrdə, yeni müstəqillik qazandığımız ilk illərdə qoyulmuşdur. 1991-ci ildə kitabsaxlama şöbəsi rus və Azərbaycan dilləri üzrə 31562 nüsxə kitab və jurnal qəbul etmişdir. İl ərzində oxucular 113500 kitab və eləcə də 25000 nüsxə jurnallardan, bununla yanaşı, 162000 qəzetdən istifadə etmişdir. Bu illə müqayisədə 2001-ci ildə 95950 nüsxə kitab və jurnal, 116540 qəzet oxucuların istifadəsinə verilmişdir. Əvvəlki illərə nisbətən 2001-ci ildə sərgilərin çox təşkil edilməsi ilə əlaqədar olaraq daxildə 21440 nüsxə kitab və jurnaldan istifadə edilmişdir. Bir ildə kitabxanaya daxil və xaric olunmuş qəzet, jurnal və kitablar haqqında kartoçkalarda qeydiyyat aparılmışdır. Kitabxana həmin ildə aşağıdakı nəşriyyatlar vasitəsi ilə komplektləşdirilmişdir: Azərnəşr, Yazıçı, Ayna, Gənclik, Qanun.

Beynəlxalq kitab mübadiləsi kitabxanalararası əlaqələrin bərpası və genişləndirilməsində elmi məlumatların yayılmasında və istifadə olunmasında əsas yerlərdən birini tutur. Kitabxana 2001-ci ildə Ukrayna (1180 jurnal, 102 kitab), Belarusiya (27 nüsxə ədəbiyyat), Qazaxıstan (19 nüsxə ədəbiyyat), Litva (13 nüsxə), Türkiyə (6 nüsxə) və başqa ölkələrdən kitablar və dövri mətbuat qəbul etmişdir (4, 2001-ci il s.2). 2003-cü ildə kitabxananın fondu, əsasən, hədiyyə, yeni nəşriyyatlardan alınan məcburi nüsxələr və əlavə komplektləşdirmə yolu ilə zənginləşdirilmişdir. Hədiyyə edilmiş kitablar məşhur şair və yazıçılarımızın öz əsərlərindən, siyasi xadimlərin şəxsi kolleksiyalarından və bəzi təşkilatların ədəbiyyatlarından ibarətdir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunub, ölkə kitabxanalarına hədiy-

yə olunan kitablar AMEA MEK fondunun daha da zənginləşməsinə kömək etmişdir. Belə ki, 2005-ci ilin iyun ayınadək nəşr olunan 106 adda kitabdan 5500 nüsxə kitab alınmışdır.

Kitabxanada, həmçinin, fotosurət və mikrofilm bölmələri də vardır. Kitabxana fondunun düzgün təşkil edilməsi və idarə edilməsi müxtəlif texniki vasitələrin və müasir kommunikasiya texnologiyasının düzgün tətbiqindən də əsaslı surətdə asılıdır. Bu məsuliyyət kitabxananın avtomatlaşdırma şöbəsinin üzərinə düşür. Şöbənin əsas iş istiqamətləri aşağıdakılardır:

1. Ədəbiyyatın komplektləşdirilməsi;
2. Ədəbiyyatın kataloqlaşdırılması;
3. Oxuculara kitabxana xidməti, KAA vasitəsi ilə sorğuların gedişini və ödənilməsinin avtomatlaşdırılması;
4. Ədəbiyyat fondunun təşkili və mühafizəsi;
5. Beynəlxalq kitab mübadiləsi.

Hazırda mərkəzi elmi kitabxanada aşağıdakı proseslər avtomatlaşdırılmış şəkildə həyata keçirilir:

- Kataloq və fondların rəqəmsal formata keçirilməsi;
- Oxucu sorğularının öyrənilməsi;
- İnformasiyanın alınması ,mühafizə olunması və paylanması;
- Şöbələrarası əlaqələr;
- Beynəlxalq və  daxili yazışmalar;
- Sənəd dövriyyəsi;
- Xarici informasiya mənbələrinə çıxış.

Hazırda ölkəmizdə təbiətşünaslıq, humanitar və başqa elm sahələri üzrə ən iri elmi kitabxana sayılan AMEA-nın Mərkəzi Elmi Kitabxanası dünyanın 50-dən çox dilində nəşr edilmiş 3 milyondan artıq ədəbiyyatı əhatə edən nəhəng fonda malik olub, 30 mindən artıq oxucuya xidmət göstərir.

## ƏDƏBİYYAT

### Azərbaycan dilində

1. *AMEA Mərkəzi Elmi Kitabxanası; Bələdçi/ Elmi redaktor: A.Kəngərli.-B., 2006.-50s.*

2. *Həsənov, M. Kitabxana fonduna rəhbərliyin təşkili problemləri// Kitabxana biblioqrafiya-B., 2002, №2, S.50-56*

3. *Həsənov M. Kitabxana fondunun yaranması, formalaşması və*

*idarə edilməsi. Dərs vəsaiti. B.- BDU, 2004, 143s.*

4. *Xələfov.A.A. Kitabxanaşünaslığa giriş:Dərslik: üç hissədə.- Bakı,2001.-798s.*

5. *Rzayeva.S AMEA MEK-də ədəbiyyatın komplektləşdirilməsi məsələləri // AMEA MEK Elmi əsərlər, 2008, s.69-77.*

6. *AMEA MEK hesabatları, 1991-2003-ci il.*

**Rus dilində**

*7. Создание и руководство фонда Центральная Научная Библиотеки Национальной Академии Наук Азербайджана в период независимости*

***Г. САФАРОВА***

## ОРГАНИЗАЦИЯ И УПРАВЛЕНИЕ ФОНДОВ ЦЕНТРАЛЬНОЙ НАУЧНОЙ БИБЛИОТЕКИ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ В ПЕРИОД НЕЗАВИСИМОСТИ

***РЕЗЮМЕ***

Азербайджанской Национальной Академии Наук, которая со своим величайшим научным фондом считается одной из самых респектабельных в Азербайджане, всесторонне служил своим читателям, чтобы оперативно решать их требования построил свой документально-информационное обеспечение на высшем уровне.

***G.SAFAROVA***

## FORMİNG AND MANAGE İN THE İNDEPENDENCE TİME OF THE FUND OF THE CENTRAL SCİENTIFIC LİBRARY OF NATİONAL ACADEMY OF SCİENCES OF AZERBAİJAN

***SUMMARY***

The fund of the biggest scients library NASAR NSL servest the comprenensive readers contingent paid they needs in high level in the independent year.

**Cavid ZEYNALOV**
*Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı*

# F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI FONDUNUN İSTİFADƏ SƏMƏRƏLİLİYİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ ( 2000-2008-ci illər )

Respublikamızın milli sərvəti sayılan və mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan respublika kitabxanalarının fondunun komplektləşdirilməsi və istifadə səmərəliliyi dövlətin daim diqqət mərkəzindədir. Kitabxanaların fondu haqqında məlumat əldə etmək, çap əsərlərinin təsnifləşdirilməsi kataloq və kartoteka sistemi vasitəsilə həyata keçirilir.

Respublikanın aparıcı kitabxanalarından sayılan və ölkə ərazisində mövcud olan uşaq kitabxanalarına elmi-metodik mərkəz vəzifəsini yerinə yetirən F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondunun təşkili və səmərəli fəaliyyəti çap əsərlərinin məzmun əlamətindən asılı olaraq ilbəil dəyişir. Kitabxananın fəaliyyəti haqqında müxtəlif mənbələrdə ətraflı məlumat verilmişdir. (1,2,4) Məlumdur ki, çap əsərləri məqsədyönlü şəkildə təsnifləşdirilərək kitabxana fondunu təşkil edir. Bu zaman sənədlərin məzmunundan və digər əlamətlərindən asılı olaraq təsnifat cədvəllərinin şöbələri, bölmələri rubrikalar üzrə düzgün yerləşdirilməsindən asılıdır. Bunun üçün sistemləşdirməni xüsusi prinsiplər əsasında həyata keçirmək lazımdır. Təsnifat cədvəllərinə əsasən F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondunda ədəbiyyatın sistemləşdirilməsi zamanı tətbiq olunan metodik qaydalar iki hissəyə-ümumi və metodik hissəyə ayrılır. Kitabxana fondunda ədəbiyyatın təsnifləşdirilməsi zamanı təsnifat cədvəllərinə uyğun olaraq ədəbiyyatlar kitab rəflərində müəyyən edildikdən sonra fondda öz yerini alır, bəzi növ ədəbiyyat isə nümunəvi bölgülər üzrə təsnifləşdirilir. Qeyd etmək lazımdır ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondunun daha səmərəli təşkil etmək üçün kitabxana müəyyən istiqamətlər üzrə fəaliyyət göstərir.

1. Kitabxana əvvəlki illərdə olduğu kimi respublikanın bir sıra uşaq kitabxanalarına əməli və metodik köməklik göstərir;
2. Metodik-biblioqrafik vəsaitlər hazırlayır, tövsiyə ədəbiyyatının siyahısını tərtib edir;

3. Mədəniyyət və Turizm, Ekologiya və Təbii Sərvətlər, Təhsil Nazirliyi və digər dövlət orqanları ilə sərgilər təşkil edir.

4. Yubilyar uşaq yazıçıları və şairlərinə həsr olunan görüşlər keçirir;

5. Bəzi uşaq jurnallarının təqdimatını keçirir və.s

Bu fəaliyyət istiqaməti əsasında F.Köçərli adına Uşaq Kitabxanasının fondunun istifadə səmərəliliyi daha da artır (5,17).

Qeyd etmək lazımdır ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondu haqqında məlumat kitabxananın sistemli kataloqunda əks etdirilməsi yolu ilə həyata keçirilir. Amma sistemli kataloqda əsasən elmi-sahəvi kitabxanalarda istifadə olunduğundan F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondu haqqında məlumatı bu kataloqda əks etdirmək mümkün olmur. Bu da bəzi çətinliklər yaradır. Ona görə də F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondunda yerləşən ədəbiyyatlar əsasən məzmununa görə təsnifləşdirilir. Lakin buna baxmayaraq, təsnifat prosesində ən mühüm materiallar üçün təkrar əks etdirmək üsulu tətbiq olunur. Bu baxımdan kitabxananın fondunda ictimai-siyasi tərbiyə, hərbi-vətənpərvərlik, uşaqların estetik tərbiyəsi, ölkəşünaslıq, əmək tərbiyəsi, əxlaq-hüquq tərbiyəsinə dair ədəbiyyatların sistemləşdirilərək kataloqda əks etdirilməsinin böyük əhəmiyyəti vardır (3, 107).

Müasir dövrdə kitabxananın qarşısında duran mühüm vəzifələrdən biri də kitabxana fondunun səmərəliliyini artırmaq və təkmilləşdirməkdir. Uşaq ədəbiyyatını fondlarda düzgün əks etdirmək , düzgün təsnifləşdirilməsi, uşaq mütaliəsinə rəhbərlik, oxucu müraciətinin qaydaya salınmasına kömək edir. Odur ki, oxucuların fonddan səmərəli istifadəsi günü-gündən artır.

Fondun komplektləşdirilməsi və səmərəliliyi baxımından mütaliə potensialını yüksəltmək mühüm əhəmiyyət kəsb edir. Məhz bu baxımdan kitabxananın fondu oxucu marağını ödəmək imkanına malik olan sənədlər toplusu ilə formalaşır. Bu da şübhəsiz kitabxana fondunun uzun müddət istifadə səmərəliliyini təmin edən amillərdən biri hesab olunur. Bu baxımdan ölkə ərazisində fəaliyyət göstərən sahəvi kitabxanalar öz fondunun təşkilində bir çox xüsusiyyətləri və prinsipləri nəzərə alır. Bunlar ərazi, sahəvilik, məzmun, oxucu kontingentidir. Köçərli adına Respublika Uşaq Kitabxanasının fondu səmərəliliyinə görə xüsusilə fərqlənir. Bu fərqlilik həm fondun həcminə, həm oxucu sayına həm də sənədlərin komplektləşdirmə səviyyəsinə görə meydana çıxır.

Kitabxana fondu çap əsərlərinin və digər sənədlərin kitabxananın vəzifəsi, tipi və profilinə uyğun olaraq oxucuların məqsədyönlü istifadəsi üçün sistemləşdirilmiş qaydada təşkili və müəyyən dövr ərzində mümkündür. Göründüyü kimi fondda ədəbiyyatın müxtəlif növləri eləcə də başqa sənədlər də mövcuddur. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondunun öyrənilməsi və onun oxucular tərəfindən mühüm təhlili fondun daha məqsədə uyğun və sistemli şəkildə formalaşdırılması üçün əsas amil hesab olunur.

Respublika uşaq kitabxana fondunun səmərəlilik fəaliyyətini öyrənərkən üç əsas metoddan istifadə olunur. Bunlar miqdar təhlili metodu,biblioqrafik metod və sosial metoddur.

Miqdar təhlili metodu vasitəsilə fondu öyrənərkən statistik üsullardan geniş istifadə olunur. Müxtəlif illər üzrə oxucuların istifadə səmərəliliyi statistik göstəricilərdə öz əksini tapıb.

Məlum olduğu kimi 2000-ci ildən başlayaraq Respublika Uşaq Kitabxana şəbəkəsinin genişləndirilməsi, onun maddi-texniki bazasının möhkəmlənməsi, fondunun zənginləşdirilməsi və beynəlxalq əlaqələr istiqamətində mühüm və məqsədli tədbirlər görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci il aprelin 20-də imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması" haqqında sərəncam, "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013 –cü illərdə inkişafı üzrə Dövlət proqramı" bu məqsədlə həyata keçirilən tədbirlərə misal ola bilər. 2000-ci ildən başlayaraq Respublika Uşaq Kitabxanasında kitabxana- informasiya xidmətini daha da yaxşılaşdırmaq və müasir kitabxana fondu yaratmaq istiqamətində mühüm işlər görülmüşdür. Belə ki, F.Köçərli adına Uşaq Kitabxanasında avtomatlaşdırılmış kitabxana-informasiya texnologiyasının tətbiqinə başlanılmışdır. Bəhs olunan dövrdə (2000-2008) kitabxanaya xeyli miqdarda kompüter, texniki vasitələr alınmışdır. Fondun səmərəliliyini təşkil etmək üçün filmoteka otaqları, məlumat bazaları, elektrodisklər otağı təsis edilmişdir. Kitabxananın illik hesabatına istinad olaraq qeyd etmək lazımdır ki, hal-hazırda kitabxana fondu 209700 ədəbiyyatdan ibarətdir. Kitabxana fondunda 2000-2008- ci illərdə əksəriyyəti elektron vasitələr olmaqla bir çox materiallar əldə edilmişdir (4,96).

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında avtomatlaşdırma və kompüterləşmə sahəsi 2005-ci ildən fəaliyyətə başlamışdır. Qeyd etmək lazımdır ki, müasir kitabxana işini və fondunu müasir kompüter te-

xnologiyalarsız təsəvvür etmək mümkün deyil. Kitabxana fondunun səmərəliliyini və təkmilləşdirilməsi, eyni zamanda qarışılıqlı kompüterləşmə işi bu prosesdə mühüm rol oynayır. Qarışılıqlı kompüterləşmə bilavasitə kompüterləşmənin optimallığı ilə bağlıdır. Məhz buna görə də kompüterləşdirmə optimallığını oxuculara xidmət sahəsində təsərrüfat vəzifəsindən, istehsalat prosesindən, profillik mövqeyindən və seçmə prinsiplərdən ayrı düşünmək olmaz (3,95).

Bəhs olunan dövrdə kitabxana fondunun kompüterləşdirmə prosesində kitabxana fondunun formalaşdırma istiqaməti konkret və dəqiq müəyyənləşdirilməlidir. Kitabxana fondunun avtomatlaşdırılması təcrübəsi dünya ölkələrində 60-cı illərdən həyata keçirilsə də Azərbaycanda bu tip fəaliyyətin həyata keçirilməsi 90-cı illərə təsadüf edir. Bu sahənin yeni olması, sahə mütəxəssislərinin azlığı avtomatlaşdırma sahəsinə olan marağı azaltmışdır. Məhz buna görə də kitabxana daxili imkanları hesabına öz fondunun avtomatlaşdırılması sahəsində bir çox tədbirlər həyata keçirir. Buna misal olaraq ABŞ-ın ölkəmizdəki səfirliyinin nəzdində fəaliyyət göstərən treninq mərkəzində kitabxanalarda avtomatlaşdırma- idarəetmə sistemləri ilə bağlı kurslar təşkil edilmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında avtomatlaşdırma sahəsində əldə olunmuş nəticələrdən belə qənaətə gəlmək olar ki, müasir istifadəçinin qlobal informasiyanın keyfiyyətinə bəslədiyi münasibət əsaslı dəyişikliklərlə qarşılaşmışdır. Belə ki, müasir hazırlıqlı istifadəçilər, oxucular, xüsusilə də uşaqların mütaliəsinə rəhbərlik edən mütəxəssislər, pedaqoji işçilər kitabxanadaxili resursların istifadəsində yeni-yeni nailiyyətlər axtarır. Ədəbiyyatın kataloqlaşdırılması sənədlər haqqında biblioqrafik yazıların, yəni tam təsvirin hazırlanmasını nəzərdə tutan texnoloji prosesdir. Bu proses nəticəsində oxuculara xidmətin əsasını təşkil edən elektron kataloqun biblioqrafik məlumat bazası yaradılmışdır. Abonement xidmətinin kataloqlaşdırılması üçün isə " Oxucu" avtomatlaşdırılmış işçi yeri nəzərdə tutulmuşdur. Bu işçi yeri vasitəsilə oxucuların qeydiyyatı,ədəbiyyatın verilməsi üçün sifarişlərin növbələşməsi, sifarişlərin yerinə yetirilməsinin qeydiyyatı, sifariş olunmuş ədəbiyyatın sərbəst nüsxələri haqqında informasiyanın alınması işləri aparılır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası öz iş prosesini dünya kitabxnaları səviyyəsinə çatdırmağa səy göstərir.Hazırda Məlumat-biblioqrafiya şöbəsinin illik işini özündə əks etdirən " Məlumat Biblioqrafiya Aparatı 2010", ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 87

illiyi ilə əlaqədar! “ Heydər Əliyev və uşaqlar”, uşaqların intellektual səviyyəsinin yüksəlməsinə kömək edən kitablara aid ayrıca bir baza – “Əyləncəli kitablar”, “Ekologiya” adlı bazaları yaradılmışdır. İRBİS-64 AKİS proqramında versiyalarla bağlı yeniliklərin tətbiqindən sonra Veb İRBİS-in interfeysi tam tərcümə edilmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası 2000-2008-ci illərdə geniş təcrübi həyat yolu keçmişdir. Bu dövrdə kitabxananın maddi-texniki bazası möhkəmlənmişdir. Fəaliyyət istiqamətlərinin metodik baza kimi fəaliyyəti daha da genişlənmişdir. Kitabxana bu gün də işini günün tələbləri səviyyəsində qurmuşdur.

## ƏDƏBİYYAT


*1. Xələfov A. Kitabxanaşünaslığa giriş.- B.:Bakı Universiteti nəşriyyatı, 2001.-398 s.*

*2. Sadıqova S.A. K. Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanasının metodiki və biblioqrafik materialları: ( 1965-1995).- B.: Elnur- P firması, 1999.- 152 s.*

*3. Həsənov M. Kitabxana fondunun yaranması,formalaşması və idarə edilməsi.- B.: Bakı Universiteti nəşriyyatı , 2004.- 143 s.*

*4. Quliyeva F. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında kitabxana proseslərinin avtomatlaşdırılması xüsusiyyətləri.- Kitabxanaşünaslıq və informasiya.- 2010.- №2 - S. 30-36*

*5. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının toplu hesabatları: 2007-ci il.*



***Дж.ЗЕЙНАЛОВ***


## РАЦИОНАЛИЗАЦИЯ И УСОВЕРШЕНСТВОВАНИЕ ИСПОЛЬЗОВАНИЯ ФОНДА ДЕТСКОЙ РЕСПУБЛИКАНСКОЙ БИБЛИОТЕКИ ИМЕНИ Ф. КОЧАРЛИ (2000-2008-гг)

### *РЕЗЮМЕ*


Обеспечение библиотек справочной информацией и организация фонда всегда находятся в центре внимания государства. Была дана информация о создании фонда, пройденном пути и перспективах развития Детской библиотеки им. Ф.Кочарли. Также в статье была

предоставлена широкая информация о рационализаторском использовании и обеспечении фонда библиотеки.

*C.ZEYNALOV*

**RATİONALİZATİON AND İMPROVEMENT OF CHİLDREN'S FUND REPUBLİCAN LİBRARY NAMED F. KOCHARLİ (2000-2008)**

***SUMMARY***

Providing library reference information and education fund are always in the spotlight of the state. Was given information about a fund, traveled ways and prospects of the Children's Library. F. Kocharli. Also in the article was given extensive information about rationalizing the use and provision of library stock.

**Almaz MƏMMƏDOVA**
*Fakültə məzunu*

# QABAQCIL XARİCİ UNİVERSİTETLƏRİN KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏLƏRİNİN TƏDRİS PROQRAMLARI HAQQINDA

***Bu məqalə Bakı Dövlət Universitetinin 2009-2010-cu illər üçün elan etdiyi 50+50 Qrant Proqramı çərçivəsində hazırlanmışdır.***

Müstəqillik illərində respublikada kitabxana işinin inkişafı müasir tələblər çərçivəsində uğurla həyata keçirilir. Bu işdə ilk növbədə Respublika Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin böyük əhəmiyyəti vardır. Son illərdə respublikada kitabxana işinin inkişaf etdirilməsinə dair bir çox sərəncamlar imzalanmışdır ki, bunlardan da ən genişi və kitabxanaların uzunmüddətli inkişafına dəstək olan 6 oktyabr 2008-ci ildə Respublika Prezidenti tərəfindən imzalanan "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"dır. Dövlət Proqramında respublika kitabxanalarının inkişafının əsas istiqamətləri onların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir informasiya texnologiyaları ilə qurulması, kitabxanaların kadr təminatının yaxşılaşdırılması, kitabxanaçılıq təhsilinin təkmilləşdirilməsi, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi, tətbiqi və digər bu kimi mühüm vəzifələr öz əksini tapmışdır (1). Bu proqram ölkə prezidentinin kitabxana işinə diqqət və qayğısını bir daha sübut etdi.

Dövlət Proqramında da göstərildiyi kimi, kitabxana işinin yaxşılaşdırılması üçün əsas istiqamətlərdən biri kadr təminatının yaxşılaşdırılması və kitabxanaçılıq təhsilinin təkmilləşdirilməsidir. Hazırda ali kitabxanaçılıq təhsili verən ən böyük müəssisə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsidir. Fakültənin fəaliyyəti çox genişdir və ildən-ilə daha da inkişaf edir. Bu inkişafda, təbii ki, fakültənin dekanı Əməkdar mədəniyyət işçisi, tarix elmləri doktoru professor Xəlil İsmayılovun çox böyük xidmətləri var və bu xidmətlər sözün əsl mənasında təqdirəlayiqdir. Məhz onun tələbkarlığı sayəsində biz tələbələr mükəmməl təhsilə sahib olmaq imkanı əldə edirik. Hazırda fakültədə yüksək səviyyəli təhsil prosesi vardır. Lakin həm fakültə rəhbərliyinin, həm tələbələrin, kitabxanaçılıq təhsili verən digər qabaqcıl ölkə univer-

sitetlərinin fəaliyyətləri maraqlıdır və onların öyrənilməsinə şərait yaradılmışdır.

Hazırda kitabxanaçılıq sahəsinin ən çox inkişaf etdiyi ölkə ABŞ-dır və bu da onun nəticəsidir ki, burada yüksək və müasir tələblərə cavab verən kitabxanaçılıq təhsili vardır. Bu səbəbdən də ölkəmizdə kitabxanaçılıq təhsilinin daha yüksək səviyyədə inkişaf etdirilməsi üçün bu ölkənin təcrübəsindən yararlanmaq daha məqsədəuyğun olar.

Bildiyimiz kimi, Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının Prezidenti professor Xəlil İsmayılov assosiasiyanı təmsil edərək bir çox ölkələrdə işgüzar səfərlərdə olmuş, konfranslarda iştirak etmiş həmin ölkələrin kitabxana işi sahəsindəki fəaliyyətləri ilə tanış olmuş və kitabxanaların iş təcrübəsini əks etdirən çoxlu sayda materiallar əldə etmişdir. 2001-ci ilin avqust ayının 15-25 tarixlərində isə Xəlil İsmayılov və assosiasiyanın üzvləri Ə.M.Məmmədov və Ş.Xudiyeva ABŞ-ın Boston şəhərində keçirilmiş İFLA-nın 67-ci konfransında iştirak etmişlər. Azərbaycan nümayəndə heyəti İFLA-nın bir şurasında və konfransın bir sıra bölmələrinin işində fəal iştirak etmişdi. Amerikada kitabxanaçılıq təhsili, bu sahədə kadr hazırlığı məsələlərini öyrənmək üçün Bostonda yerləşən ABŞ-ın Yeni İngiltərə regionunun ən əhəmiyyətli kitabxanaçılıq təhsili müəssisəsi olan Simmons kolleci Azərbaycan nümayəndə heyətinə xüsusi təsir bağışladı. Buraya müxtəlif sahələrdə bakalavr diplomu olan mütəxəssislər qəbul olunur və onlar kitabxana-informasiya fəaliyyəti üzrə bir sıra ixtisaslar əldə edərək magistr dərəcəsi ilə kolleci bitirirlər. Kollecdə tədris prosesinin xüsusiyyətləri Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı kimi AKİİA-nın prezidenti X.İsmayılovun xüsusi marağına səbəb oldu və o, kollecin əməkdaşlarına bu barədə bir çox suallar verdi. Məlum oldu ki, ABŞ-da 1-2 tədris müəssisəsindən başqa heç bir yerdə bakalavr pilləsi üzrə kitabxanaçı hazırlanmır və kitabxanaçı-biblioqraf ixtisası ilə bağlı vəzifələrə yalnız bu sahə üzrə diplomu olan mütəxəssislər qəbul edilirlər. Bu da ölkədə həmin peşəyə verilən yüksək qiymətdən və peşənin nüfuzundan irəli gəlir. AKİİA-nın nümayəndə heyətinin İFLA-nın 67-ci konfransında və şurasında iştirakı Assosiasiyanın həyatında əlamətdar bir hadisə oldu. Bu konfrans zamanı əldə edilmiş məlumatlar, öyrənilmiş təcrübə respublikamızda həm kitabxanaçılıq təhsilinin inkişafına, həm də ümumilikdə kitabxana işinin hərtərəfli inkişafına öz müsbət təsirini göstərmişdir (2, s.136).

İndi isə Amerikanın kitabxanaçılıq-informasiya təhsili verən bir neçə universitetinin təhsil proqramları haqqında daha geniş məlumat verək:

**Alabama Universiteti-Kitabxana və İnformasiya Tədqiqatları məktəbi:**

Alabama Universiteti ABŞ-da yüksək səviyyəli kitabxanaçılıq təhsili verən qabaqcıl universitetlərdən biridir. Universitetdə təhsil alan tələbələr kitabxana və İnformasiya tədqiqatları üzrə elmi dərəcə almaqla yanaşı, oxuduqları müddət ərzində üç sahə üzrə ixtisas seçimi apara bilərlər: 1) Kitabxana tədqiqatları; 2) Arxiv tədqiqatları; 3) İnformatika.

Lakin tələbələrin ümumilikdə aldıqları icbari fənlər də vardır: cəmiyyətdə informasiya, informasiya strukturları, kitabxana-informasiya xidmətləri layihələri, ictimai xidmət. Bundan başqa, tələbələr maraqlandıqları ayrı-ayrı kitabxana tiplərinin fəaliyyətinə uyğun istiqamətlərdə dərslər götürüb ixtisaslaşa bilərlər. Universitetdə tələbələr həmçinin aşağıdakı istiqamətlər üzrə ixtisaslaşa bilərlər.

- Müxtəlif mədəniyyətlərə aid cəmiyyətlərdə uşaqlara və gənclərə xidmət;
- Bütün formatlarda kitabxana materiallarının saxlanması;
- Etik və hüquqi problemlər, müəlliflik hüququ, intellektual azadlıq;
- Kitab və biblioqrafiya tarixi;
- İnsanların informasiya ehtiyacı və informasiya-axtarış qaydaları;
- Kitabxana şirkətləri və əməkdaşlıqları;
- Kitabxana binalarının layihələşdirilməsi;
- Elektron ticarət strategiyaları;
- İnformasiya arxitekturası;
- Verilənlər bazası layihələri, idarəetmə və qiymətləndirmə.

Ümumiyyətlə, ABŞ universitetlərinin əksəriyyətində tələbələr hər kursda üç semestr təhsi alırlar 1)payız semestri 2)yaz semestri 3)yay semestri. Əgər tələbələr payız və yaz semestrində yalnız nəzəri biliklər əldə edirlərsə yay semestrində təcrübi biliklər əldə edirlər. Bunun üçün universitet tərəfindən Yay məktəbləri (Summer school) təşkil edilir ki, burada tələbələr həm işləyərək təcrübə toplayır, həm də məvacib alırlar. Qeyd edək ki, universitet yay məktəblərini ölkənin ayrı-ayrı şəhərlərində, əsasən, mərkəzdən uzaq yerlərdə təşkil edir ki, bu da tələbələri daha çox həvəsləndirir və həm də onlar bir növ istirahət də etmiş olurlar.

Alabama universiteti də bu cür yay məktəbləri təşkil etməklə tələbələrin daha yüksək səviyyədə ixtisasa yiyələnmələrinə şərait yaradır (4).

**Sirakuza Universiteti**

Bu universitet ABŞ-da az saylı universitetlərdən biridir ki, orada Kitabxana-informasiya elmləri üzrə bakalavr - İnformasiya menecmenti və texnologiyası üzrə bakalavr dərəcəsi almaq mümkündür. Tələbə il ərzində 120 kredit toplamalıdır ki, bunun da 40-ı İnformasiya Elmləri məktəbində toplanmalıdır. Universitetdə tələbələr üçün Media mərkəzləri fəaliyyət göstərir ki, burada sırf kitabxana ixtisası üzrə təhsil alan və bilik səviyyəsi daha yüksək olan tələbələr işləmək imkanı əldə edirlər. Bu Media mərkəzlərinin əsas özəllikləri nədir? Media mərkəzləri fəaliyyət və quruluş etibarı ilə kitabxanaları xatırladır, lakin bir fərq vardır ki, bu mərkəzlər gündəlik olaraq dünyada baş verən siyasi, iqtisadi, sosial, mədəni, informasiyanın toplanması və yayımı ilə də məşğul olur. Beləliklə, burada oxucular onlara lazım olan kitabları, dövri nəşrləri əldə etməklə yanaşı, gündəlik dünyada baş verən hadisələr haqqında məlumat ala bilirlər. Sirakuza universitetində Kitabxana İnformasiya Elmləri üzrə geniş magistr proqramı vardır. Burada aşağıdakı magistr dərəcələri verilə bilər.

1. Kitabxana və İnformasiya üzrə magistr;
2. Məktəb Mediya mütəxəssisi;
3. İnformasiya menecmenti üzrə magistr;
4. Telekommunikasiya və şəbəkə menecmenti üzrə magistr;
5. İnformasiya menecmenti üzrə icraçı magistr.

Burada doktor dərəcəsi də almaq olar ki, o da belə adlanır- İnformasiya Elmi və Texnologiyası üzrə Fəlsəfə Doktoru. Universitetdə aşağıdakı kurslar üzrə təhsil aparılır:

- İnformasiya texnologiyaları və təşkilatçılıq;
- Kitabxanalarda kompüterlərin tətbiqi;
- Biznes, cəmiyyət və internet;
- Web texnologiyalar.
- Bu kurslar üzrə kitabxanada aşağıdakı dərslər aparılır.
- Uşaqlar, Ədəbiyyat, Mədəniyyət;
- İnformasiya Texnologiyasında karyera;
- İnformasiya, Texnologiya, təşkilatlar;
- İnformasiya Sistemlərinin sosial aspektləri;
- Elm və İnternet;

- Musiqi və səs  informasiya kimi;
- İnformasiya Təşkilatının prinsipləri;
- Şəbəkə Texnologiyaları və Texnikalar;
- Uşaqlar  üçün ədəbiyyat və Resurslar;
- Gənclər üçün ədəbiyyat və Resurslar;
- Kitabxana və İnformatika;
- Hüquqi  və Etik İnformasiya Problemləri;
- İnformasiya-axtarış Sistemləri;
- Müasir Mədəniyyət və İnformasiya Sənayesi;
- ABŞ Telekommunikasiyaları (Telekommunikasiya vasitələri);
- Kitabxanalar, İnformasiya, Cəmiyyət;
- Kitabxanaların və İnformasiya Mərkəzlərinin idarə edilməsi;
- Kataloqlaşdırma və Təsnifat;
- İncəsənət, humanitar elmlər və informasiya mənbələri;
- Dövlət nəşrləri;
- Kitabxana Binaları;
- İnformasiya Saxlanmasının və axtarış sistemlərinin yerinə yetirilməsi;
- İnformasiya Sistemlərinin arxitekturası;
- On-line informasiya sistemləri;
- Kitabxanaların tarixi;
- Musiqi Biblioqrafiyası;
- Tibbi ədəbiyyat;
- Slavyan biblioqrafiyası;
- İşgüzar informasiya;
- Dünya biblioqrafiyası;
- İnformasiyanın istifadəsi və istifadəçiləri;
- Texniki xidmətin funksiyaları;
- Arxivlərin və əlyazmalar toplularının administrasiyası;
- Uşaq ədəbiyyatı tarixi;
- Kitabxana materiallarının saxlanması;
- İnformasiya iqtisadiyyatı;
- Sənədlərin işlənməsi;
- İnformasiya sistemlərinin etnoqrafiyası;
- Elektron nəşr və informasiyanın işlənməsi standartları (7).

**Simmons Kolleci**

Simmons kolleci kitabxanaçılıq təhsili verən universitetlərdən heç də geri qalmır və burada yüksək ixtisasa malik peşəkar kitabxanaçılar yetişdirirlər. Kollecdə həm bakalavr, həm də magistr dərəcəsində təhsil almaq mümkündür. Simmons kollecindəki tədris proqramı Amerika Kitabxanaçılıq Assosiasiyasının təsdiqi ilə qəbul edilmişdir. Çünki Amerika Kitabxanaçılıq Assosiasiyası Amerikada və onlarla əməkdaşlıq edən ölkələrdə kitabxanaçılıq təhsilinin inkişaf etdirilməsi üçün 2005-ci ildə proqram hazırlamış və bu proqramı bir çox universitetlərə, həmçinin, Simmons kollecinə təqdim etmişdir. Doğrudan da, proqramın kitabxanaçılıq təhsilinin inkişafına çox böyük dəstəyi olmuşdur (3).

Simmons kollecindəki tədris proqramına uyğun olaraq təhsil alan tələbələr istənilən semestrdə dərsə başlaya bilərlər. İl ərzində üç semestr olmaqla dərslər, adətən, gündüzlər, axşamlar hərdən həftə sonları olur. Tələbələr ardıcıl, yəni müntəzəm olaraq təhsil almaq üçün 36 kredit saatını toplamalıdırlar. Adətən, bu tələbi ödəyə bilməyən tələbə ən azı 12 semestr ərzində bunu tamamlamalıdır və təhsilini davam etdirməlidir. Magistr dərəcəsində təhsil alan tələbələrin isə ardıcıl təhsil alma müddəti dörd semestrdir. Ümumiyyətlə isə tələbələr altı il ərzində proqramı tamamlamalıdırlar. Yəni bu və ya digər səbəbdən təhsili yarımçıq qalan tələbələr əgər altı il bitməyibsə yenidən qayıdıb təhsillərini davam etdirə bilərlər. Kollec bir çox istiqamətlərdə öz təhsil proqramını qurmuşdur ki, bunlardan biri Texnoloji İstiqamətləndirmə proqramıdır. Kollec tələbələrin onların tədqiqatları müddətində rastlaşacağı texnoloji biliyinin ümumi əsasını təmin etmək üçün bu proqramı qəbul etmişdir. Proqrama daxil olan bütün tələbələr birinci semestrin ortalarına qədər texniki ustalığı nümayiş etdirən məsələlərin sırasını tamamlamağa məcburdur. Material ilə tanış olmayan tələbələrə kömək etmək üçün, semestrin birinci iki həftəsi ərzində simpoziumlar təklif edilir.

Kollecin digər bir proqramı ARL Academy adlanır. ARL- Kitabxana Tədqiqatları Assosiasiyasıdır. Bu proqrama əsasən kollec kitabxana tədqiqatları mərkəzində əlavə kurs keçmək üçün tələbələr seçir və həmin mərkəzə göndərir. Əlbəttə, proqrama yalnız magistr dərəcəsində təhsil alan tələbələr cəlb olunur. ARL şəhadətnaməsi 36 kredit üçün ümumilikdə əlavə 6 krediti (Yoldaşlıq üçün 3 kredit və ARL Akademiyası üçün isə 3 kredit) tələb edəcək. Hər iddiaçı üçün Simmons Kollecindən əlavə təqaüd köməyi mümkündür. Sonda ARL Akademiyası Planlaşdırma Komitəsinin və GSLIS (Simmons kolleci) Dekanı birgə

qərara alacaqlar ki, kim GSLIS Komitəsinin qərarına əsaslanan ARL proqramına qəbul ediləcək. Ümumilikdə 15 tələbə üç il müddətinə bu proqrama seçilə bilər. Simmons kollecində magistrlər üçün Məktəb Kitabxanası Müəllimi Konsentrasiyası proqramı da vardır. Bu proqramın mahiyyəti aşağıdakılardan ibarətdir:

Kolleci bu proqram üzrə bitirən tələbələrə həm müəllim, həm də kitabxanaçı ixtisası verilir. Elə bu səbəbdən onlara Məktəb kitabxanası müəllimləri adı verilmişdir. Məktəb kitabxanası müəllimləri (SLT) məktəblərdə informasiyanın və pedaqoji maarifləndirici fəaliyyətin mərkəzləri kimi xidmət edən Kitabxana media mərkəzlərini idarə edir. Onlar uşaqlar və böyüklər, eləcə də məktəb müəllimləri ilə əməkdaşlıq edərək məktəb tədris planının artırılmasında bilavasitə iştirak edirlər. Məktəb kitabxanası müəllimləri kimi şəhadətnaməni axtaran adamlar üçün, GSLIS Məktəb Kitabxanası Müəllimi proqramı xüsusi şərait yaratmışdır. Təhsil üzrə Ştat Direktorlarının Milli Assosiasiyası bu proqramı təsdiq edir və xarici akkreditləşmə agentlikləri proqramı yüksək keyfiyyətlərinə görə dəstəkləyirlər. Kollecdə təhsil alan tələbələr üçün təcrübi məşğələ saatları isə aşağıdakı kimi təşkil edilir (6).

Simmons kollecində tələbələr təcrübi məşğələlər keçməzdən əvvəl sınaq imtahanları verməlidirlər. Məhz bu testlərdən keçən tələbələr təcrübədə iştirak edə bilərlər. Lakin bu təcrübələr fərqlidir. Belə ki, təcrübə planına əsasən tələbə azad şəkildə hər hansı sahə yaxud mövzu üzərində layihə hazırlamalı və onu həyata keçirməlidir. Bunlar hər hansı bir yeni texnologiyanın işlənməsi ilə də bağlı ola bilər, yaxud kitabxanada çətin həyata keçirilən hər hansı bir işin sadələşdirilməsi ilə də bağlı ola bilər və s. Layihəni işləməzdən əvvəl tələbələr professorları ilə məsləhətləşməli və layihəni müzakirə etməlidirlər. Proqrama görə tələbələr bu təcrübəni 75 saata tamamlamalıdırlar. Bu saatlar üç semestrə bölünmüş və hər biri üçün 25 saat ayrılmışdır. Bu təcrübi layihələr Simmons kollecinin yerləşdiyi Massaçusets ştatında-İctimai Məktəb Kitabxanasında tamamlanmalıdır (5).

Beləliklə, qısa da olsa Amerika universitetlərinin kitabxanaçılıq-informasiya fakültələri və onların tədris proqramları haqqında məlumat verə bildik. İnanırıq ki, gələcəkdə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin də tələbələri adlarını çəkdiyimiz universitetlərdə olduğu kimi daha müasir təhsil səviyyəsindən yararlanacaqlar.

## ƏDƏBİYYAT

*1. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında [Mətn]: Azərbaycan Respubliksı Prezidentinin Sərəncamı, 20 aprel, 2007//Azərbaycan. – 2007.- 21 aprel*

*2. İsmayılov X. İ., Məmmədov Ə.M. Azərbaycanın kitabxana mütəxəssisləri İFLA-nın konfransında // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. -2001. -№2. – S. 133-139.*

**Saytlar**

*1. http://www.ala.com.-Amerika Kitabxanaçılıq Assosiasiyası*

*2. http://www.slis.alabama.edu/degrees/mis/- Alabama Universiteti*

*3. http://www.simmons.edu/gslis/academics/courses/ms.shtml-Simmons kolleci*

*4. http://www.my.simmons.edu/gslis/techlab/tor.shtml-Simmons kolleci*

*5. http://www.school.syr.edu/academics/graduate/execim/index/aspx.-Sirakuza Universiteti.*


***А. МАМЕДОВА***

## УЧЕБНАЯ ПРОГРАММА БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ ФАКУЛЬТЕТОВ ПЕРЕДОВЫХ ЗАРУБЕЖНЫХ УНИВЕРСИТЕТОВ


### *РЕЗЮМЕ*

В данной статье дана общая информация об учебных програмах библиотечного образования в университетах Сиракуза и Алабама, а также Симмонского колледжы США.


***A. MAMMADOVA***

## ABOUT EDUCATİONAL PROGRAMS OF THE LİBRARİANSHİP İNFORMATİON FACULTİES OF ADVANCED FOREİGN UNİVERSİTİES


### *SUMMARY*

İn this article have been given information about teaching programs of given high-level library science education of USA as Syracuse university, Alabama university and Simmons college educational institutions.

**Zöhrab ƏLİYEV**
*Əməkdar mədəniyyət işçisi, professor*
**Əminə XƏLİLOVA**
*Biblioqrafiyaşünaslıq kafedrasının baş laborantı*

# AZƏRBAYCANIN BEYNƏLXALQ ƏLAQƏLƏRİ BİBLİOQRAFİK MƏNBƏLƏRDƏ

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bir çox ölkələrlə xarici əməkdaşlığını genişləndirməklə yanaşı bir sıra beynəlxalq təşkilatlarla da əlaqələr yaratmışdır. Belə ki, ölkəmizin BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO və s. təşkilatlarla yaratdığı münasibətlər respublikamızın dünya siyasətinə inteqrasiya olumasında mühüm əhəmiyyət kəsb etmişdir. Xüsusilə 2001-ci il yanvarın 25-də Azərbaycanın Avropa Şurasına qəbul olunmasını respublikamızın beynəlxalq əməkdaşlıq sahəsində atdığı çox mühüm addım kimi qiymətləndirmək olar.

Azərbaycanın Avropa Şurası ilə əlaqələrinin genişləndiyi bir vaxtda beynəlxalq əməkdaşlıq sahəsində informasiya da durmadan artır. M.F.Axundov adına Azərbaycan Milli kitabxanası bu sahədə ədəbiyyatın toplanıb onun biblioqrafik resursunun yaradılması istiqamətində xüsusi addım atmışdır. Kitabxananın "Diyarşünaslıq elmi biblioqrafiya" şöbəsi bu məqsədlə "Azərbaycan və Avropa Şurası" adlı tövsiyə biblioqrafik göstəricisini nəşr etdirmişdir. Biblioqrafik göstəricinin tərtibçiləri G.Hüseynova və A.Babayevadır. Bu vəsaitdə 1996-cı ildən 2008-ci ilin iyul ayına qədər Azərbaycanın bu qurumla beynəlxalq əlaqələrini özündə əks etdirən ədəbiyyat haqqında biblioqrafik informasiya toplanılmışdır.

Kitabın ön sözündə biblioqrafik göstərici haqqında ümumi məlumatlar təqdim edilir.

Biblioqrafik vəsaitdə Azərbaycanın Avropa Şurası ilə beynəlxalq əlaqələrini əks etdirən kitablar və digər mətbuat məqalələri ayrıca verilmişdir. Ümumilikdə hər iki bölmədə 701 adda material haqqında biblioqrafik məlumat almaq olar.

"Kitablar" adlı I bölmədə 1998-ci ildən 2007-ci illədək nəşr olunmuş 23 kitabın biblioqrafik təsviri xronoloji qaydada əks etdirilmişdir. Vəsaitdən məlum olur ki, bu barədə yazılmış ilk kitab kimi 1998-ci ildə

nəşr edilməyə başlamış Ümummilli liderimiz Heydər Əliyevin 22 cildlik "Müstəqilliyimiz əbədidir" kitabının müvafiq bölmələrinin biblioqrafik təsviri əks etdirilib. Burada həmçinin H.Rəcəbli, V.İbayevin, A.Vəliyev, Ü.İmaməliyeva və s. müəlliflərin Azərbaycanın Avropa Şurası ilə əlaqələri haqqında yazdığı kitablar barədə biblioqrafik məlumat almaq olur.

Biblioqrafik göstəricidə diqqəti cəlb edən məqamlardan biri Ümummilli lider Heydər Əliyevin 22 cildlik "Müstəqilliyimiz əbədidir" adlı kitabının ayrı-ayrı cildlərinin biblioqrafik təsvirinin verilməsidir. Belə ki, kitabın 7-ci, 12-ci, 14-cü, 15-ci, 20-ci və 21-ci cildlərində Azərbaycannın AŞPA ilə siyasi əlaqələri, prezidentin bu mövzu ilə bağlı jurnalistlərə verdiyi müsahibələr, həmçinin AŞPA-nın nümayəndə heyəti ilə həyata keçirdiyi görüşlər haqqında ətraflı məlumat toplanmışdır. Biblioqrafik vəsaitin təhlilindən məlum olur ki, 2007-ci ildə müəllifi Ü.İmaməliyevanın olduğu 166 səhifədən ibarət "Azərbaycanın ASPA ilə əlaqələri" adlı monoqrafiya da nəşr olunmuşdur.

Tövsiyə ədəbiyyat göstəricisinin II bölməsi "Dövri mətbuatda və məcmuələrdə çapdan çıxan məqalələr" adlanır. Bu bölmədən 1996-2008-ci illərdə çap olunmuş 678 adda məqalə haqqında biblioqrafik məlumat almaq olur.

Bu bölmədə xronoloji ardıcıllığa riayət etməklə əvvəlcə Azərbaycanın AŞPA ilə əməkdaşlığı, sonra Azərbaycanın təşkilata üzv olduqdan sonra qurumla yaranmış siyasi əlaqələr, Azərbaycanın qurum qarşısında götürdüyü öhdəliklər, respublikamızı təmsil edən nümayəndə heyətinin AŞPA-dakı çıxışları, həmçinin ölkəmizdə səfərdə olan AŞPA nümayəndələri ilə görüşləri və s. mövzularda məqalələr haqqında biblioqrafik informasiya verilmişdir.

Tövsiyə biblioqrafik göstəricisinin biblioqrafik monitorinqi nəticəsində müəyyən oldu ki, bu mövzu ilə bağlı məqalələr daha çox Azərbaycan, Respublika, Xalq qəzeti, Azadlıq, Yeni Azərbaycan qəzetlərində, "Diplomatiya aləmi", "Qanun" jurnallarında çap olunmuşdur.

Vəsaitin təhlili zamanı məlum oldu ki, mətbuat səhifələrində dərc edilmiş ilk sənəd 1996-cı il 9 iyul tarixində Azərbaycan qəzetində verilmiş "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan respublikası Prezidenti Heydər Əliyevin sərəncamıdır.

Biblioqrafik resursun təhlili nəticəsində həmçinin müəyyən edildi ki, problemin öyrənilməsində ayrı-ayrı mütəxəssislərin xüsusi rolu

vardır. Belə ki, göstəricidə öz əksini tapmış 678 məqalədən 100 məqalənin müəllifi Ə.Əliyevdir. Bu da bu göstəricidə haqqında məlumat verilmiş məqalələrin 14%-ni təşkil edir.

Bu bölmədə həmçinin "Qanun" jurnalında nəşr olunmuş "Avropa Şurasının Konstitusional statusu", "Avropa Şurası hüququ" və s. elmi xarakterli məqalələr haqında da məlumat almaq olar.

Sonda elektron resurslar bölməsində www.anl.az və www.google.az saytlarının elektron ünvanları verilmişdir. Hər halda bu ünvanlar vasitəsilə də haqqında bəhs etdiyimiz mövzu barədə informasiya verilir.

Kitabın son hissəsi "Müəlliflərin əlifba göstəricisi" adlanır. Bu bölmə mövzu ilə əlaqədar yazılmış məqalə və kitabların müəlliflərinin soyadlarının axtarışını xeyli asanlaşdırır.

Ənənəvi metodikaya görə tövsiyə biblioqrafik göstəricilərində öz əksini tapan informasiya mənbələri mövcud resursun məqsəd və oxucu istiqamətinə uyğun olan aktual və elmi-nəzəri cəhətdən daha əhəmiyyətli hissəsini əks etdirməlidir. Bu baxımdan vəsaitin ümumi informativliyi tələblərə cavab verir. Lakin yaxşı olardı ki, bu mühüm biblioqrafik göstəricidə elmi və elmi-kütləvi xarakterli mənbələrə annotasiya yazılsın.

Bütövlükdə bu biblioqrafik resursu M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının biblioqrafik fəaliyyətinin ən mühüm nəticəsi kimi qiymətləndirmək olar.

**Nadir İSMAYILOV**
*BDU-nun dosenti, pedaqoji elmlər namizədi*

## KİTABXANA-İNFORMASİYA RESURSLARININ YERLƏŞMƏSİNİN NƏZƏRİ VƏ TƏCRÜBİ MƏSƏLƏLƏRİ

Müasir kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq elmləri qarşısında duran prioritet istiqamətlərdən biri də ölkənin, onun ayrı-ayrı regionlarının kitabxana landşaftının öyrənilməsi və informasiya resurslarının palitrasını müəyyən etmək, məskunlaşmanın dayaq karkaslarında kitabxana-informasiya sistemlərinin yerləşməsi vəziyyətinin təhlili əsasında əhalinin informasiya təminatının təkmilləşdirilməsinin yollarını müəyyən etməkdən ibarətdir.

Azərbaycan tarixən kitabxana landşaftının zənginliyi ilə seçilən regionlardan biridir. Əgər, dünya əhalisinə yarım milyon kitabxana xidmət göstərirsə, (6,s.125) Azərbaycan Respublikasında 12 mindən çox kitabxana-informasiya müəssisəsi fəaliyyət göstərir. (1 s.6) Bu da dünya kitabxana resursunun 2,4%-ni təşkil edir. Azərbaycan Respublikasının kitabxanalarının informasiya resursları hal-hazırda 150 milyona qədər çap vahidi ilə ölçülür. Ölkə əhalisinin 9 milyon olduğunu nəzərə alsaq hər 750 nəfərə 1 kitabxana, hər nəfərə isə təqribən 16,6 çap vahidi düşdüyü müəyyənləşir. Eyni zamanda bütövlükdə ölkə üzrə, həmçinin ayrı-ayrı regionlarda kitabxana-informasiya resurslarının düzgün yerləşdirilməsi və ondan səmərəli istifadə olunmasının tədqiq edilməsi aktuallıq kəsb edir. Ölkənin biblioqrafik informasiya mərkəzlərinin istehsal etdiyi informasiya resursunun ilkin sənəd kütləsinin axınını əks etdirməsi üzrə inkişaf meyllərinin öyrənilməsi nəticəsində müəyyən olunmuşdur ki, biblioqrafik informasiya ehtiyatının inkişaf səviyyəsi cəmiyyətin informasiya tələbatına əsasən cavab verir.

Kitabxana-informasiya ehtiyatlarının (6,c.30) yerləşdirilməsində müxtəlif amillər rol oynayır. Buraya kitabxana şəbəkələrinin quruluşunu müəyyən edən, kitabxana-informasiya ehtiyatlarının ayrı-ayrı sahələrinin konkret yerləşdirilməsinə təsir edən amilləri, müxtəlif səviyyəli ərazi-kitabxana sistemlərinin təşkili amillərini aid etmək olar.(8, c.6-9)

Amil dedikdə, hər hansı bir prosesin və ya hadisənin hərəkətverici qüvvəsi, onun ayrı-aryı xüsusiyyətlərini və ya xarakterini müəyyən edən səbəblər nəzərdə tutulur. Kitabxana-informasiya ehtiyatlarını yerləşdirilməsi və kitabxana işinin ərazi baxımından təşkili amilləri kimi bir

mənalı olmayan məkan şəraiti və bu ehtiyatların məcmusu qəbul edilmişdir. Kitabxana obyektinin, obyektlər qrupunun, sahə və ya regionun kitabxana-informasiya sahəsinin strukturunun konkret olaraq ərazicə yerləşdirilməsi nöqteyi-nəzərdən yuxarıda qeyd olunan amillər məcmusunun istifadəsilə kifayət qədər rasional nəticələr əldə etmək olar. Adətən kitabxanaşünaslıqda amillərin tərkibinə aşağıdakıları aid edirlər:

1) iqtisadi-coğrafi xüsusiyyətləri;
2) demoqrafik amillər;
3) əhalinin yerləşdirmə sistemi;
4) nəqliyyat strukturu;
5) təbii şərait və s.

Kitabxana-informasiya ehtiyatlarının yerləşdirilməsinə təsir edən əsas amil isə inzibati-ərazi amili sayılır. Belə ki, ərazi öz növbəsində yalnız ixtisaslaşması ərazinin tələblərinə cavab verən kitabxanaları deyil, bütün kitabxanaları əhatə edir. Cəmiyyətdə baş verən dəyişikliklər, bazar iqtisadiyyatı yerləşdirmənin qanunauyğunluqları, prinsip və amillərinə ciddi təsir göstərir.

Azərbaycan Respublikasında kitabxana-biblioqrafiya resursunun inkşafında istiqamət diqqəti cəkb edir. Birincisi paytaxt və digər şəhərlərdə formalaşmış kitabxana resursları, ikincisi, mərkəzdən uzaq region və digər kiçik yaşayış məntəqələri.

Kitabxananın yerləşdirilməsinin başlıca məqsədi digər kitabxanaların fəaliyyəti şəraitində cəmiyyətin informasiya tələbatlarının daha tam şəkildə ödənilməsinə kömək göstərməkdən ibarətdir. Bu məqsəd kitabxana işinin ərazicə təşkilinin və inkişafının başlıca vəzifələriylə uyğun gəlir. İnzibati amirlik sistemi şəraitində kitabxanaların bu və ya digər regionun ərazisində yerləşdirilməsi haqqında qərar qəbul edən şəxslərin dairəsi məhdud və nisbətən eyni idi. Kitabxanaların yerləşdirilməsinin mövcud olan prinsipləri nazirliklər və müəssisələr, idarələr qismində mərkəz üçün əsas sayılırdı və ərazinin aşkar passivliyini şərtləndirdi. Ərazi bu prosesdə yalnız sınaq meydanı kimi çıxış edirdi.

Müasir dövrdə isə regionlarının sosial-iqtisadi inkşafını nəzərə alan yeni prinsiplərin elmi cəhətdən əsaslandırılmasına zərurət yaranmışdır. Dəyişən vəziyyət səhmdar cəmiyyətlərin, konsernlərin, assosiasiyaların, firmaların, ərazi sakinlərinin (əhali, müəssisənin yerli özünü idarə etmə orqanları və s.) maraqlarının dəqiq əsaslandırılmasına uyğun gəlir. Birincilər (sahibkarlar) kitabxananın yerləşdirilməsiylə bağlı məsələnin

həlli zamanı ilk növbədə iqtisadi maraqları rəhbər tuturlar, ikincilər isə (ərazi sakinləri) əhalinin mənəvi sorğularının (mədəni, mənəvi) səmərəli ödənilməsində maraqlıdırlar ( burada sosial məqsədlər nəzərdə tutulur).

Məlumdur ki, kitabxana şəbəkəsinin yerləşdirilməsi əhalinin sayı və sıxlığı, yaş həddi, ailə vəziyyəti, təhsili, eləcə də sosial-peşəkar qruplara mənsubluğu kimi göstəricilər sistemi ilə sıx bağlıdır. Bu göstəricilərin kitabxana işinin təşkili xüsusiyyətləriylə qarşılıqlı əlaqədə öyrənilməsi,kitabxananın inkşafının xarakteri və şəraitindəki dəyişiklikləri izləməyə imkan verir.

Kitabxananın yerləşdirilməsinə (və sayına) əhalinin sıxlığının, konkret ərazidə əhalinin məskunlaşma dərəcəsi kimi göstəricilərin çox böyük təsiri vardır. Əhalinin yüksək sıxlığı, yaşayış məntəqələri şəbəkəsi, onların bir-birinə bağlılığı informasiya mühitinin zənginliyini, kənd sakinlərinin şəhər kitabxana şəbəkəsindən istifadə etmə imkanlarını müəyyənləşdirir.

Belə bir faktı qeyd etməliyik ki, bütün bəşəriyyətin 70%-dən çoxu qurunun cəmi 7%-ni əhatə edən sıx məskunlaşma arealında yaşayır. (5,s 237)

Azərbaycan Respublikasında isə son 100 ildə əhalinin sayı 5 dəfəyədək artmış, əhalinin sıxlığı hər kv.km-ə 103 nəfər düşür.(3, s. 29)

Kitabxana xidməti kitabxanaları vahid sistemdə birləşdirərək getdikcə daha geniş əhatəli şəkil almağa başlayır. Ərazinin az öyrənilməsi, rabitə və digər əlaqə vasitələrinin normal olmaması, yaşayış məntəqələrinə çatmaq imkanının çətinliyi, onların bir-birindən, eləcə də mədəniyyət mərkəzlərindən uzaq olması daha çox qapalı kitabxana sisteminə xarakterikdir. Qapalı kitabxana sistemi bir yaşayış məntəqəsi üçün nəzərdə tutulduğuna görə kitabxanaların orta həcmi azalır və daha çox yüksək keyfiyyətli və yüksək səviyyəli kitabxana xidməti növləri idi.

Kitabxanaların yerləşdirilməsi zamanı təbii şəraiti də nəzərə almamaq olmaz. Məsələn, ölkəmizin ərazisindəki kəskin iqlim şəraiti (qar yığını, möhkəm şaxtalar və küləklər) əraziyə çatmaq imkanı, kitab təminatı, kitabxana sahəsi kimi anlayışlara başqa cür yanaşmağa vadar edir. Burada kitabxananın əhaliyə yaxın olması birinci dərəcəli məna kəsb edir.

Kitabxananın yerləşdirilmə prinsiplərinin reallaşdırılması hər bir konkret halda əhalinin imkanları və şəraitinin nəzərə alınması ilə həyata keçirilməlidir. Təbiidir ki, hər bir yaşayış yerinin özünün fərqli, bən-

zərsiz xüsusiyyətləri vardır. Məhz onlar kitabxanaların yerləşdirilməsi zamanı əsas məsələlərin həllini müəyyənləşdirmiş olurlar.

Müasir tədqiqatlarda yaşayış məntəqələri aşağıdakı kimi fərqləndirilir:

- mərkəzi regionlar;
- məntəqələr;
- aqlomerasiya, kiçik şəhər əhalisi (50 minə yaxın), orta şəhər əhalisi (50-100 min), böyük şəhər əhalisi (500 mindən yuxarı).(9,c.61)

Ümumiyyətlə, şəhər-mürəkkəb sosial-iqtisadi hadisə olub bəşər mədəniyyəti tarixinin mühüm tərkib hissəsidir.Belə ki, 1800-cü ildə Yer kürəsinin əhalisini 3%-ə yaxını ,1850-ci ildə 6.4%, 1900-cü ildə isə 19.6%-i şəhərlərdə yaşayırdı.Bu rəqəm 1800-cü ildən 2000-ci ilədək təqribən 18 dəfə artaraq 51.2%-ə çatmışdır.

1800-cü ildə dünyada milyondan çox əhalisi olan təkcə 1 şəhər var idisə, 2000-ci ildə onların sayı 320-dən çox olmuşdur.(5 S.293-294)

Planlaşdırma struktur tipinə görə yaşayış məntəqələri: mərkəzi (məs: Bakı), kiçik ərazilərdə yerləşdirilmiş (bunlar çoxdur) şəhərlərə, ərazi xüsusiyyətlərinə görə isə kompakt, ayrılmış və əlaqəsi kəsilmiş məntəqələr fərqləndirilir. Yaşayış məntəqələrin struktur elementlərinə gəldikdə isə şəhərdaxili rayonlar, kvartallar, mikrorayonlar, funksional zonaları (parklar, istirahət mərkəzləri və s.) qeyd etmək olar. Yaşayış məntəqələri və kitabxanaların yerləşdirilməsi özlüyündə funksional olaraq kitabxana-informasiya resurslarının ərazicə təşkili formasını şərtləndirir və xarakterizə edirlər.

Kitabxana-informasiya resurslarının yerləşdirilməsinin ən mühüm səciyyəvi cəhətlərindən biri onun mühitlə əlaqəsidir. Daxili və xarici mühitin bütün elementlərinin tarazlığı yerləşdirmənin kitabxana-informasiya potensialı və onun səmərəliliyi təşkil edilir. Yerləşdirmənin uğurlu olmasının əsas şərtlərini kitabxananın daxilində deyil, ondan kənarda, yəni kitabxana obyektinin nə dərəcədə xarici mühitə uyğunlaşmasında axtarmaq lazımdır.

Yerləşdirmənin bu və digər forması kitabxanaların miqdarına və onların şəhərin ərazisində yerləşdirilmə formalarının seçiminə təsir göstərir. Yerləşdirmənin xarakteri, məsələn, əhalisi az olan şəhərdə, daha çox əhalisi olan şəhərlə müqayisədə nəyə görə çoxlu sayda kitabxananın olmasını izah edir. Uzun və dar şəhərin kompakt yerləşdirilmiş şəhərlə müqayisədə daha çox kitabxanası olacaqdır, çünki kitabxana sistemində kütləvi kitabxanalar çoxlu sayda əhaliyə xidmət göstərə bilər. Birinci

halda ikinciyə nisbətən kitabxana şəbəkəsinin daha kiçik hissələrlə yerləşdirilməsi tövsiyə olunur.

Kitabxana şəbəkələrinin yerləşməsinə təsir edən amillərdən biri də əhalinin sıxlığıdır.Məsələn, Rusiya Federasiyasında əhalinin orta sıxlığı-1 kv.km-ə 8.6 nəfər düşür.Ancaq Rusiya əhalisinin 80%-ə qədəri Avropa hissəsində və Uralda yerləşir ki, bu da Rusiya ərazisinin 25%-ini təşkil edir. Burada əhalinin sıxlığı məskunlaşmanın orta göstəricisindən ≈ 4 dəfə çoxdur (hər 1 kv.km -36.7 nəfər).

Eyni zamanda Sibir və Uzaq Şərq regionu Rusiya ərazisinin 74.6%-ini, əhalisinin isə 21.4%-ini təşkil edir.Ölkə üzrə əhalinin orta sıxlıq gostəricisindən burada sıxlıq 3.4 dəfə aşağıdır.

Azərbaycan Respublikasında kitabxana-biblioqrafiya resurslarının inkşafında iki istiqamət diqqəti cəlb edir: birincisi, paytaxt və digər iri şəhərlərdə formalaşmış kitabxana resursları,ikincisi, mərkəzdən uzaq regionlar.

Azərbaycan Respublikasında isə 1 kv.km-ə düşən əhalinin sıxlığı 103 nəfər təşkil edir.Abşeron iqtisadi rayonu isə ölkə ərazisinin 6.4%-ni təşkil edir və respublika əhalisinin 28.6%-i bu ərazidə məskunlaşmışdır. Qalan 93.6% ərazidə isə əhalinin 71.4% yaşayır.

Abşeron iqtisadi rayonunda əhalinin sıxlığı ölkə üzrə müqayisədə ≈ 4 dəfə yüksəkdir.

İqtisadi rayonda əhalinin sıxlığı orta respublika göstəricisindən yüksək olmaqla 139 nəfər təşkil edir. Göründüuü kimi Bakı da daxil olmaqla Abşeron iqtisadi rayonunda ölkənin əsas iqtisadi, mədəni və infrastruktur potensialı cəmlənmişdir. Bütün resursların, o cümlədən kitabxana-informasiya resurslarının da ölkə üzrə səmərəli yerləşdirilməsinə ehtiyac vardır.

Kitabxana şəbəkəsinin yerləşdirilməsinə şəhərin təsərrüfat və istehsalat profili də çox mühüm təsir göstərir. Neft, qaz yataqlarının olduğu ərazilərdə, yəni mədən rayonlarında şəhərlər daha çox uzadılmış formaya malik olurlar. Belə ki, mədən işçiləri qəsəbəsi bir qayda olaraq yataqların yanında cəmləşir. Ona görə də elə şəhərlərdə kitabxana şəbəkəsi o qədər də böyük olmayan kiçik kitabxanalardan (filiallardan) ibarət olur.

Əhaliyə daha yaxşı xidmətin göstərilməsinə şəhərin ərazicə kitabxana xidməti rayonları adlanan hissələrə ayrılması kömək edir. Kitabxananın rayonlara ayrılması ayrı-ayrı yaşayış rayonları arasında uyğunsuzluğun, mərkəz və onun ətrafına xidmətin göstərilməsindəki qeyri-bərabərliyin aradan qaldırılmasına imkan verir. Böyük şəhərlərdə

kitabxanaların rayonlaşdırılması kitabxana şəbəkəsinin səmərəli qurulması üçün böyük əhəmiyyət kəsb edir. Bu təcrübə daha çox XX əsrin 60-70-ci illərində inkişaf edərək, 3 mərhələdə həyata keçirilmişdir: a) şəhərin və şəhər əhalisinə kitabxana xidmətinin əvvəlcədən öyrənilməsi; b) hər yaşayış rayonunda kitabxana xidməti rayonlarının təşkili və kitabxananın yerləşdirilməsi üçün yerlərin müəyyən edilməsi; c) hər rayonda kitabxanadan istifadəyə cəlb edilməsi üçün sakinlərin uçotunun aparılması.

Şəhərin əvvəlcədən öyrənilməsi bütünlükdə onun xarakteristikasını verməyə, kitabxanaların yerləşdirilməsinə təsir göstərən daha vacib amilləri nəzərə almağa imkan verir. Lakin bununla kifayətlənmək olmaz. Belə ki, kitabxana şəbəkəsinin rasional ərazi təşkili üçün şəhərin xəritəsi öyrənilərək ayrı-ayrı yaşayış rayonlarının xüsusiyyətləri aydınlaşdırılır. Nəticədə şəhəri nisbətən xususi rayonlara ayıraraq, onların hüdudlarında sonrakı kitabxana rayonlarını reallaşdırmaq mümkün olur.

Kitabxana rayonlarına şəhərin müasir vəziyyəti, eləcə də onun və ayrı-ayrı rayonların inkişaf perspektivi nöqteyi- nəzərdən baxmaq lazımdır. Şəhərin böyüməsi prosesində nəinki kitabxanaların sayı artır və funksiyaları mürəkkəbləşir, həmçinin yerləşdirilməyə olan tələblər də dəyişir. Əgər kitabxanalar o qədər də böyük olmayan şəhərdə rahat yerləşmişdirsə, onun əhalisinin və ərazisinin artmasıyla kitabxanaların yerləşdirilməsi də dəyişmiş olacaqdır. Əks halda yeni yaşayış rayonlarının əhalisi getdikcə kütləvi kitabxanalardan uzaqlaşacaq və şəhər oxucularına kitabxana xidməti pisləşəcəkdir. Hazırda yaşayış rayonları və kitabxana şəbəkələrinin inkişafındakı uyğunsuzluq əslində vahid proses olan yaşayış binalarının və kütləvi kitabxanaların yerləşdirilməsinin müxtəlif təşkilatlar tərəfindən planlaşdırıldığına dəlalət edir.

Kitabxana işinin inkişaf dərəcəsini 10 min nəfərlik əhaliyə düşən kitabxanaların say göstəricisi əks etdirir. Bütünlükdə belə təxmin etmək olar ki, kitabxanaların sayı çox olduqca, əhalinin də (xüsusilə kənd yerində) onların xidmətlərindən istifadə imkanları genişlənir. Lakin, digər tərəfdən, bu kitab fondunun və maddi vəsaitlərin dağıdılmasına və kitabdan qeyri-rasional istifadəyə gətirib çıxarır. Ona görə də kitabxana şəbəkələrinin yerləşdirilməsinin, informasiya resurslarının bir yerə toplanmasının optimal variantı tapılmalıdır ki, həm dövlət vəsaitinin itkisinin minimuma endirilməsinə, həm də əhalinin kitabxana xidmətindən istifadə zamanı yaranan vaxt itkisinin aradan qaldırılmasına nail

olmaq mümkün olsun. Bu, bir sıra amillərin, o cümlədən yerli şəraitin xüsusiyyətlərinin nəzərə alınmasını tələb edir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, 10 minlik əhalinin kitabxana təminatına ehtiyacı əhalinin yerləşdirilməsinin pisləşməsilə əlaqədar olaraq artır. Əhalinin kitabxana ilə təminatı isə öz növbəsində tez-tez dəyişmə meyllərinə malikdir: əhalinin yerləşdirilmə şəraiti pis olduqca, az sayda əhali yaşayış yerləri üzrə stasionar kitabxanalarla təmin olunurlar. Məsələnin bu cür quruluşu nadir istifadə olunan və ya ümumiyyətlə yeni olan göstəricilərin cəlb edilməsini tələb edir; rayon (şəhər) üçün məntəqələr arasında olan məsafə; bir kitabxana tərəfindən xidmət edilən ərazinin orta radiusu; yaşayış yeri üzrə kitabxana ilə təmin edilən əhalinin xüsusi çəkisi kitabxana ilə təmin olunan məntəqələrin xüsusi çəkisi və s. Deməli, əhalinin yerləşdirilməsi və onların kitabxanalarla təmin edilməsi – bu iki amil kitabxanaların yerləşdirilməsində çox mühüm rol oynayır.

Kitabxanaların şəhərdə yerləşdirilməsi də iki amillə müəyyən edilir. Birinci, kitabxanaların şəhərin ərazisində yerləşdirilməsi; ikinci isə "ev – iş" marşrutunun uyğunluğu ilə. Bu amillər əsasında kitabxanaların yaxınlıqda yerləşdirilməsi tipologiyasını vermək olar:

1) Əlverişli yerləşdirmə (dislokasiya): istər işdən, istərsə də evdən yaxın kitabxanaya qədər olan məsafə minimaldır;

2) Kitabxanaların əlverişsiz, qeyri-münasib yerləşməsi: göstərilən hər iki məsafə maksimaldır;

3) Yaxın kitabxanaların bir qədər əlverişli yerləşdirilməsi (evdən məsafə - minimal; işdən isə maksimaldır);

4) Bir qədər qeyri- münasib yerləşdirmə (evdən məsafə- maksimal, işdən isə - minimal).

Müasir kitabxana təcrübəsində bir qayda olaraq, məsafənin kitabxanalardan istifadənin intensivliyinə təsiri az nəzərə alınır. Bununla belə göstərilən amil digər şəraitlərdə kitabxananın işinin əsas göstəricilərinə çox güclü təsir göstərir. Məsələn, oxucuların sayına, kitab verilişinə və s. Belə ki, əhalinin yaşayış və iş yerindən kitabxanaya qədər olan məsafənin artmasıyla oxucuların sayı aşağı enir. Məsələn, məsafə 1 km olduqda oxucuların sayı tədricən aşağı düşürsə, məsafə 3 km-dən o yana olduqda isə kütləvi kitabxana oxucularının miqdarı kəskin sürətdə azalır.

Kitabxanalardan istifadənin intensivliyinə kitabxanaların yaşayış rayonları ilə nəinki piyada, həmçinin nəqliyyat əlaqələri, bundan əlavə

onların kitab fondlarının həcmi də təsir göstərir. Lakin bu göstəricilər, amillər heç də həmişə nəzərə alınmır.

Qeyd etmək lazımdır ki, kitabxanaların sayı və onların yerləşdirilməsi kitabxana xidmətinin səviyyəsi haqqında tam təsəvvür əldə etməyə kifayət etmir. Belə ki, aparılan tədqiqatlardan məlum olmuşdur ki, kitab fondunun həcmi əhalinin kitabxanadan istifadəyə cəlb olunması üçün ən vacib şərtlərdən biridir. Kitab fondunun hesabını kitabxananın xidmət etdiyi və aid olduğu rayonun kateqoriyasından (şəhər, şəhər inzibati rayonu, mikrorayon və s.) asılı olaraq fərqli aparmaq lazımdır. Rayonun kateqoriyasından asılı olaraq isə kütləvi kitabxanaları 3 qrupa bölmək olar: ümumşəhər, rayon və yerli təyinatlı kütləvi kitabxanalar. Kütləvi kitabxanaların bu cür təsnifatı – xidmət olunan rayonun təyinatından və həcmindən asılı olaraq, əhalinin kitab təminatının fərqli normalarının tətbiq etməklə kitab fondunun həcmini təyin etməyə imkan verir. Əhalinin sayı azaldıqca kitab təminatı göstəricisi artmalıdır. Fondların regionlarda yerləşdirilməsinin optimallaşdırılması məsələsinin həlli - əhalini sayı, oxucuların miqdarı, kitab verilişinin və fondun (Ə-O-V-F) həcmi arasındakı əlaqə formasının mütəmadi olaraq müəyyənləşdirilməsi şəklində mümkündür.

Kitabxanaların fəaliyyəti kadrların mövcudluğu, onların peşəkar hazırlığı, təcrübəsiylə müəyyən edilir. Kitabxana kadrlarının bir-birinə bağlı iki xarakteristika qrupu fərqləndirilir:1) regionların kitabxana kadrları ilə (10 minlik əhaliyə) təminat səviyyəsi; 2) kadrların tərkibinin kitabxana xidməti səviyyəsinə təsir dərəcəsi. Aparılan təhlil göstərdi ki, ştatın həcmi birbaşa olaraq əhalinin kitabxana xidməti ilə təmin edilmə dərəcəsinə, oxuculara xidmətin səviyyə və keyfiyyətinə təsir göstərmir. Bir sıra hallarda az saylı kitabxanaçılara çoxlu oxucu düşür. Aparılan tədqiqatlardan o da məlum olmuşdur ki, kadrların ixtisasartırmalarını həyata keçirən metodiki mərkəzlərin yaxşı işlədikləri yerlərdə kitabxanaların iş göstəriciləri də yüksək olur.

Müasir iqtisadi münasibətlərlə əlaqədar, onu da qeyd etmək lazımdır ki, hal-hazırda kitabxanaların cəlbediciliyi və rahatlılığı da aktuallıq kəsb edən məsələlərdəndir. Təcrübə göstərir ki, kitabxanaların reytinqi onların texniki təchizatından, oxucuların informasiya tələbatlarının nə dərəcədə dolğun və diqqətli ödənilməsindən və b. amillərdən çox asılıdır.

Kitabxanaların rasional yerləşdirilməsinin prinsip və amillərinin təcrübi olaraq həyata keçirilməsi əhalinin nəinki şəhərdə, regionda,

eləcə də hər bir məntəqədə, kənddə və s. bütün kitabxanaların kitab fondundan səmərəli istifadəsini təmin etməlidir.

Buna görə də əhaliyə kitabxana xidmətinin inkişafının perspektivli ərazi proqramlarının işlənməsinin vaxtı gəlib çatmışdır. Bu istiqamətdə Azərbaycan Respublikasında iki mühüm dövlət proqramı qəbul edilmişdir və müvəffəqiyyətlə həyata keçirilir. Proqramların işlənməsi zamanı kitabxanaların sayı, kitab fondlarının həcmi, komplektləşdirməyə ayrılan maliyyə vəsaiti, kitabxana işçilərinin sayı və s. kimi göstəricilər mütləq nəzərə alınmalıdır. Bu zaman dəqiq kitabxana normativlərinin müəyyənləşdirilməsini də unutmaq olmaz. Çünki normativlərin dəqiq müəyyənləşdirilməsi ölkənin bütün rayonlarının əhalisinin maraqlarına müvafiq olaraq kitabxana resurslarının bərabər şəkildə paylanmasına böyük təsir göstərəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli, 3072 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkşafı üzrə Dövlət Proqramı"na uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 2009-cu ilin sentyabr ayında "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə statistik bülleten nəşr etdirmişdir.Həmin monitorinqin nəticələrinə görə Azərbaycan Respublikasında kitabxana resurslarının yerləşməsi vəziyyəti iqtisadi rayonlar və Bakı şəhəri üzrə aşağıdakı kimi olmuşdur.

1. Aran iqtisadi rayonu üzrə - 23.4%
2. Gəncə-Qazax iqtisadi rayonu üzrə - 14.9%
3. Lənkəran iqtisadi rayonu üzrə - 11.7%
4. Şəki-Zaqatala iqtisadi rayonu üzrə - 9%
5. Bakı şəhəri üzrə - 8.4%
6. Quba-Xaçmaz iqtisadi rayonu üzrə - 8.2%
7. Yuxarı-Qarabağ iqtisadi rayonu üzrə - 7.1%
8. Naxçıvan iqtisadi rayonu üzrə - 5.8%
9. Dağlıq Şirvan iqtisadi rayonu üzrə - 4.9%
10. Kəlbəcər-Laçın iqtisadi rayonu üzrə - 4.5%
11. Abşeron iqtisadi rayonu üzrə - 2.1%

Göründüyü kimi, kitabxana resurslarının iqtisadi rayonlar üzrə bölgüsündə iqtisadi rayonun ərazisi, əhalisinin sayı, məskunlaşmanın dayaq karkasları mühüm rol oynayır.

Monitorinqin nəticələrinə görə kitabxanaların 27.3 %-i şəhərlərdə, 72.7%-i kəndlərdə yerləşir. Ümumi kitabxana-informasiya resursunun

50.7 %-ni Təhsil Nazirliyinin, 46.6%-i Mədəniyyət və Turizm Nazirliyinin, 2.7%-ni isə digər müəssisələrin nəzdində olan kitabxanalar təşkil edir.

Məlum olduğu kimi, kitabxana-informasiya resurslarından səmərəli istifadənin təşkili bilavasitə onların kadr təminatı səviyyəsindən, o cümlədən ixtisaslı kadrların xüsusi çəkisindən. onların yaşı, peşə səviyyəsi, iş stajı və digər amillərdən asılıdır.

Monitorinqin nəticələri göstərir ki, respublikanın kitabxana müəssisələrində 12729 işçi çalışır. Bunlardan 8727-i mütəxəssis. 4002-i isə texniki işçilərdir. Bu işçilərin şəhər və kənd yerlərinə görə bölgüsü belədir:

- şəhər yerləri üzrə - 45.7%;
- kənd yerləri üzrə - 54.3%

O cümlədən yaşayış yerləri üzrə mütəxəssislərin yerləşməsi aşağıdakı kimidir:

- şəhər yerləri üzrə mütəxəssislər – 52.7%;
- kənd yerləri üzrə mütəxəssislər – 47.3%

Kitabxana işçilərinin təhsil səviyyəsinə görə ümumi mənzərəsi aşağıdakı kimi olmuşdur:

1 Ali ixtisas təhsillilər – 1579
2 Ali qeyri-ixtisas təhsillilər – 1318
3 Orta ixtisas təhsillilər – 1767
4 Orta qeyri-ixtisas təhsillilər – 1261
5 Ümumi orta təhsillilər – 2802

Hesablamalar göstərir ki, ali ixtisas təhsillilər kitabxana mütəxəssislərinin 18%-ni, orta ixtisas təhsillilər isə 20.3%-ni təşkil edir. Bütövlükdə ali və orta ixtisas təhsilli mütəxəssislər kitabxana işçilərinin 38.3 %-ni təşkil edir.

Ölkədə gedən təhsil islahatları, mədəniyyətin inkişafına dövlətin qayğısının daim artması, informasiya cəmiyyətinin tələbləri ölkə kitabxanalarında işləyən, ölkədə gedən təhsil islahatları, mədəniyyətin inkişafına dövlətin qayğısının daim artması, informasiya cəmiyyətinin tələbləri ölkə kitabxanalarında işləyən ali qeyri-ixtisas təhsilli işçilərin BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin nəzdində əlavə təhsil formasında (bunların xüsusi çəkisi 15%) təhsil almalarını müvafiq icra hakimiyyəti orqanları həll edə bilər. Digər tərəfdən kitabxanası olan nazirlik və idarələr yüksək ixtisaslı kadrlara olan tələbatlarını məhz fakültəni bitirən bakalavr və magistrlar vasitəsilə ödəyə bilərlər.

Təhlillər göstərir ki, ali ixtisas təhsilli kitabxana mütəxəssislərinin 87%-i şəhər yaşayış yerlərinin, 13%-i isə kənd yerlərində yerləşən kitabxanalarda çalışırlar. Ümumi orta təhsillilər isə kənd yerlərində xüsusilə çoxluq təşkil edir (77.1%). Bu da kənd yerlərində əhaliyə kitabxana xidmətinin səviyyəsi haqqında düşünməyə əsas verir.

Kitabxanaların 111.0 milyon nüsxədən ibarət olan fondunun 80.5%-ni kitablar, 5.4%-ni qəzet və jurnallar, 14.1%-ni isə digər materiallar təşkil edir ki. onların da 72.8%-i şəhər, 27.2%-i isə kənd yerlərində fəaliyyət göstərən kitabxanaların payına düşür.

Kitabxana fondunun 34.6%-i ümumtəhsil məktəblərində, 32.0%-i Mədəniyyət və Turizm Nazirliyinin nəzdində olan kitabxanalarda, 21.4%-i elmi və elmi-texniki kitabxanalarda, 12.0%-i isə digər müəssisə və təşkilatların kitabxanalarındadır.

Kitabxanalarda olan fondun 65.5 faizi azərbaycan, 31.1 faizi rus, 2 faizi ingilis dillərində, 1.4 faizi digər dillərdədir. Azərbaycan dilində olan ümumi fondun 71.98 faizi latın, 28.1 faizi isə kiril əlifbasındadır. 2009-cu ilin I yarısında kitabxanalara 4.8 milyon müraciət qeydə alınmış, 53.4 milyon kitab və digər informasiya mənbələrindən istifadə edilmişdir. Müraciətlərin 39.6 faizi 18 yaşınadək uşaqlar tərəfindən olmuşdur.

Beləliklə, Azərbaycan Respublikasının regionlarında kitabxana-informasiya resurslarının yerləşməsi vəziyyəti və ondan səmərəli istifadənin perspektivlərinin ümumi mənzərəsi belədir.

## ƏDƏBİYYAT


1. *"Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında"/Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Kitabxanaşünaslıq və biblioqrafiya(Elmi, nəzəri, təcrübi jurnal).- 2009 № 1. S-6*
2. *Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında. I və II cild Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007, 820s.*
3. *Azərbaycanın regionları.-B.,2009.-S 35-60.*
4. *Kitabxanaların fəaliyyəti haqqında statistik müayinənin nəticələri barədə statistik bülleten.-B.,2009.-86s.*
5. *Əfəndiyev V.Ə., Nağıyev S.Q. Əhali coğrafiyası.-Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 338 s.*

**Rus dilində**

6. *Библиотечное дело: Терминол. слов.- М.: Книга, 1986.*

7. *Всемирный Саммит по информационному обществу.- СПб.,2004.с.125*

8. *Карташов Н.С Размешение библиотек: регионалный аспекть//Библиотека.-2004.-№3.-с.6-9.*

9. *Карташов Н.С Размешение библиотек и библиотечных ресурсов//Библиотека.-2004.-№4.-с.61.*

***Н.И.ИСМАИЛОВ***

## ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ВОПРОСЫ РЕГИОНАЛЬНОГО РАЗМЕЩЕНИЯ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ

### *РЕЗЮМЕ*

В статье теоретически и практически анализируются вопросы регионального развития библиотечно-информационных ресурсов, особенности их размещения, состояние размещения этих ресурсов в регионах Азербайджанской Республики. А также, в статье изучаются актуальные вопросы региональной структуры библиотечно-информационных ресурсов, состояние использовании этих ресурсов, обеспечения кадрами библиотечно-информационных органов.

***N.İ. İSMAİLOV***

## THE ORETİCAL AND PRACTİCAL İSSUES OF REGİONAL LOCATİON LİBRARY AND İNFORMATİON RESOURCES

### *SUMMARY*

The article analyzes the theoretical and practical issues of regional development of library and information resources, especially their location, the state allocation of these resources in the regions of Azerbaijan Republic. Also, the article examines current issues of the regional structure of library and information resources, the state of use of these resources, and staffing of library and information agencies.

**Qəmzə HACIYEVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi***

## TÜRKİYƏDƏ MİLLİ BİBLİOQRAFİYA

Türkiyədə milli biblioqrafiya XX əsrin əvvəllərinə kimi çox zəif inkişaf etmişdir. Ölkədə ilk mətbəə yalnız XVIII əsrin əvvəllərində 1729-ci ildə İbrahim Mütəffərikə tərəfindən yaradılmış və kitab çapına başlanılmışdır. 1732-ci ildə türk dilində Katib Çələbinin (1609-1656) «Cihan nüma» adlı ilk xəritəli coğrafiya kitabı çap olmuşdur. Türkiyədə ilk qəzetlər fransız dilində yaranmış, 1831-ci ildə isə türk dilində «Takvım-i Vekai» adlı ilk qəzet, 1863-cü ildə isə Mecmua-i Fünün» adlı jurnal dərc edilmişdir.

Yeni türk əlifbasının qəbul edildiyi 1928-ci ilə kimi , yəni ölkədə ilk kitab nəşrindən sonrakı iki yüz illik bir dövrdə 30.000-ə yaxın kitab çap olunmuşdur ki, bu da nəşriyyatçılıq işinin nə qədər zəif inkişaf etdiyini açıb göstərir. Belə vəziyyət biblioqrafiyanın da zəif inkişafına səbəb olmuşdur.

Bununla belə, Türkiyədə ilk biblioqrafik əsərin yaranması hələ XVII əsrə təsadüf edir. Böyük Türk tarixçisi, coğrafiyaşünas, maliyyə və dənizçilik kimi bir-birinə yad olan elmləri dərindən bilən Katib Çələbi 30-a qədər əsərin müəllifidir. Bu gün də öz əhəmiyyətini qoruyub saxlayan bu əsərlər biblioqrafik cəhətdən də diqqəti cəlb edir. Onun ən mühüm əsərlərindən olan «Kəşfüz-Zünun»da 9512 müəllif, tərcüməçi və şərhçinin tərcümeyi-halı ilə yanaşı, onların fars, ərəb və türk dillərində yazılmış 14.051 adda əsərləri haqqında da məlumatı əks etdirir.

Əsərdə materialların düzülüşü xüsusi maraq doğurur. İlk dəfə olaraq bütün əsərlər sərlövhələri əlifba üzrə düzülmüşdür (Şərqdə bu metodu ilk dəfə olaraq Katib Çələbi tətbiq etmişdir). Sərlövhədən sonra əsərin aid olduğu elm sahəsi göstərilmiş, daha sonra isə müəllif haqqında bioqrafik məlumat verilmişdir. Yəni onun anadan olduğu və vəfat etdiyi tarix, fəaliyyəti haqqında qısa arayış göstərilmişdir. Bundan sonra əsas mətndən qısa parçalar verilir. Birinci səhifənin başlanğıcı. Bölmələr və fəsillər sadalanır. Onların qısa məzmunu açılır, əlavələr, tərcümələr və şərhlər, onların müəllifləri haqqında məlumatlar əks olunur.

Katib Çələbinin bu əsəri 1858-ci ildə İstanbulda və Misirdə eyni vaxtda mətbəə üsulu ilə nəşr edilmişdir. İkinci dəfə o iki cilddə 1941-1943-cü illərdə çapdan çıxmış və bu nəşrə İsmayıl paşa iki cildlik əlavə

tərtib etmişdir. Həmin əlavə 1945-1947-ci illərdə doktor Şerefeddin Yaltkaya və Rifat Belgenin redaktorluğu ilə çap olunmuşdur.

Katib Çələbinin başqa əsərləri ilə yanaşı, bu əsəri də Avropa dillərinə tərcümə edilmişdir. Ərəb dilində olan əsər XIX əsrdə məşhur şərqşünas Flüqel tərəfindən latın dilinə tərcümə edilərək 1835-1858-ci illərdə ilk iki cildi Leypsiqdə, digər beş cildi isə Londonda çapdan çıxmışdır. Flüqel əsərdə əvvəlcə ərəb dilində vermiş, daha sonra isə latın dilində tərcüməsini göstərmişdir. Müxtəlif nəşrləri olan bu mühüm əsər axırıncı dəfə Türkiyə Maarif Nazirliyi tərəfindən iki cilddə əvvəlki nəşrlərdən fərqli olaraq səhvlər düzəldilərək çap olunmuşdur.

Türkiyədə kitabxana-biblioqrafiya işi ötən əsrin 20-ci illərindən, yəni Türkiyə Cümhuriyyəti yarandıqdan sonra inkişaf etməyə başlamışdır. Demək olar ki, K.Çələbinin əsəri 1934-cü ilə kimi yazılmış yeganə biblioqrafik mənbə hesab olunur.

1934-cü ildə Türkiyənin Böyük millət Məclisi məcburi nüsxə haqqında qanun qəbul edir. Həmin qanuna əsasən ölkənin bütün nəşriyyatları Maarif Nazirliyinin məcburi nüsxə idarəsinə pulsuz beş nüsxə təqdim etməli idilər. Bu nüsxələr ölkədə olan böyük kitabxanalara paylanmalı və bunun əsasında «Türkiyə biblioqrafiyası» adlı cari Milli biblioqrafiya orqanı çap olunmağa başlayır. Burada Türkiyədə latın əlifbasının qəbul edildiyi vaxtdan, yəni 1928-ci ildən başlayaraq nəşr edilmiş bütün ədəbiyyatın qeydi aparılırdı. Onun 1939-cu ildə çap olunmuş ilk buraxılışı on illik bir dövrü 1928-1938-ci illərin nəşrlərini əhatə etmişdir.

1954-cü ilə kimi bu nəşr Türkiyə Maarif Nazirliyi tərəfindən çap olunmuş, həmin ildən isə Milli Kitabxana tərəfindən hazırlanmağa başlamışdır. 1955-ci ildən Milli Kitabxana nəzdində «Biblioqrafiya» institutunun təşkili «Türkiyə biblioqrafiyası»nın daha da təkmilləşdirilməsinə, onun Beynəlxalq Standartlara uyğun tərtib olunmasına səbəb olmuşdur. Biblioqrafik göstəriciyə edilən bəzi dəyişikliklər nəticəsində o, başqa ölkələrdə yayımlananlara bənzər duruma gətirilmişdir.

1955-ci ildən «Türkiyə biblioqrafiyası» Milli Kitabxana tərəfindən hazırlanmış təlimat əsasında tərtib edilir. Bunun nəticəsində onun keyfiyyəti yaxşılaşmış və ardıcıl çap olunmağa başlamışdır. Burada materialın sistemləşdirilməsində bəzi əlavələr edilməklə beynəlxalq onluq təsnifat sistemindən istifadə edilir. Bölmələr daxilində ədəbiyyat müəlliflərin və müəllifsiz əsərlərin sərlövhələrinin əlifbası üzrə düzülür. Hər bölmənin sonunda müvafiq bilik sahəsinə dair çap olunan qəzet və jurnallar ayrıca başlıq altında verilir. Türkiyədə Avropa dillərində nəşr

olunmuş, ədəbiyyat, xarici müəlliflərin türk dilinə tərcümə edilmiş əsərləri. Həmçinin Türkiyənin azlıq təşkil edən millətlərinin dillərində çıxmış əsərlər vəsaitin uyğyn şöbələrində əks olunur. Ayrıca «Musiqi» bölməsində notlar, coğrafiya bölməsində isə xəritə və atlaslar təsvir olunur. «Türkiyə biblioqrafiyası» müasir Türkiyənin bütün çap məhsulu haqqında cari biblioqrafik məlumatı əks etdirir.

«Türkiyə biblioqrafiyası»nda biblioqrafik təsvir 1985-ci ildən ingilis-amerikan kataloqlaşdırma qaydalarına uyğunlaşdırılmış və buraxılışlar aylıq olaraq yayımlanır.

Göstəricinin sonunda mətbəə və nəşriyyatların əlifba üzrə adları verilir və hər birininin qarşısında ünvanları göstərilir.

Ölkənin cari Milli biblioqrafiya orqanı olan bu nəşr 1989-cu ildən avtomatlaşdırılmış qaydada kompüterdə hazırlanır. 2003-cü ildən isə CD-ROM formasında aylıq olaraq yayımlanır. Türkiyədə çapdan çıxan bütün nəşrlər haqqında burada biblioqrafik məlumat əks olunduğu üçün «Türkiyə biblioqrafiyası»nı ölkənin mətbu həyatının güzgüsü hesab etmək olar. Ayrıca «Türkiyə biblioqrafiyası»nın sonundakı statistik məlumatlar hansı mövzuda nə qədər əsərin çap olunduğunu müəyyənləşdirməyə imkan verir. Bu nəşr bir çox kütləvi, məktəb və uşaq kitabxanaları tərəfindən kataloqlaşdırma və təsnifləşdirmə işlərində rəhbər olaraq istifadə edilir.

1952-ci ildən Turkiyədə ikinci cari Milli biblioqrafiya orqanı olan «Türkiyə məqalələr biblioqrafiyası» çap olunmağa başlayır. Bu Milli Kitabxanaya daxil olan elmə və mədəniyyətə dair dövri nəşrlərin analitik olaraq məzmununu açan beynəlxalq səviyyəli biblioqrafik nəşrdir. 1950-ci ildə YUNESKO tərəfindən Parisdə keçirilmiş beynəlxalq konfransın tövsiyələrinə uyğun olaraq çap edilən bu nəşr rüblük nəşr olunurdu. Həmin konfransın qərarına müvafiq olaraq «Türkiyə məqalələr biblioqrafiyası»nda məqalələrin sərlövhələri fransızca tərcümələri ilə birlikdə verilirdi. Belə ki, məqalələr təsvir olunarkən aşağıdakı məlumatlar verilirdi: sıra nömrəsi (hər ilin dörd buraxılışında nömrələmə ardıcıldır), müəllifin soyadı, elmi dərəcəsi və ya hərbi rütbəsi, adı, məqalənin sərlövhəsi (əgər məqalə türk dilində çap olunmayıbsa, mötərizədə onun türkcə adı verilir), məqalənin fransız dilində sərlövhəsi, dövri mətbuatın ixtisar olunmuş adı, nömrəsi, buraxılış tarixi.

1964-cü ildən məqalələrin fransızca adları verilmir. «Türkiyə məqalələr biblioqrafiyası»nda da materiallar «Türkiyə biblioqrafiyası»nda tətbiq olunan təsnifat əsasında qruplaşğdırılır.

1952-1985-ci illər arasında üç aydan bir, yəni rüblük çap olunan «Türkiyə məqalələr biblioqrafiyası» 1986-cı ildən etibarən aylıq buraxılır Göstərici üçün materimallar seçilərkən əsasən elmi və mədəni dəyəri olan məqalələrə üstünlük verilir.

2003-cü ildən etibarən «Türkiyə məqalələr biblioqrafiyası» CD formasında aylıq olaraq yayımlanmağa başlamışdır. Onlardan istifadəni asanlaşdırmaq, yəni çap formasında olan tərtibatı qoruyub saxlamaq məqsədilə göstəriciyə aid RDF fayllarına da yer ayrılır. CD-də verilmiş məqalələrin sərlövhəsi Türk və İngilis dillərində olan axtarış proqramları ilə təmin olunmuşdur ki, bu da müvafiq biblioqrafik axtarışın səmərəliliyini təmin etmişdir.

Milli kitabxananın çap etdirdiyi «Türkiyə məqalələr biblioqrafiyası»nda əks olunan məqalələr haqqındakı biblioqrafik məlumatlar 1995-ci ildən etibarən İnternetdə də verilir.

Bütün bünlar Türkiyə cumhuriyyətində çap məhsulu haqqında müntəzəm, ardıcıl, hərtərəfli axtarış aparmağa imkan verir.

Türkiyədə müəyyən dövrlərdə digər cari Milli biblioqrafiya orqanları da çap olunmuşdur. Bunlardan «Seçilmiş qəzet məqalələri biblioqrafiyası», «Yeni kitablar» və digər nəşrləri göstərmək olar.

«Türkiyə Milli kitabxanası türk kitablarının biblioqrafik repertuarının yaradılması sahəsində də əsaslı işlər aparır. Hələ 1956-1957-ci illərdə kitabxana öz fondunda olan Türkiyədə ərəb əlifbası ilə çap olunmuş kitabların kataloqunu çap etdirmişdir. 1928-1929-cu illəri əhatə edən bu iki cildlik kataloqda 30 minə yaxın ədəbiyyat haqqında məlumat verilmişdir. Həmin kataloq ölkənin bütün iri kitabxanalarına göndərilmişdir. Bunda məqsəd Milli kitabxananın fondunda olmayan digər nəşrləri də aşkar etmək idi.

Milli kitabxana bir çox şəxslərdən daxil olan hədiyyəllər və satın alma yolu ilə öz fondunu ərəb hərfli çap kitabları ilə daha da zənginləşdirmiş və 1964-1968-ci illər arasında kataloqun ikinci nəşrini çap etdirmişdir. 1971-ci ildə isə buna əlavələr buraxılmışdır.

1990-cı ildən mədəniyyət və Turizm Nazirliyi Milli kitabxana ilə birlikdə Türkiyə çap kitablarının toplu kataloqunun (TUVATOK) nəşrinə başlamışdır. Ərəb hərfi türkcə kitabları əhatə edən bu kataloqun hazırlanmasında Milli kitabxana ilə yanaşı ölkənin digər 157 kitabxanası da yaxından iştirak edir. 1729-1728-ci illəri əhatə edən bu göstəricidə biblioqrafik təsvirlərin düzülüşündə əlifba Prinsipi əsas götürülmüşdür. 2004-cü ilə kimi bu göstəricinin cəmi 6 cildi çap olunmuşdur ki, bunlar

da A-J hərflərini əhatə edir. Göstəricinin tərtibində dr.Müjgan Cunbur, Dursun Kaya, Niyazi Ünver və başaqları yaxından işitirak edirlər.

Bu layihə çərçivəsində ölkədə başqa dillərdə çap olunmuş kitabların göstəricisi də hazırlanıb nəşr edilmişdir. Belə ki, 2002-ci ildə Milli kitabxana Başkandlığı tərəfindən 1584-1986-cı illərdə ərəb, erməni və yunan dillərində çapdan çıxmış və Türkiyə kitabxanalarında saxlanılan əsərlərin biblioqrafik göstəricisi tərtib olunaraq buraxılmışdır. Burada 50760 əsər haqqında biblioqrafik məlumat verilir. Bu vəsaitin tərtibi iki mərhələdə həyata keçirilmişdir. İlk növbədə Türkiyə Milli kitabxanasının fondu əsas götürülmüş, daha sonra isə geniş diapazonda müxtəlif biblioqrafik mənbələrdə, arxivlərdə axtarış aparılmışdır.

Türkiyədə qeyri-latın şriftilə başaq dillərdə çıxmış əsərləri əhatə edən bu göstərici kompakt diskdə də buraxılmışdır. Bunu Milli kitabxananın sifarişi ilə Yayıncılıq LTD Nuvis Besari Araşdırmalar ve-si. Sti. hazırlamışdır.

Türkiyə Əlyazmalar Toplu kataloqunun (TUYATOK) Mədəniyyət nazirliyi nəzdindəki kitabxana və muzeylərdə, rəsmi qrumlarda, şəxsi kitabxanalarda olan əlyazma əsərləri haqqında biblioqrafik məlumat verir. 1978-ci ildən həyata keçirilən bu layihə çərçivəsində 2000-ci ilə kimi 424  2 cild çap olunmuşdur. Bunlarda da 3316 adda əlyazma əsəri bütünlükdə 6231 kitab əhatə edilmişdir.

2004-cü ildə Dursun Kaya, Niyazi Ünver, Selma Kutlu və HasanSoyak tərəfindən Türkiyə Əlyazmalar Toplu kataloqunun CD variantları hazırlanır İki CD-dən (CD-I-II) ibarət olan bu kataloqda 86.063 əsər / risalə haqqında məlumat verilir. Bundan başqa. Digər CD-lərin hazırlanması sahəsində də əsaslı iş aparılır.

2005-ci ildə «Türkiyə Əlyazmalar Toplu kataloqu»ilə əlaqədar CD-III hazırlanır. Kataloqun elektron variantı olan bu hissə ölkədə və xaricdəki bəzi kitabxanalarda olan türkcə əlyazmalar haqqında biblioqrafik məlumatı əks etdirir. Burada Türkiyənin bir sıra kitabxanaları ilə yanaşı, ABŞ, İtaliya, rusiya, İngiltərə, Misir, Fransa, Almaniya, Avstriya, Gürcüstan, İran, Vatikan, İrak, tatarıstan, Qazaxıstan və digər ölkələrin iri kitabxanalarında saxlanılan 40.250 əlyazma əsəri haqqında istifadəçilərə məlumat verilir.

TUYATOK CD-3 vasitəsilə müxtəlif elm sahələrinə dair əlyazma kitabları haqqında məlumatları ilə tanış ola bilmək mümkünlüyü də təmin edilmişdir.

TUBATOK və TUYATOK-un çap olunması əlyazma və ərəb hərfli türkcə olan kitabları, hər cür əlyazma sənədləri, türk, şərq və qərb inkunabulları, ikinci bir nüsxəsi qalmayan nadir əsərləri, hər hansı bir sənət və ya xatirə dəyəri olan kitabları, əsərlərini tamamlaya bilməmiş, yazarların qaralama halında olan kitab və məktublarını bir araya gətirmək, bunların çap kataloqlarını-əlyazma və ərəb hərfli çap əsərlərinin toplu kataloqunu hazırlamaq və istifadəçilərin xidmətinə təqdim etmək baxımından xüsusi əhəmiyyət kəsb edir.

2002-ci ildə Milli kitabxana tərəfindən dövri mətbuata həsr edilmiş «Cumhuriyyət dövrü məqalələr biblioqrafiyası» adlı vəsait həm ənənəvi, həm də CD formasında hazırlanaraq istifadəçilərin xidmətinə təqdim edilmişdir. Burada «Türkiyə məqalələr biblioqrafiyası»nın nəşr olunmağa başlaıdğı 1952-ci ildən əvvəl (1923-cü ildən başlayaraq) dərc edilmiş məqalələr haqqında biblioqrafik məlumat verilir. Başqa sözlə «Cumhuriyyət dövrü məqalələr biblioqrafiyası» 1923-1999-cü illərdə mədəni vəelmi əhəmiyyəti olan dövri nəşrlərdə dərc olunmuş məqalələr haqqında biblioqrafik məlumatı əks etdirir.

1973-cü ildə Türkiyə Cumhuriyyətinin 50-ci ildönümü münasibətilə «Cümhuriyyət dövründə biblioqrafiyanın biblioqrafiyası» adlı ikinci dərəcəli biblioqrafik vəsait də hazırlanıb çap edilmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi Türkiyədə çap olunan ümumi xarakterli göstəricilərdə materialın sistemləşdirilməsində onluq təsnifat sistemindən istifadə olunur. 1954-cü ildə bu təsnifat sistemi Milli kitabxana tərəfindən türk dilinə tərcümə edilmiş və ölkə daxilində yayılmışdır. Bununla da ölkədə biblioqrafik nəşrlərdə və kitabxanalarda tətbiq olunan təsnifat sisteminin standartlaşdırılması həyata keçirilmişdir.

Daha sonra onluq təsnifat sisteminin 18-ci nəşrinin türkəcəyə tərcüməsi və tətbiqi sahəsində müəyyən işlər aparılsa da bu iş tamamlanmadığından heç bir nəticə verməmişdir. Lakin 1991-ci ildə 20-ci nəşri yayımlanmış olan onluq təsnifat sisteminin yeni nəşrinin türk dilinə tərcüməsi üçün yenidən fəaliyyətə başlanılır. Milli kitabxananın əməkdaşları olan Könül Böyüklimanlı və Tülin Egenin rəhbərliyi ilə onluq təsnifat sisteminin 20-ci nəşrinin tərcüməsi 1993-cü ildə başa çatır, və 4 cilddə nəşr edilir. Həmin vaxtdan ölkədə bu nəşr tətbiq olunur.

Türkiyədə tətbiq olunan onluq təsnifat sisteminin 15-ci və 20-ci nəşrlərində 297. İslam dini və İslam elmləri» təsnifat cədvəli yarımçıq qalmışdır. Fayriye (Mercanlıgil) Gündoğdunun doktorluq dissertasiyası bilavasitə bu mövzuya həsr olunmuş və onun hazırladığı əsər 1997-ci il-

də Milli kitabxana tərəfindən nəşr edilərək yayımlanmışdır. Həmin əsər Türk kitabxanaşünaslığında islam elmləri ilə əlaqədar əsərlərin təsnifləşdirilməsində mövcud olan böyük bir boşluğu tamamlamaq üçün əsas hesab edilir. Eyni zamanda bu təsnifat Türkiyə Milli biblioqrafiya nəşrlərində də müvafiq ədəbiyyatın təsnifləşdirilməsində geniş tətbiq olunur.

## ƏDƏBIYYAT


**Azərbaycan dilində**

1. *Xələfov A.A., Mehdiyeva N.D. XX əsrdə Türkiyədə kitabxana işi (Qısa tarixi icmal) // Bakı Universitetinin Xəbərləri:Humanitar elmlər seriyası.-2008-№3.-S.231-241.*
2. *100 böyük türk.-B.,1991*

**Rus dilində**

1. *Рафиков А.Х. Библиографические указатели и печатных карточки Турции // Сов. библиография.-1961.-№1.-С.106-119.*



***Г.С.ГАДЖИЕВА***


## НАЦИОНАЛЬНАЯ БИБЛИОГРАФИЯ ТУРЦИИ


### *РЕЗЮМЕ*

Первые библиографические источники появились еще в XVII веке. Первая книга на Турецком языке была издано 1729 году. Несмотря на это, текущая национальная библиография возникла 1934 году, а ретроспективная только во второй половине XX века. В статье особое внимание удалено возникновению и развитию национальной библиографии в стране ,а так же, проанализировано современное состояние текущей национальной библиографии и изучены сводные каталоги турецких рукописей (ТУЯТОК)и печатных книг (ТУБАТОК).

***Q.S.HADJİEVA***

## NATİONAL BİBLİOGRAPHY OF TURKEY

***SUMMARY***

The first bibliographic  sources are appeared in Turkey as early as the seventeenth century. The first book in Turkish, was published in 1729. Despite this, the current national bibliography has arisen only in 1934 and retrospective bibliography in the second half of the twentieth century. In the article also paid special attention to the emergence and development of national bibliography in the country, as well as, reviewing the present state of the current national bibliographies and union catalogs Also were studied Turkish manuscripts catalogue (TUYATOK) and printed books catalogue (TUBATOK).

**Xuraman AĞAYEVA**
*Pedaqogika üzrə fəlsəfə doktoru*

# TƏHSİLİN BİBLİOQRAFİK İNFORMASİYA TƏMİNATININ MÜASİR VƏZİYYƏTİ

Respublikamız müstəqillik əldə etdikdən sonra yetişməkdə olan nəslin milli zəmin, milli dəyərlər əsasında tərbiyəsi məsələsi günün ən önəmli problemlərindən biri olmuşdur. Bugünkü gənclik dərin biliyə, bacarığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə, demokratik dünyagörüşünə malik olmalı, Azərbaycanda demokratik dovlət qurmaq yolunda ciddi çalışmalıdır.

Təhsil naziri M.Mərdanovun «Azərbaycan təhsili XXI əsrin astanasında» adlı kitaba yazdığı «Müstəqil Azərbaycanda təhsil islahatı: əsas istiqamətlər və perspektivlər» adlı ön sözdə Azərbaycan təhsilinin bugünü, sabahı ətraflı şərh edilmişdir (4, 5-7) Ön sözdə deyilir: "Azərbaycan Respublikasının tam müstəqilliyə qovuşması, ölkəmizdə istər milli dövlətçilik, istərsə də sosial-iqtisadi və mədəni quruculuq sahəsində əsaslı islahatların aparılmasına şərait yaratmışdır. Bu sahədə ciddi uğurlar əldə olunmuşdur. Müstəqil dünyəvi dövlət qurmaq üçün mühüm amillərdən biri milli təhsil sahəsində, pedaqoji sahədə dünya standartlarına uyğun əsaslı islahatların aparılması, təhsilimizin milli və ümumbəşəri dəyərlər, demokratik, dünyəvi prinsiplər əsasında dövlət müstəqilliyinin bəxş etdiyi imkan zəminində xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, milli ənənələrinə müvafiq şəkildə formalaşmasına nail olmaqdan ibarətdir. Təhsildə tərəqqiyə, inkişafa nail olmadan cəmiyyətin real tərəqqisindən, dövlətin inkişafından danışıla bilməz. Azərbaycanda sivil, dünyəvi dövlət qurmağın mühüm yollarından biri məhz milli təhsilimizi bu gün necə quracağımızdan, təhsil sistemini necə idarə edəcəyimizdən çox asılıdır. Çünki aydın milli təhsil-tərbiyə konsepsiyası, konkret isilahat proqramı olmadan milli təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması və dünyəvi təhsil sisteminə inteqrasiyası mümkün deyildir» (4,5). Bu məqsədlə respublikamızda Boloniya prosesinə keçilməsi qərara alınmışdır. Bu prosesin əsas mahiyyəti Avropa universitetlərinin inteqrasiyası, vahid kreditləşmə və diplomların dünya səviyyəsində qarşılıqlı tanınması sisteminin yaradılmasına zəmin yaratmaqdır.

Müasir dövrdə təhsil sahəsində informasiya təminatını həyata keçirən kitabxanaların kommunikasiya sistemində olan rolu və əhəmiy-

yəti qədər artmışdır ki, kitabxanalarsız cəmiyyətin informasiya tələbatının ödənilməsi mümkün deyildir. Kitabxana elmin və mədəniyyətin inkişafında təhsil və tərbiyənin səviyyəsinin yüksəldilməsində, həmçinin insanların informasiya ilə təmin olunmasında mühüm sosial institut kimi yaxından iştirak edir və insanların ən çox müraciət etdiyi, xidmətindən istifadə etdiyi müəssisədir.

Ölkəmizdə kitabxanaların inkişafı Azərbaycan dövlətinin davamlı inkişafının mühüm strateji istiqamətlərdən birini təşkil edir. Bununla əlaqədar ölkənin sosial-iqtisadi, elmi mədəni və mənəvi həyatının bütün sahələrində olduğu kimi Təhsil Nazirliyi Kitabxanalarında da informasiya kommunikasiya texnologiyalarının tətbiqi mühüm vəzifə kimi meydana çıxır. Mahiyyətcə dinamik və daim yeniləşən informasiya-kommunikasiya texnologiyalarının tətbiqi bu gün ölkəmizdə fəaliyyət göstərən 10 mindən artıq kitabxananın elektron informasiya resurs mərkəzlərinə çevrilməsi vəzifəsini gündəmə gətirmiş və bu problemin həllini aktuallaşdırmışdır.

Respublika prezidentinin «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» 20 aprel 2007-ci il Sərəncamı (2) və "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə "Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il Sərəncamı (3) kitabxana sahəsində mövcud olan geriliyi aradan qaldırmaq və bu sahənin inkişafını təmin etmək məqsədini daşıyır.

«Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» 20 aprel 2007-ci il Sərəncamının 3-cü bəndində deyilir: «Azərbaycan Respublikasının Təhsil Nazirliyi məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsinə və müasir informasiya texnologiyaları ilə təchizatına dair tədbirlər planı hazırlayıb iki ay müddətində Azərbaycan Respublikası Prezidentinə təqdim etsin» (2). Məhz bu məqsədlə Təhsil Nazirliyi «2008-2013-cü illərdə məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsinə və müasir informasiya texnologiyaları ilə təchizatına dair tədbirlər planı»nı həyata keşirməyə, təhsilin günün tələbləri səviyyəsində inkişafı üçün ciddi işlər görməyə başlamışdır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı 2004-2008-ci illər», «Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)nda və s. sənədlərdə də kitabxana-

informasiya sahəsinin inkişafı və modernləşdirilməsi üzrə sənədlər də işdə əsas tutulmuşdur.

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra kitabxanaların, xüsusilə Təhsil Nazirliyi kitabxana sisteminin maddi-texniki bazası zənginləşmişdir. Heydər Əliyev fondunun prezidenti, YUNESKO və ISESKO-nun xoşməramlı səfiri, maarifpərvər ziyalımız Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yeni məktəb binalarının sürətli tikintisi və əsaslı təmiri məktəb quruculuğu işində yeni mərhələ hesab olunmalıdır. Məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması yeni məktəb binalarının inşasından çox asılıdır. Son illərdə ölkəmizdə 1500-dən artıq yeni məktəb binasının tikilib istifadəyə verilməsi məktəb kitabxanalarının vəziyyətini xeyli yaxşılaşdırmışdır.

Hazırda hətta ucqar kəndlərdə belə dünya standartlarına cavab verən yeni məktəblər tikilib istifadəyə verilir. Əlbəttə, bütün Təhsil Nazirliyi kitabxanalarının inkişafına güclü təkan verir, istifadəçilərin biblioqrafik informasiya təminatını yaxşılaşdırır, kitabxanalarının mütəmadi olaraq yeni kitabları əldə etməsi, xüsusilə dərslik və tədris ədəbiyyatını toplaması, kompüter texnikası və avadanlıqları ilə təchiz edilməsi biblioqrafik-informasiya tələbatının ödənilməsinə şərait yaradır.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan dilində latın qarfikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» Sərəncamına əsasən 50-dən çox adda Azərbaycan və dünya klassik və müasir ədəbiyyatı nümunələri Milli EA-nın xətti ilə nəşr edilərək Təhsil Nazirliyinin kitabxana sisteminə də pulsuz verilmiş, biblioqrafik informasiya xidmətinin həyata keçirilməsində onlardan istifadə olunur və bu proses bu gün də davam etməkdədir.

Təhsil Nazirliyi «Ümumtəhsil məktəb kitabxanası haqqında Əsasnamə» hazırlamış 08.02.2000-ci il tarixli əmri ilə təsdiq etmişdir. Təhsil Nazirliyinin təşəbbüsü ilə Dünya Bankının vəsaiti hesabına bütün elm sahələrini əhatə edən 18 cilddə 846 min nüsxə Uşaq ensiklopediyası çap olunaraq kitabxanalara göndərilmiş və tələbatçıların biblioqrafik informasiya təminatında mühüm rol oynayır.

Müasir dövrdə kitabxanalar faktiki olaraq bir sıra funksiyaları yerinə yetirir ki, hazırda onlardan ən başlıcası informasiya və təhsil funksiyası hesab edilir. Bu baxımdan informasiya sistemlərinin, informasiya daşıyıcılarının, kommunikasiya vasitəsi kimi kitabxanaların qarşısında informasiya xidmətinin elmi əsaslarla daha da təkmilləşdirilməsi vəzifəsi

durur. Uzun illərdən bəri fəaliyyət göstərən təhsil sisteminin kitabxanaları zəngin təcrübəyə malikdir. Lakin statistik rəqəmlərin təhlili göstərir ki, 4606 təhsil müəssisəsindən 685 ümumtəhsil məktəbində kitabxana yoxdur. Bu tədris müəssisələrində fəaliyyət göstərən 3921 kitabxanadan 2563-ü müvafiq tələblərə cavab versə də, 1358 kitabxana (91 şəhər, 1226 kənd məktəbləri, 41 peşə məktəb və liseylərin kitabxanaları) tələblərə cavab vermir (15).

Ümumtəhsil məktəblərinin kitabxanalarında 2852 kitabxanaçı çalışır ki, onlardan 459-u (16%) ali-ixtisas, 213-ü (7,5%) ali pedaqoji, 743-ü (26%) orta ixtisas, 1223-ü (42,9%) orta qeyri-ixtisas, 214-ü (7,6%) ümumi orta təhsillidir (15).

Son 5 ildə məktəb kitabxana fondlarının komplektləşdirilməsinə demək olar ki, vəsait ayrılmamışdır. Onların təmirə, yeni avadanlıqla təchizinə, fondların mühafizəsinə, yeni nəşrlərlə təminatına ciddi ehtiyac vardır. Əksər məktəb kitabxanalarının sahəsi azdır və orada oxu zalları təşkil etmək qeyri-mümkündür. Məktəb kitabxanalarında xidmət prosesində kitabxanalarda kompüter texnologiyasından istifadə olunmaması kitabxana-biblioqrafiya xidməti sistemində səmərəliliyin aşağı düşməsinə gətirib çıxarır. Keyfiyyətli informasiya xidmətinin olmaması, həmçinin vaxt itkisi kitabxanaların ümumi göstəricisinə mənfi təsir edir. Kitabxanalarda İnternet xidmətinin olmaması və ya aşağı olması dünya informasiya məkanından səmərəli istifadə etməyə və informasiya xidmətinin dinamik təşkilinə imkan vermir. Qeyri-ixtisas peşə sahiblərinin kitabxanalarda işləməsi işin müasir tələblərə uyğun qurulmasına mane olur. Eyni zamanda məktəbin ştat cədvəlində kitabxanaçıların texniki işçilər heyətinin tərkibinə daxil olması, məktəb pedaqoji şurasına daxil edilməməsi, əmək haqqının aşağı olması kitabxanalarda işin səmərəli təşkilinə, müasir texnologiyaları bilən bacarıqlı, savadlı mütəxəssislərin kitabxana işinə cəlb olunmasına imkan vermir.

Müasir dövrdə kitabxana-informasiya tələbatı əvvəlki illərdə olduğundan çox ciddi şəkildə fərqlənir. Birinci ona görə ki, indi onları əhatə edən informasiya daşıyıcıları və vasitələri əsaslı surətdə dəyişmiş, yeni informasiya texnologiyaları yaradılmışdır. Tələbatçıların böyük əksəriyyəti İnternet sistemlərindən çox məharətlə istifadə etməklə öz bilik və bacarıqlarını daha da zənginləşdirirlər. Müasir dövrün oxucuları informasiya yeniliklərini öyrənməyə daha çox təşəbbüs göstərən tələbatçı qurupu hesab olunur. Belə olan halda məktəb kitabxanalarında İnternet sistemlərinin yaradılması, onların kitabxana sistemlərinə

qoşulması və yeni kitabxana proqramlarından istifadə etməklə informasiya əldə etmək imkanları yaradılmalıdır.

Müstəqillik illərində pedaqoji elmlərin biblioqrafik informasiya təminatında mühüm rol oynayan biblioqrafik vəsaitlər nəşr olunmuşdur. Professor F.Rüstəmovun hazırladığı «Azərbaycan pedaqoji biblioqrafiyası: məktəb və pedaqogika tarixinə dair ədəbiyyat (1940-1990) (1995) (13) göstəricisi sahə üzrə nəşr olunmuş biblioqrafik vəsaitlərin ən dəyərlisidir. Biblioqrafik göstəricidə Azərbaycan və xarici ölkələrin pedaqogika tarixinə dair 1940-1990-cı illərdə respublikamızda aparılmış tədqiqatlar-monoqrafialar, kitab və kitabçalar, elmi məqalələr, doktorluq və namizədlik dissertasiyaları öz əksini tapmışdır. Biblioqrafik göstəricinin tərtibində bir sıra nöqsanlara da yol verilmişdir. Bölmələr daxilində sənədlərin nömrələnməməsi, kitabların məqalələrdən ayrılmaması, biblioqrafik vəsaitə yardımçı göstəricilərin verilməməsi onun elmi dəyərinə mənfi təsir göstərməyə bilməz. Lakin sahənin biblioqrafik informasiya təminatında bu vəsait mühüm rol oynayır.

Müstəqillik illərində Əhməd Seyidov, Əliheydər Həşimov, Mehdi Mehdizadə, Xəlil Fətəliyev, Hüseyn Əhmədov, Yəhya Kərimov, Əjdər Ağayev, Şəmistan Mikayılov, Vidadi Xəlilov, Nurəddin Kazımov, Zahid Qaralov, Rəfiqə Mustafayeva (11) və başqa görkəmli pedaqoqlara həsr olunmuş şəxsi elmi-köməkçi biblioqrafik göstəricilərin hazırlanması mühüm nailiyyətdir.

Hazırda Azərbaycan kitabxanalarında böyük həcmdə informasiya resursları toplanmışdır. Sosial-iqtisadi yüksəlişin tələblərinə uyğun olaraq kitabxana-biblioqrafiya ehtiyatlarının formalaşdırılması və istifadəsinin intensivləşdirilməsi problemi xüsusi aktuallıq kəsb edir. Buna görə də nəhəng informasiya ehtiyatlarına malik olan Təhsil Nazirliyi kitabxana sisteminin biblioqrafik informasiya ehtiyatlarının istifadəsinin və inkişaf tendensiyasının, onun biblioqrafik məlumat bazasının yaradılması texnologiyasının araşdırılması böyük əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra milli biblioqrafiyanın inkişafında yeni xüsusiyyətlər və istiqamətlər özünü göstərir. Bəzi obyektiv və subyektiv səbəblər üzündən keçid dövrünü hələ də başa vurmayan respublikamızda biblioqrafik fəaliyyətdə milli və bəşəri mənəvi dəyərlərə əsaslanan müəyyən müsbət nəticələrlə yanaşı, çox ciddi çatışmazlıqlar da özünü göstərməkdədir. Bu başlıca olaraq beynəlxalq biblioqrafik informasiya əlaqələrinin zəifləməsi ilə əlaqədardır. Məsələn, keçmiş (ÜIETII) Ümumittifaq Elmi və Texniki

İnformasiya İnstitutunun buraxdığı, 130 ölkədə 66 dildə çıxan elmi ədəbiyyatını əhatə edən referativ jurnalların, standartların, normativ-texniki sənədlərin ölkəmizin mühüm kitabxanaları tərəfindən alınmaması elmi-tədqiqat işçilərinin və mütəxəssislərin biblioqrafik informasiya təminatına böyük zərər vurur (6, 157).

Aparılan tədqiqatlar göstərir ki, müstəqillik illərində Respublika Elmi Pedaqoji Kitabxanasının, M.F.Axundov adına Milli Kitabxananın, Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının biblioqrafik resurslarının Azərbaycanın biblioqrafik ehtiyatları sistemində özünəməxsus yeri vardır və bu kitabxanalar pedaqoji elmlərin biblioqrafik informasiya təminatında mühüm işlər görür.

Kitabxanaların biblioqrafik məlumat bazasının yaradılması həm çap məhsullarının uçotunu və statistikasını müəyyənləşdirməyə, həm də bu resursların gələcək nəsillər üçün qorunub saxlanılmasına, onun İnternetdə yerləşdirilməsinə, milli resurslarımızın dünya resurslarına inteqrasiya olunmasına imkan verəcək. Bu bazanın tərkibində pedaqoji elmlər üzrə ədəbiyyatın əhatə olunması vacibdir.

Müstəqillik illərində M.F.Axundov adına Milli Kitabxanada, MEA MEK-də qismən ödənişli məlumat-biblioqrafiya və informasiya xidmətləri tətbiq edilməyə başlanmışdır. Yeni xidmətin əhəmiyyətli cəhəti ondan ibarətdir ki, böyük maliyyə çətinliyi ilə üzləşən kitabxanalar pullu xidmətdən əldə etdiyi vəsaitə müasir oxucu üçün mühüm əhəmiyyət kəsb edən çap məhsulları almağa sərf edirlər.

Bundan başqa, kitabxana-biblioqrafiya proseslərini avtomatlaşdırmaq və İnternet sisteminə qoşulmaq üçün kitabxanalar müasir kompüter texnikası dəstilə təchiz edilmişdir. İnternetdən istifadə oxuculara xidmət sahəsində kitabxanaların imkanlarını genişləndirmiş, zəruri informasiyanı dünyanın istənilən ölkəsindən əldə edib oxuculara çatdırmaq üçün əlverişli şərait yaratmışdır. Yeni informasiya texnologiyaları vasitəsi ilə kitabxananın filialları ilə, şöbələrlə kitabxanaların birbaşa əlaqəsinin olmasına baxmayaraq yaradılmış biblioqrafik məlumat bazası həm daxili lokal şəbəkə, həm korporativ şəbəkə, həm də İnternet yolu ilə təqdim edilə bilər ki, bu da tələbatçılar üçün əlavə axtarış azadlığı yaradır.

Qeyd etmək lazımdır ki, M.F.Axundov adına Milli Kitabxana, Azərbaycan MEA MEK, Respublika Elmi Pedaqoji Kitabxanası və başqa sahəvi kitabxanalar ölkə miqyasında kitabxana işinə həsr edilən bütün tədbirlərdə iştirak edir. Artıq bir neçə ildir ki, bu kitabxanalar Azərbaycan Açıq Cəmiyyət İnstitutunun üzvü kimi Beynəlxalq Soros Fondunun,

eləcə də Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının təşkil etdiyi bütün tədbirlərdə fəal iştirak edir.

Müstəqillik illərində Respublika Elmi Pedaqoji Kitabxanasının strukturunda dəyişikliklər aparılmış, bir sıra mühüm işlər görmüşdür. Kitabxanada «Yeni informasiya texnologiyaları» şöbəsi yaradılmışdır. Kitabxana İnternet şəbəkəsinə qoşulmuş, özünün Veb səhifəsini açmışdır (www.repk.azdata.orq). Dünya kitabxanalarına çıxmaq üçün elektron kataloq yaradılması ən vacib məsələlərdən biridir. Kitabxanada lokal kompüter şəbəkəsi yaradılmış, IRBIS-64 «Kitabxanaların Avtomatlaşdırılmış Sistemi»nin nümayiş versiyasında elektron kataloqun yaradılması işi sürətlə davam etdirilir. Şöbədə elektron informasiya daşıyıcıları toplanmışdır. Respublika Elmi Pedaqoji Kitabxanası 2002-ci ildən məlumat bazası yaratmağa başlamışdır. Baza müntəzəm olaraq təkmilləşir, sistemə daxil olan kitabxanaların dinamikası diqqət mərkəzində olur. Kitabxana yaradılmış məlumat bazası əsasında «Təhsil Nazirliyi sistemindəki ümumtəhsil məktəb kitabxanalarının fəaliyyəti» adlı X clddən ibarət məlumat kitabı hazırlamışdır. Burada respublikamızın 10 zonası və bu zonaların hətta ən ucqar ərazidə yerləşən hər bir məktəb kitabxanası haqqında da informasiya almaq olar. Bu cür vəsaitin hazırlanması istifadəçilərə bibilioqrafik informasiya xidmətinin göstərilməsində mühüm rol oynayır.

Beləliklə, Respublika Elmi Pedaqoji Kitabxanası və başqa sahəvi kitabxanalar mövcud çətinliklərə baxmayaraq, müasir dövrdə öz işini zamanın tələbləri səviyyəsinə uyğun qurmağa və fəaliyyətini bu istiqamətdə genişləndirməyə daim səy göstərir, bütün istifadəçilərin, o cümlədən pedaqoji elmlərin biblioqrafik informasiya təminatını operativ yerinə yetirmək üçün bütün vasitələrdən istifadə edirlər. REPK Təhsil Nazirliyi aparatının əməkdaşlarına, təhsil işçilərinə, tələbə və şagirdlərə, kitabxananın digər oxucularına biblioqrafik-informasiya xidməti göstərir, informasiyanın çatdırılmasında müxtəlif formalardan istifadə edir, mütəxəssislərin sorğularını operativ ödəyir, məlumat günləri, mütəxəssis günləri, biblioqrafik icmal, tematik sərgilər təşkil edir, cari və retrospektiv ədəbiyyatın göstəricilərini tərtib edir, dövri nəşrlərin kartotekasını yaradır, təhsil, pedaqogika, pedaqoji elmlərə dair göstəricilər, görkəmli pedaqoqların şəxsi göstəricilərini hazırlayır, Təhsil Nazirliyi kitabxana sisteminə metodik yardım göstərir.

Ümumiyyətlə götürdükdə isə Təhsil Nazirliyi kitabxana sisteminin fəaliyyətində bir sıra nöqsanlar vardır. Bu həm maddi texniki baza ilə

təminatda, həm də kadrların yerləşdirilməsində özünü göstərir. Bu nöqsanları aradan qaldırmaq üçün bir sıra işlər görmək lazımdır: heç olmazsa dövlət hesabına təhsil alan məzunların təyinat üzrə yerləşdirilməsi; məktəb kitabxanaçılarının təkmilləşdirmə kurslarında bilik və təcrübələrini artıra bilmək praktikasının bərpa edilməsi; məktəb kitabxanalarının yerli icra hakimiyyəti orqanlarının tabeçiliyindən alınıb payon təhsil şöbəsinə verilməsi; rayon təhsil şöbələrində ali-ixtisas təhsilli kadrlardan kitabxanaçı-metodist vəzifəsinin bərpa edilməsi; məktəb kitabxanaçılarının direktoryanı şuranın üzvlüyünə daxil edilməsi və kitabxananın problemlərinin məktəbin ümumi planına salınması; məktəb kitabxanalarının yeni informasiya texnologiyaları ilə təmin edilməsi və kitabxanalararası elektron şəbəkənin yaradılması və vahid mərkəzdə birləşdirilməsi; elektron kataloqun yaradılması üçün dövlət səviyyəsində standartlar və format qəbul edilməsi məqsədilə tədbirlərin həyata keçirilməsi; kitabxanaların kiril əlifbası ilə çap olunmuş istifadəyə yararsız ədəbiyyatdan təmizlənməsi; kitabxanaçıların profil üzrə ali və orta ixtisas təhsilli olmasına diqqətin artırılması, kitabxanaçıların yeni informasiya və kompüter texnologiyalarından istifadə vərdişlərinə yiyələnmələri üçün təlim mərkəzlərinin təşkil edilməsi və s. kimi tədbirlərin görülməsi Təhsil Nazirliyi kitabxana sistemində işin günün tələbləri baxımından qurulmasına şərait yarada bilər.

## ƏDƏBIYYAT


1. *Təhsil haqqında Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli Qanunu.-B.:Hüquq ədəbiyyatı" nəşriyyatı, 2010.-79 s.*
2. *Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // "Azərbaycan" qəz., Bakı, 2007, 21 aprel.*
3. *Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə "Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // "Pespublika" qəz., Bakı, 2008, 7 oktyabr.*
4. *Azərbaycan təhsili XXI əsrin astanasında: Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə çap olunmuşdur / Tərt. ed: R.Ağamalıyev, red.: Ə.Quliyev; Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı: Çaşıoğlu, 1998, 32 s.*

5. *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu: İnstitutun 75 illik yubileyinə həsr olunur / Elmi red.: A.Mehrabov, red.: Y.Kərimov. Bakı: TTM, 2006, 308 s.*

6. *Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi: Dərslik.- B.:BUN, 2008.-181 s.*

7. *Xələfov A.A. Cəmiyyətin informasiya təminatında kitabxanaların tarixi rolu // BDU-nun Xəbərləri: Humanitar elmlər seriyası. Bakı,1999, №4, S.221-227.*

8. *Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri // Respublika, 2002, 17 aprel.*

9. *Xələfov A.A. Müasir kitabxanların sosial funksiyaları // Kitabxanaşünasılq və biblioqrafiya: elmi, nəzəri və təcrübi jurnal. Bakı,1999, №2, S.3-32.*

10. *İsmayılov X.İ. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixi (1918-2000): Monoqrafiya. Bakı, 2000, 440 s.*

11. *İsmayılov N.İ. Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: Biblioqrafik vəsaitlərin göstəricisi / Elmi red.: Z.H.Əliyev. Bakı: Mütərcim, 2003, 111 s.*

12. *Rüstəmov F. Azərbaycanda pedaqoji elmin inkişafını şərtləndirən sosial-siyasi zəmin və tarixi qaynaqlar // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: Ali məktəblərarası elmi məqalələr məcmuəsi. Bakı, 2006, s.212-215.*

13. *Rüstəmov F. Azərbaycan pedaqoji biblioqrafiyası: Məktəb və pedaqogika tarixinə dair ədəbiyyat (1940-1990-cı illər). Bakı: ADPU, 1995, 86 s.*

14. *Rüstəmov F. Azərbaycanda pedaqoji elmin inkişaf tarixindən (1961-1980-ci illər): Pedaqoji universitet və institut tələbələri üçün dərs vəsaiti / Elmi red.: akad. H.Əhmədov. Bakı: ADPU, 1992, 137 s.*

15. *Respublika Elmi Pedaqoji Kitabxanasının 2000-2009-ci il hesabatları.*

16. *http: // www.repk.azdata.orq.*

*X.AĞAYEVA*

**БИБЛИОГРАФИЧЕСКО -ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ ОБРАЗОВАНИЯ НА СОВРЕМЕННОЕ СОСТОЯНИЯ**

***РЕЗЮМЕ***

В статье рассматриваются проблемы библиотек осуществляющих библиографическо-информационное обеспечение образования, работа проделанная РНПБ по этому направлению. В статье так же анализированы библиографические указатели по этой отрасли изданные в Азербайджане за годы независимости, дан ряд предложений и рекомендаций нацеленных на улучшение работы в области библиографическо-информационного обеспечения образования.

***Kh. AGAYEVA***

**BIBLİOGRAPHİC -İNFORMATİON PROVİSION OF EDUCATİON AT THE PRESENT STAGE**

***SUMMARY***

In article problems of libraries carrying out on bibliographic-information provision, work done by the Republican Scientific Pedagogical Library in this direction are considered. In article also analyzed bibliographic indexes on this branch published in Azerbaijan for years of independence, In the article a number of offers and recommendations aimed at improvement of work in the field of bibliographic- information support formation are also given.

**Solmaz SADIQOVA**
*Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi*

# İQTİSADİYYAT ELMİNƏ HƏSR OLUNMUŞ ÜMUMİ XARAKTERLİ BİBLİOQRAFİK İNFORMASİYA MƏNBƏLƏRİ

İqtisadiyyat sosial-siyasi elmlərin mühüm tərkib hissələrindən biri hesab olunur. İqtisadiyyat üzrə ədəbiyyatın yaranması ictimai biliklərin öyrənilməsi və təbliği ilə əlaqədar olmuşdur. Ona görə də Azərbaycanda iqtisadiyyat üzrə ədəbiyyatın nəşri və onun biblioqrafiyası XX əsrin əvvəllərindən həyata keçirilməyə başlamışdır.

Müstəqil Azərbaycan Respublikasının bazar iqtisadiyyatı sisteminə keçməsi şəraitində elmi iqtisadi biliklərə, elmi iqtisadi təfəkkürə kifayət qədər malik olmaq mühüm əhəmiyyət kəsb edir. İqtisadi ədəbiyyatın öyrənilməsində və bu sahədə yeni məlumatların operativ şəkildə mütəxəssislərə çatdırılmasında Azərbaycan milli biblioqrafiyasının mühüm qollarından biri olan iqtisadiyyat ədəbiyyatının biblioqrafiyası mühüm əhəmiyyətə malikdir.

İqtisadiyyat keçmişdə də, indi də hər bir şəxsin, ailənin, cəmiyyətin həyatında mühüm əhəmiyyət kəsb etmişdir. Bunun üçün də bu gün müstəqil Azərbaycan Respublikasında yaşayan hər bir vətəndaş ölkəmizin iqtisadiyyatını, onun keçmişini, bu gününü bilməlidir.

İqtisadiyyat-istehsal münasibətlərinin məcmusu, cəmiyyətin iqtisadi bazisidir. Tarixi mənbələrdə iqtisadiyyatın tərifi belə verilmişdir: «İstehsal münasibətlərinin məcmusu cəmiyyətin iqtisadi quruluşunu, real bazisi təşkil edir, hüquqi və siyasi üstqurum və bazis üzərində yüksəlir və müəyyən ictimai şüur formaları bu bazisə uyğun olur». İqtisadiyyat bütün digər ictimai münasibətlərin əsasını təşkil edir və cəmiyyətin inkişafında həlledici rol oynayır (10, S.379).

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev müvafiq sahəyə dair 2004-cü il 11 fevralda fərman imzalamışdır. Fərmanda deyilir: «Azərbaycan Respublikasında son on ildə həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində ölkədə makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır» (1, S.1).

İdeoloji məhdudiyyət və qadağalar nəticəsində Azərbaycan xalqının iqtisadi fikir tarixində çoxlu çətinliklər mövcud olmuşdur.

Müstəqillik qazanaraq hüquqi demokratik dövlət quruculuğunu həyata keçirdiyimiz müasir dövrdə respublika iqtisadçıları üçün yeni olan bazar təsərrüfatı problemləri ilə qarşılaşmışlar. Ona görə də cəmiyyətdəki dəyişikliklərin bu mərhələsində iqtisadi fikirlər, iqtisadi publisistika üstünlük təşkil edir. İqtisadi hadisə və proseslərin həm mütəxəssislər, həm də geniş kütlə üçün izahı ön plana keçir. Bununla əlaqədar olaraq kütləvi və iqtisadi mətbuat səhifələrində çoxlu yazılar dərc olunmuşdur.

Hazırda iqtisadi fikrin, həm də müəyyən mənada dövlətin də başlıca vəzifələri iqtisadi inkişaf modelini seçmək və bu modelin reallığa çevrilməsinə xidmət etməkdir. Bu istiqamətdə ilkin addımlar atılmış və Azərbaycan tarixi təcrübəsində sınanmış bazar iqtisadiyyatı əsasında inkişafa üstünlük verilmişdir. Respublika iqtisadçılarının və digər mütəxəssislərin birgə iştirakı və yaxından köməkliyi ilə bazar iqtisadiyyatı prinsipinə cavab verən qanunvericilik bazarı yaradılır. 1991-ci ildən sonrakı dövrdə iqtisadi mövzuda 70-dən çox qanun hazırlanıb qəbul edilmişdir. Mülkiyyət, özəlləşdirmə, fermer təsərrüfatı, sahibkarlıq fəaliyyəti, haqsız rəqabət, torpaq islahatı, banklar və bank fəaliyyəti, maliyyə və sənaye qurumları, dövlət vergi xidməti, əmək birjası, kooperasiya və s. haqqında qanunlarla münasibətlərin bazar iqtisadiyyatı prinsipləri əsasında təşəkkül tapmasının hüquqi təməli qoyulmuşdur. Bu qanunlar ilk növbədə mətbuat səhifələrində öz əksini tapmışdır. İqtisadiyyatın biblioqrafik təminatı informasiya təminatının əsas istiqamətlərindən biridir. Azərbaycan dövlətinin informasiya təminatı həmişə böyük əhəmiyyət kəsb etmişdir.

Bu gün özünün sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında həlli vacib məsələlərdən biri regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaqdan ibarətdir.

Müasir dövrdə iqtisad elminə, iqtisadçı sözünə ehtiyac hər hansı dövrdə olduğundan daha çoxdur. Bir tərəfdən dərin iqtisadi böhran, digər tərəfdən yeni iqtisadi inkişaf modelinə keçidin çətin yolları iqtisad elminin və onun nümayəndələrinin qarşısına mühüm vəzifələr qoyur.

İqtisadi biblioqrafiya sosial-siyasi elmlər kompleksinə daxildir. Sosial-siyasi elmlər kompleksinin biblioqrafik informasiya sisteminə müxtəlif məzmunlu biblioqrafik materiallar daxildir. Sosial-siyasi elmlər

kompleksinin biblioqrafik informasiya sistemi dinamikdir. Bu isə bilavasitə biblioqrafik nəşrlərin mövzu dairəsinin genişlənməsi, onların tiplərə, növlərə, oxucu və məqsəd istiqamətinə görə biblioqrafiyanın daim təkmilləşdirilmiş metodikası əsasında formalaşmasıdır. Bu proseslərin inkişafına aşağıdakı əsas amillər təsir edir: 1. Elmi Texniki Tərəqqinin təsiri nəticəsində insan fəaliyyətinin bütün sahələrində dərin dəyişikliklərin baş verməsi; 2. Sosial-iqtisadi elmlər kompleksinin sənəd axını; 3. Sosial-iqtisadi fəaliyyət sahəsinin daha da formalaşması; 4. İqtisadiyyatın informasiya istifadəçiləri; 5. İqtisadi biblioqrafiyanın nəzəri və metodiki məsələləri ümumilikdə; 6. İqtisadiyyat, hüquq və sosiologiya üzrə dövlət siyasəti; 7. Yeni informasiya texnologiyasının tətbiqi; 8. İqtisadiyyat sahəsi üzrə ölkədə fəaliyyət göstərən idarə və müəssisələr.

İqtisadi elmlər ictimai-siyasi xarakter daşımaqla öz növbəsində təbii və texniki elmlərlə əlaqədardır. İqtisadi elmlərin bu qayda üzrə öyrənilməsi kitabxanaçı-biblioqrafların işini mürəkkəbləşdirir. Ona görə də iqtisadi ədəbiyyatın kitabxana-biblioqrafiya təsnifatına əsasən təsnifləşdirilib qruplaşdırılması lazım gəlir. Beləliklə, iqtisadi ədəbiyyatın böyük əhəmiyyəti vardır.

Müstəqillik şəraitində iqtisadi ədəbiyyat başqa respublikalarda olduğu kimi, Azərbaycanda da iqtisadi əlaqələrin yaranmasına və əlaqələrin öyrənilməsinə kömək edir.

Məlumdur ki, 1925-ci ildə respublikamızda Dövlət Kitab Palatası təşkil olunmuş və onun biblioqrafik nəşrləri olan «Salnamə»lər nəşr olunmağa başlamışdır. «Azərbaycan mətbuat salnaməsi»ndə, «Birillik Azərbaycan kitabiyyatı»nda başqa elmlərlə yanaşı, iqtisadiyyat üzrə ədəbiyyatın cari biblioqrafik mənbələri verilmişdir.

Salnamələrin «İqtisadiyyat. İqtisadi elmlər» adlanan bölməsi iqtisadiyyat üzrə ədəbiyyatın öyrənilməsində oxucular üçün istiqamət verir. Daxildə bu əsas bölmə müxtəlif yarımbölmələrə ayrılmışdır. Məsələn, «Siyasi iqtisad», «Maliyyə», «Pul dövriyyəsi», «Kredit», «İctimai sığorta» adlanan bölmələr verilmişdir. Bu dövrdə iqtisadiyyatın biblioqrafiyasının yaradılmasına təşəbbüs göstərilmişdir.

İqtisadiyyat sahəsində elmi fikrin yaranması da keçən əsrin əvvəllərində özünü göstərmişdir. Belə ki, kitabxana işinə dair bir neçə kitabın müəllifi kimi tanınmış Əli Əjdər Səidzadə 1922-ci ildə çap etdirdiyi məqalələrinin birində yazmışdı: «Azərbaycanda çıxmış bütün ədəbiyyatın bir ümumi biblioqrafiyasını düzəltmək işinin tam vaxtıdır»

(11, S.76). Ə. Səidzadənin ilk dəfə olaraq bu çağırışına qoşulan alim, biblioqraf A. Baqri olmuşdur.

A.Baqri «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti»nin kitabxanasında biblioqrafiya bürosuna rəhbərlik etmişdir (9, S.102). Azərbaycanın xalq təsərrüfatına, etnoqrafiyasına, tibb elminə, şifahi xalq ədəbiyyatına, tarixinə, coğrafiyasına və eləcə də iqtisadiyyatına aid ədəbiyyatın ilk dəfə olaraq toplanması və biblioqrafiyalaşdırılması A. Baqrinin adı ilə bağlıdır. Professor A.Baqri Azərbaycan iqtisadiyyatına aid ədəbiyyatın biblioqrafiyasını yaratmaq üçün keçən əsrin əvvəllərində çap olunmuş qəzet və jurnalları araşdırmış, Azərbaycan iqtisadiyyatına dair materialları toplayıb, həmin materiallar əsasında «Biblioqrafiya: Azərbaycan iqtisadiyyatı üçün materiallar» mövzusunda tərtib etdiyi elmi-köməkçi biblioqrafiyanı «Ali iqtisad şurasının əxbarı» jurnalında 1924-cü il 8-9, 10-11 və 12-13-cü nömrələrində hissə-hissə çap etdirmişdir. Materialların davamı jurnalın 1925-ci il 1-2-ci nömrələrində çap edilmişdir.

Biblioqraf alim F.Bayramovun qeyd etdiyi kimi, biblioqrafik göstəricinin əvvəlində verilmiş «Giriş»dən məlum olur ki, belə bir biblioqrafiyanın yaradılmasına ehtiyac duyulmuşdur (8, S.28-29). Belə ki, orada qeyd edilmişdir ki, Azərbaycana dair biblioqrafik əsərlər olmadığından onun öyrənilməsi də çətinləşir. Jurnalda verilmiş qısa izahatdan məlum olur ki, Azərbaycan haqqında olan materialların toplanması işinə alimlər və ayrı-ayrı müvafiq təşkilatlar da cəlb edilmişdir. Jurnalın giriş hissəsindən sonra Azərbaycan iqtisadiyyatına dair 1134 ədəbiyyatın təsviri verilmişdir.

Burada birinci olaraq N.A.Belovun 1887-ci ildə Tiflis şəhərində çap olunmuş «İssledovaniə gkonomiçeskoqo bıta qosudarstvennıx krestğən v Qeoqçayskom i Şemaxinskom uezdax Bakinskoy qubernii» adlı kitabın təsviri verilmişdir. Bu onu göstərir ki, hələ XIX əsrdə qeyri millətdən olan mütəxəssislər, elm adamları Azərbaycan iqtisadiyyatı ilə maraqlanmış və bu sahədə kitablar, məqalələr yazıb çap etdirmişlər.

A.Baqri materialların sistemləşdirilməsində əlifba qaydasına tam əməl etsə də, mənbələrin təsvirində təsvir ünsürlərinin indiki qaydada verilmədiyi müşahidə olunmuşdur (9, S.103.). Lakin bunu o dövr üçün müqayisədə müəllifə əsas nöqsan kimi irad tutmaq düzgün olmaz. Ona görə ki, kitabxana-biblioqrafiya təsnifatına aid vəsaitlər o zaman yox dərəcəsində idi. Buna baxmayaraq, A.Baqrinin bu sahədə müəyyən təcrübəyə malik olduğu, tərtib etdiyi «Biblioqrafiya»dan hiss olunur.

Biblioqrafik göstəricidə Səməd Ağamalıoğlunun 1919-1920-ci illərdə çap etdirdiyi xeyli miqdarda məqalələr A.Baqri tərəfindən toplanaraq buraya daxil edilmişdir. Bundan başqa burada «İskra», «Novoe obozrenie», «Kavkaz», «Jizně Kavkaza», «Russkiy vestnik», «Sın oteçestva» və digər adda müxtəlif istiqamətli qəzet və jurnallarda Azərbaycan iqtisadiyyatına dair çap olunmuş çox zəngin materiallar vardır.

Biblioqrafik mənbənin əhəmiyyətli cəhətlərindən biri də onunla əlaqədardır ki, XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycan iqtisadiyyatına aid yaranan ədəbiyyatın mənbələrinin öyrənilməsi üçün ikinci belə biblioqrafik göstərici yaradılmamışdır. Ona görə də Azərbaycan iqtisadiyyatına həsr olunmuş biblioqrafik göstərici müasir oxucular üçün çox əhəmiyyətli biblioqrafik mənbə hesab olunur. 474 adda ədəbiyyatın sıra nömrəsi ilə verilməsi oxucular üçün əhəmiyyətlidir. Vaxt itirmədən ədəbiyyatın ümumi miqdarı haqqında məlumatı oxuculara çatdırır, həm də mənbələrə sıra nömrələrinin verilməsi ayrı-ayrı müəlliflərin məqalələrinin ümumi miqdarını daha tez müəyyənləşdirilməsini asanlaşdırır. Bu cəhətdən A.Baqrinin çap etdirdiyi «Biblioqrafiya» oxucuların informasiya təminatında mühüm biblioqrafik mənbə hesab olunur. Bunu «Biblioqrafiya»dan istifadə edən oxucuların qeyd etdikləri müxtəlif işarələrlə izah etmək olar (9, S.104).

Azərbaycanda iqtisadiyyat üzrə ədəbiyyatın biblioqrafiyası 1970-ci ildən sonra təşkil olunmağa başladı. Bu sahədə Azərbaycan Milli Elmlər Akademiyası MEK-nın fəaliyyəti təqdirəlayiqdir. Kitabxana həmin ildən sonra yerli nəşrlərin biblioqrafik göstəricisini hazırlayıb çap etdirməyə başlamışdır. Göstərici Azərbaycan və rus dilində çap edilmişdir: «Biblioqrafiçeskiy spisok novıx oteçestvennıx kniq», «Yeni kitabların biblioqrafik siyahısı» adı ilə çap edilmişdir. Hər iki göstəricinin nəşrlərində «İqtisadiyyat. İqtisadi elmlər» adlanan bölmə öz əksini tapmışdır.

Azərbaycanda iqtisadiyyat üzrə ədəbiyyatın yeni nəşrləri haqqında elmi işçilərə məlumat verilməsində Elmi-məlumat mərkəzinin fəaliyyəti də çox olmuşdur. Mərkəz tərəfindən «Azərbaycanda ictimai elmlər üzrə çap olunmuş ədəbiyyat» adlı göstərici 1990-cı ildən sonra nəşr edilməyə başlamışdır. Göstəricidə iqtisadiyyat üzrə çap olunmuş kitablar xüsusi bölmə üzrə sistemləşdirilib təsvir edilmişdir. Göstəricidə kitab və dövri mətbuat materialları da əks etdirilmişdir. Göstəricinin daxilində

«Azərbaycan dilində», «Rus dilində» adlanan bölmələr informasiya istifadəçiləri üçün çox əhəmiyyətlidir.

Göstəricidə iqtisadiyyat üzrə ədəbiyyat iqtisadiyyatın sahələri üzrə qruplaşdırılıb təsvir edilmişdir. «İqtisadiyyat» adlanan bölmə, «Ümumi məsələlər», «Xalq təsərrüfatının idarə olunması», «İqtisadi rayonlaşdırma», «Sənaye iqtisadiyyatı», «Əmək» və s. kimi bölmələr verilmişdir.

Cari mənbələrlə yanaşı, keçmiş illərdə iqtisadiyyat üzrə ədəbiyyatı özündə əks etdirən ümumi xarakterli biblioqrafik göstəricilər də vardır. 1920-ci ildən sonra respublikamızda iqtisadiyyata aid çap olunmuş kitablar «Azərbaycan kitabı»nın ikinci cildinin birinci kitabında öz əksini tapmışdır (4, S.140-150). Göstəricinin VII bölməsində «Siyasi-iqtisadi nəzəriyyələr tarixi» adlanan bölmədə 28 ədəbiyyatın təsviri verilmişdir. Göstəricidən istifadəni asanlaşdırmaq üçün «Fərdi müəlliflərin əlifba göstəricisi» və «Müəllifsiz kitabların əlifba göstəricisi» kimi köməkçi aparat onun informasiya dəyərini daha da artırmış olur.

Azərbaycan dilində iqtisadiyyata aid çap olunmuş ədəbiyyatı Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının ümumi xarakterli biblioqrafik nəşrlərindən də öyrənmək olar (5). 1960-cı ildən sonra AMEA MEK Akademiya nəşrlərinin ümumi xarakterli elmi-köməkçi biblioqrafik göstəricisini hazırlayıb çap etdirmişdir. 1923-45-ci illəri əhatə edən «Azərbaycan EA nəşrlərinin biblioqrafiyası» 1984-cü ildə «Elm» nəşriyyatında çap olunmuşdur. Biblioqrafik göstəricinin 236-cı səhifəsində «İqtisadiyyat» bölməsi verilmişdir.

Biblioqrafik göstəricinin ayrı-ayrı illərdə çap olunmuş nəşrlərinə iqtisadiyyat üzrə də ədəbiyyat daxil edilmişdir. Göstəricinin 1945-1959-cu illəri əhatə edən nəşrində «İqtisadiyyat, statistika, iqtisadi coğrafiya» adlanan bölmə öz əksini tapmışdır. Göstəricinin əhatə etdiyi dövr ərzində iqtisadiyyat üzrə çap edilmiş 161 kitab və jurnal məqalələri toplanıb göstəriciyə daxil edilmişdir. Akademiyanın nəşrlərinin biblioqrafiyası sonrakı illərdə «illik» formasında çap olunmuşdur. «İllik» nəşrlərində iqtisadi ədəbiyyat «İqtisadiyyat İnstitutu» adı ilə verilmiş bölmə daxilində düzülüb təsvir edilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Elmlər Akademiyasının nəşrlərinin biblioqrafiyasında daha bir göstərici müvafiq sahəni əks etdirir (6). Azərbaycan EA-nın nəşrlərinin biblioqrafiyasının 1960-1965-ci illər arasındakı dövrü əhatə edən 3-cü cildin 6-cı kitabında iqtisadiyyat üzrə AMEA-nın «Elm» nəşriyyatında Azərbaycan və rus dillərində nəşr olunan monoqrafiyalar, məqalələr, dövri mətbuat

materialları və s. çap məhsulatı daxil edilmişdir. Göstəricidə Azərbaycan dilində nəşr olunan ədəbiyyatın rus dilinə tərcüməsi verilmişdir. Biblioqrafik göstəricidə materiallar tarix və iqtisadiyyat, eləcə də fəlsəfə və hüquq elmlərinin müxtəlif sahələri üzrə təsnifləşdirilmiş, hər bölmə daxilində isə müəlliflərin əlifba sırasına riayət edilmişdir. Təhlil zamanı məlum olmuşdur ki, iqtisadiyyat üzrə 279 adda ədəbiyyatın biblioqrafik təsviri verilmişdir ki, bunlardan da 87 adda Azərbaycan dilində, 182 adda rus dilində olan ədəbiyyatdır (6, S.139-179).

Biblioqrafik göstəricinin axtarış imkanlarını artırmaq üçün «Müəlliflərin əlifba göstəricisi» verilmişdir. Vəsait iqtisadi ədəbiyyatın bu dövrdə nəşrini izləmək, iqtisadçı alimlərin, informasiya tələbatçılarının sorğularını ödəmək baxımından çox faydalı mənbədir.

İqtisadiyyata dair ümumi xarakterli mənbələrdən biri də ADU alimlərinin elmi əsərləri çap olunmuş mənbədir (2, S.300-309).

Biblioqrafik göstəricidə 1969-1978-ci illər ərzində humanitar və ictimai elmlər üzrə ədəbiyyat öz əksini tapmışdır. 1982-ci ildə çap olunmuş bu vəsaitdə 91 adda Azərbaycan və rus dilində olan ədəbiyyat «Siyasi iqtisad kafedrası» bölməsində verilmişdir. 68 adda Azərbaycan dilində, 23 adda rus dilində olan iqtisadiyyat ədəbiyyatı verilmişdir.

ADU-nun digər biblioqrafik göstəricisində də bu sahəyə həsr olunmuş ədəbiyyat verilmişdir (3, S.23-31). «ADU-nun dövri və nəşri davam edən əsərləri 1921-1962-ci illər: Elmi işlərin sistematik göstəricisi» adlanan biblioqrafik göstərici 1964-cü ildə nəşr olunmuşdur. Biblioqrafik göstəricidə 69 adda Azərbaycan və rus dilində olan ədəbiyyat verilmişdir. Bu sahəyə dair ədəbiyyat «Gkonomiçeskie nauki i gkonomika» adlanan III bölmədə verilmişdir. Biblioqrafik vəsait iqtisadiyyat sahəsinin müəllimləri, tələbələri və ümumiyyətlə, bu sahənin oxucuları üçün faydalıdır.

İqtisadiyyata dair ədəbiyyatın ümumi biblioqrafik mənbələrdə tədqiqi göstərdi ki, bu mənbələr mühüm əhəmiyyət kəsb edir və kitabxanalarda biblioqrafik xidmətin təşkilində əlverişli vasitədir.

# ƏDƏBİYYAT

*1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan. – 2004. – 12 fevral. – S.1.*

*2. ADU alimlərinin elmi əsərləri (1969-1978-ci illər): H. 1. Humanitar və ictimai elmlər üzrə / Tərt. ed.: K.Həsənov. – B.: Azərnəşr, 1982. – S. 300 – 309*

*3. ADU-nun dövri və nəşri davam edən əsərləri 1921-1962-ci illər: Elmi işlərin sistematik göstəricisi / Tərt. ed. V.M. Rüstəmbəyli. – B.: ADU, 1964. – S.23-31*

*4. Azərbaycan kitabı: Biblioqrafik göstərici: 3 cilddə: C. 2. kit. 1. (1920-1940) / Tərt. ed. V. Mirzəyeva, M.Ə. Zabalova, N.A. İsmayılova / Azərbaycan Dövlət Kitab Palatası. – B.: Yazıçı, 1982.-S.140-150.*

*5. Azərbaycan SSR Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası: 1923-1945-ci illər) / Tərt. ed.: T.D.Sadıxova, M.T. İbrahimova, D.T. Məhərrəmli; Məs. Red. M.M.Həsənova; Red.: N.M.Teymurova: Azərb. EA MEK.- B.: Elm.-1984. – 319s.*

*6. Azərbaycan SSR Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası. III cild (1960-1965) VI kitab: Tarix, İqtisadiyyat. Fəlsəfə və hüquq elmləri / Tərt. ed. T.D. Əhmədova; Red. Z.V. Mustafayeva, Z.S. Markina. – B.: Elm, 1984. – 201s.*

*7. Baqri A. Biblioqrafiya. Azərbaycan iqtisadiyyatı üçün materiallar // Ali iqtisad şurasının əxbarı. – 1924. - № 8-9, 10-11, 12-13; 1925.- № 1-2.*

*8. Bayramov F. Azərbaycan iqtisadiyyatının biblioqrafiyası // A.V.Baqri tərəfindən «Azərbaycan iqtisadiyyatına dair materiallar» mövzusunda tərtib olunan biblioqrafiya haqqında // Ziya. – 1992. - № 1.-S.28-29.*

*9. Bayramov F. A.Baqri və Azərbaycan iqtisadiyyatının biblioqrafiyası // Kitabxanaşünaslıq və biblioqrafiya. – 2000. -№ 1. – S.99-105.*

*10. İqtisadiyyat // ASE. C.4. – B.: ASE,1980.- S.379.*

*11. Səidzadə Ə.Ə. Kitabiyyat təşkilatı: quruluşu və islahatın elmiyyə məsələsinin geniş müzakirəsi // Qızıl Şərq. – 1922. - № 1. – S. 76.*

*С. САДЫГОВА*

# БИБЛИОГРАФИЧЕСКИЕ ИНФОРМАЦИОННЫЕ ИСТОЧНИКИ ОБЩЕГО ХАРАКТЕРА ПОСВЯЩЕННЫЕ ЭКОНОМИЧЕСКОЙ НАУКЕ


## *РЕЗЮМЕ*

В статье рассказывается о библиографических информационных источниках общего характера посвященные экономической науке, которые составляют самую важную область социально-политических наук. Анализируется библиографические источники экономической литературы, который является одним из особых притоков Азербайджанской национальной библиографии в изучении экономической литературы, в доведении их специалистам. Также отмечается их важная роль в организации библиографиического обслуживания.


*S. SADIGOVA*

# BIBLIOGRAPHIC INFORMATION SOURCES ON THE GENERAL NATURE DEDICATED TO ECONOMIC SCIENCE


## SUMMARY

The article tells about the sources of bibliographic information of a general nature on economic science, which constitute the most important area of social and political sciences. We analyze the bibliographic sources of economic literature, which is one of the special tributaries of the Azerbaijan national bibliography in the study of the economic literature, bringing them to specialists. It is also noted their important role in the organization of bibliographic services.

**Sima İSMAYILOVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi***

## AZƏRBAYCANDA UŞAQ VƏ GƏNCLƏR ÜÇÜN ƏDƏBİYYATIN BİBLİOQRAFİK NƏŞRLƏRİNİN YARANMASI VƏ İNKİŞAFI

Respublikamızda uşaq və gənclər üçün ədəbiyyatın biblioqrafiyasının inkişafının özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır. Bu da ilk növbədə müxtəlif yaşlı uşaqların mütaliəsinə rəhbərliklə, həmçinin? mütaliəyə rəhbərlik edənlərin uşaq və gənclər ədəbiyyatına olan biblioqrafik tələbatı ilə əlaqədardır.

Azərbaycanda uşaq ədəbiyyatı biblioqrafiyasının yaranması, uşaqlar üçün ədəbi-bədii əsərlərin, həmçinin, elmi-fantastik və idrak ədəbiyyatının yaranması ilə əlaqədar olmuşdur. Uşaq ədəbiyyatını özündə əks etdirən ümumi və sahəvi biblioqrafik mənbələri bilmədən uşaq ədəbiyyatı ilə maraqlanan müəllimlərin, müxtəlif yaşlı uşaqların və başqa oxucu qruplarının sorğularına lazımi qaydada cavab vermək mümkün deyil. Bu mənbələrlə yanaşı, ümumi xarakterli biblioqrafik vəsaitlərin də öyrənilməsi vacibdir. Ümumi xarakterli biblioqrafik vəsait dedikdə, uşaq ədəbiyyatı ilə yanaşı, müxtəlif elm sahələri üzrə ədəbiyyatı özündə əks etdirən biblioqrafik mənbələr nəzərdə tutulur.

Uşaq ədəbiyyatını da özündə əks etdirən ümumi xarakterli biblioqrafik mənbələrdən bəhs edərkən ilk əvvəl zəngin informasiya mənbəyi olan iki cildlik "Azərbaycan kitabı" adlı biblioqrafik vəsaitin adını çəkmək lazımdır. "Azərbaycan kitabı"nın I və II cildləri öz daxili quruluşuna, tərtibat metodikasına və materialların sistemləşdirilməsinə görə bir-birindən fərqlənir. Fərqli tərtibat xüsusiyyətlərinə baxmayaraq hər iki göstəricidə uşaq ədəbiyyatına dair materialların biblioqrafik təsviri verilmişdir.

"Azərbaycan kitabı"nın I cildində lazımi sorğu üzrə uşaq ədəbiyyatına dair materialların axtarılmasında vəsaitin zəngin köməkçi aparatı mühüm rol oynayır. Əgər I cild 1780-1920-ci illəri əhatə edirsə, II cild 1920-1940-cı illərdə nəşr edilmiş ədəbiyyatı özündə əks etdirmişdir. Göründüyü kimi, I cild uzun tarixi dövrü xronoloji ardıcıllıqla, II cild isə elm sahələrinə görə, müəlliflərin əlifba sırası ilə materialları əks etdirir.

“Azərbaycan kitabı”nın birinci cildindən uşaq ədəbiyyatına dair materialları “Mövzu”, “Sərlövhələrin”, ”Təxəllüslərin” köməkçi göstəriciləri vasitəsilə aşkara çıxarmaq mümkündür. Vəsaitin I cildindən fərqli olaraq II cildində uşaq ədəbiyyatına dair materiallar xüsusi “Uşaq ədəbiyyatı” bölməsində müəlliflərin əlifba sırası ilə qruplaşdırılmışdır. Bu bölmə daxilində uşaq ədəbiyyatına dair cəmi 59 ədəbiyyatın biblioqrafik təsviri verilmişdir (3).

Uşaq ədəbiyyatına dair materialları özündə əks etdirən ümumi xarakterli mənbələrdən biri də AMEA-nın MEK-i tərəfindən tərtib edilmiş “Azərbaycan EA nəşrlərinin biblioqrafiyası” adlı vəsaitdir. Bu biblioqrafik göstərici ümumi xarakterli biblioqrafik mənbə olmaqla Akademiyanın nəzdində olan elmi-tədqiqat institutlarının nəşrlərini əks etdirmişdir.Vəsaitdə uşaq ədəbiyyatına dair materiallar Nizami adına Ədəbiyyat İnstitutunun elmi əməkdaşlarının fəaliyyətinin nəticəsi olaraq verilmişdir. Uşaq yazıçı və şairlərinin əsərlərinin elmi tədqiqatlarının, dərslik və tədris ədəbiyyatının nəşrində bu institutun xidmətləri böyük olmuşdur. “Akademiya nəşrlərinin biblioqrafiyası”nda ayrı-ayrı elm sahələri ilə yanaşı , “bədii ədəbiyyat və ədəbiyyatşünaslıq” üzrə xüsusi bölmə verilmişdir. Bölmə daxilində uşaq ədəbiyyatına dair müvafiq mövzular üzrə axtarış aparmaq mümkündür (4).

Respublikada uşaq ədəbiyyatı biblioqrafiyasının təşkili və inkişafında elmi müəssisələrin, kitabxanaların, müvafiq nazirliklərin fəaliyyəti diqqəti cəlb edir. İlk nümunə kimi uşaq ədəbiyyatına dair tövsiyə xarakterli biblioqrafik vəsaitlərin yaranması keçmiş Şvars adına kitabxana, sonradan Puşkin adlanan bu kitabxana uşaq ədəbiyyatına dair biblioqrafik vəsaitlərin yaradılması sahəsində ilk addım atmışdır. Bu kitabxana uşaqların və eləcə də uşaqların mütaliəsinə rəhbərlik edən valideynlərə köməklik məqsədilə 1936-cı ildə “Balalarımız nə oxumalıdırlar?”, “Valideynlər nə oxumalıdırlar?” mövzusunda iki biblioqrafik göstərici tərtib edib nəşr etdirmişdir. Rus dilində çap edilmiş bu biblioqrafik göstəricilər tövsiyə xarakterli olmaqla həm uşaqlar, həm də valideynlər üçün ədəbiyyatın təbliğ olunmasında mühüm vasitə olmuşdur.

Azərbaycanda uşaq ədəbiyyatı biblioqrafiyasının yaradılmasında Azərbaycan XMK-nın 1930-cu ildən sonra Elmi-Tədqiqat Məktəbəqədər İnstitutun fəaliyyəti böyük olmuşdur. İnstitut tərəfindən ilk nümunə kimi “Uşaq ədəbiyyatı” mövzusunda biblioqrafik göstərici çap olunmuşdur. Bu biblioqrafik göstərici Maarif Komissarlığı tərəfindən çap etdirilərək müxtəlif yaşlı şagirdlərin mütaliəsinə rəhbərlik məqsədilə lazımi

ədəbiyyatın seçilməsi və bu vəsait vasitəsilə uşaqlara çatdırılması mühüm tədbirlərdən biri olmuşdur.

Respublikamızda uşaq ədəbiyyatı biblioqrafiyasının yaradılmasının ilk nümunələrindən danışarkən Respublika Mədəniyyət Nazirliyinin Mədəni-Maarif İşçilərinin Metod Kabinəsi tərəfindən tərtib olunmuş "Kataloq" nümunəsini də qeyd etmək lazımdır. Metod Kabinə plana görə 1949-cu ilə qədər çap olunmuş uşaq ədəbiyyatının kataloqunu yaratmağa səy göstərmişdir. Kataloqun üç buraxılışı xüsusi olaraq uşaq ədəbiyyatına həsr olunmuşdur. 1949-cu ildə kataloqun III buraxılışı çap edilmişdir. Bu buraxılışda ədəbiyyat aşağıdakı əsas və yarım bölmə üzrə şöbələrdə təsvir edilmişdir. Kataloqun əsas I bölməsi məktəbəqədər uşaqlar üçün ədəbiyyat, II əsas bölmə məktəb yaşlı uşaqlar üçün ədəbiyyat adı ilə nəşr edilmişdir. Bu bölmələr də öz növbəsində yarımbölmələrə ayrılmışdır. Birinci yarımbölmədə uşaq ədəbiyyatı, Azərbaycan uşaq ədəbiyyatı, rus və başqa xalqların uşaq ədəbiyyatı, xarici ölkələrin uşaq ədəbiyyatından tərcümə nəşrləri verilmişdir.

Bu yarımbölmələrlə yanaşı, uşaq ədəbiyyatı kataloqda uşaqların yaş dərəcələrinə görə seçilmişdir. Məsələn, I və IV sinif şagirdləri üçün ədəbiyyat; V–VIII sinif şagirdləri üçün ədəbiyyat. Azərbaycan uşaq ədəbiyyatının təbliği və öyrənilməsi baxımından kataloqun o dövrdə çox böyük rolu olmuşdur.

Respublikamızda uşaq ədəbiyyatı biblioqrafiyasının əsl inkişafı Böyük Vətən müharibəsindən sonrakı illərə təsadüf edir. Müharibədən sonra Azərbaycan ədəbiyyatı biblioqrafiyasının yaranıb inkişaf etməsində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fəaliyyəti çox böyük olmuşdur. Azərbaycan ədəbiyyatı biblioqrafiyasının mühüm bir istiqamətini təşkil edən uşaq ədəbiyyatına dair ilk biblioqrafik vəsaitlər də məhz bu kitabxana tərəfindən nəşr edilmişdir.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən 1956-cı ildə görkəmli yazıçı, Azərbaycanda uşaq ədəbiyyatının yaradıcısı hesab edilən Abdulla Şaiq haqqında Ş.M.Əfəndiyeva və M.N.Meylmanın tərtib etdikləri tövsiyə xarakterli biblioqrafik göstərici nəşr olunmuşdur (1).

Biblioqrafik göstəricidə A.Şaiqin 1940-cı ildən sonra kitab halında çap olunmuş əsərlərinin biblioqrafik təsviri verilmişdir. Göstəricinin "Əsərləri" adlanan bölməsində müəllifin 21 əsərinin təsviri verilmişdir. Burada yazıçının "Seçilmiş əsərləri"nin müxtəlif illərdə olan nəşrləri göstərilməklə, həmin nəşrlərə daxil edilmiş əsərlər də vəsaitdə qeyd

edilmişdir. Bundan başqa biblioqrafik göstəricidə A.Şaiqin kitab halında çap olunmuş əsərləri ilə bərabər dövri mətbuatda dərc edilmiş əsərləri də təsvir edilmişdir.

Biblioqrafik göstəricinin "Abdulla Şaiqin həyat və yaradıcılığı haqqında" bölməsində yazıçıya həsr edilmiş bir sıra mühüm məqalələrin təsviri verilmişdir.

Məlum olduğu kimi, A.Şaiq geniş yaradıcılığa malik yazıçı olmaqla bərabər, həm də maarif sahəsində də çox böyük xidmətləri olmuşdur. Belə sənətkar haqqında cəmi 9 səhifəlik yaddaş onun yaradıcılığı haqqında oxuculara biblioqrafik cəhətdən çox az məlumat verə bilər.

Müxtəlif yaşlı uşaqlar üçün çap edilmiş ədəbiyyatın təbliğində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən tərtib edilmiş metodik-biblioqrafik vəsaitlərin də əhəmiyyəti böyük olmuşdur. Çünki belə biblioqrafik vəsaitlər vasitəsilə uşaq kitabxanaları tərəfindən həyata keçirilən kütləvi tədbirlərdə müvafiq ədəbiyyatlar seçilib tövsiyə olunmuşdur. Bu məqsədlə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən 1962-ci ildə S.Rzayevin "Uşaqları beynəlxalq müdafiə günü" (8) mövzusunda tərtib etdiyi metodik - biblioqrafik vəsait çap edilmişdir.

Respublika Dövlət Uşaq Kitabxanası təşkil olunana qədər uşaq kitabxanaları üçün belə vəsaitlər çox az miqdarda yarana bilmişdir. Ona görə də bu vəsait həmin illərdə yaranan ilk nümunələrdən olmaqla, uşaq kitabxanalarına metodikköməklik üçün əhəmiyyətli vəsait hesab olunurdu. Müəllif vəsaitdə uşaqları beynəlxalq müdafiə günü münasibətilə uşaq kitabxanalarında, klublarda və mədəniyyət evlərində bu mühüm əlamətdar tarixi günə aid kütləvi tədbirlərin planını verməklə yanaşı, həmin tədbirlərdə nümayiş etdiriləcək mühüm ədəbiyyatların biblioqrafik siyahısını da vermişdir.

Respublikamızda uşaq ədəbiyyatının tövsiyə biblioqrafiyası Firudin Bəy Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanası təşkil olunmasından sonra (1965) öz müstəqil inkişaf yolunu tapa bilmişdir. Müasir dövrdə də Respublika Uşaq Kitabxanası uşaq ədəbiyyatının tövsiyə biblioqrafiyasının mərkəzi hesab olunur. Kitabxana fəaliyyətə başladıqdan sonra onun biblioqrafik fəaliyyəti genişlənmiş və müxtəlif yaşlı məktəblilər üçün tövsiyə vəsaitləri buraxmağa başlamışdır.

Müxtəlif yaş dərəcəsinə malik olan şagirdlərin sinifdənxaric mütaliəsinə rəhbərlikdə tövsiyə biblioqrafik vəsaitlərin əhəmiyyəti olduqca böyük olmuşdur.

Kitabxana tərəfindən 1967-ci ildə çap olunmuş “Çto çitat letom” adlı tövsiyə biblioqrafik göstərici II-III sinif şagirdləri üçün nəzərdə tutulmuşdur. Göstəricidə tövsiyə olunan ədəbiyyat şagirdlərin yaş dərəcələrinə görə qruplaşdırılmışdır. Biblioqrafik göstəriciyə 1960-cı ildən sonra müxtəlif nəşriyyatlar tərəfindən uşaqlar qçün çap olunmuş 450-yə qədər ən mühüm kitablar daxil edilmişdir.

Respublika Uşaq Kitabxanası tərəfindən oxucular üçün yaddaşlar da çap olunmuşdur ki, şagirdlər yaddaş vasitəsilə şair və yazıçıların həyat və yaradıcılıqlarına dair müxtəlif məlumatları öyrənməklə yanaşı, onların əsərlərinin son nəşrləri ilə də tanış olurlar. Kitabxana tərəfindən çap olunmuş yaddaşlardan biri Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Süleyman Sani Axundova həsr olunmuşdur.

Yaddaşın giriş hissəsində yazıçının ilk əsərləri haqqında oxuculara məlumat verilmişdir. Yaddaşda S.S.Axundovun uşaqlar üçün yazdığı “Qaraca qız” (1966), “Mister Qreyin köpəyi” (1959), “Nurəddin” (1963) kimi əsərlərini təsviri verilməklə, həmin əsərlərin məzmunu ilə uşaqları tanış etmək üçün hər bir əsərə qısa annotasiya verilmişdir. Sonra yaddaşda yazıçının əsərlərinin son nəşrlərindən nümunələr göstərilmişdir (10).

Respublika Uşaq Kitabxanası tərəfindən Akif Əsədullayevin tərtib etdiyi “Azərbaycan uşaq ədəbiyyatı” adlı annotasiyalı tövsiyə biblioqrafik göstərici uşaq ədəbiyyatına həsr edilmiş mükəmməl bir vəsaitdir (7).

Uşaq ədəbiyyatı gənc nəslin tərbiyəsi məsələsi ilə ayrılmaz surətdə bağlıdır. Bu ədəbiyyat uşaqlarda gözəl hisslər tərbiyə edir. Kiçik yaşlarından vətənə, xalqa məhəbbət, əməyə, biliyə həvəs oyadır, həyatı sevdirir, uşaqları fəallaşdırır, mübariz, xeyirxah, cəsarətli və dözümlü olmağa çağırır. Uşaqlar bədii ədəbiyyat vasitəsilə keçmişi, bugünkü həyatımızı və inkişafımızı bədii şəkildə öyrənirlər.

Biblioqrafik göstəricidə 1950-1968-ci illərdə uşaq ədəbiyyatı üzrə kitab şəklində çap olunmuş 419 bədii əsər əhatə edilmişdir. Bu biblioqrafik göstərici uşaqların mütaliəsinə rəhbərlik işini düzgün həyata keçirmək məqsədilə çap olunmuşdur. Göstəriciyə eyni adlı əsərlərin bütün nəşrləri deyil, yalnız sonuncu nəşr və yaxud uşaqlar üçün daha sadə şəkildə işlənmiş nəşrlər daxil edilmişdir.

Göstərici şagirdlərin yaş xüsusiyyətlərindən asılı olaraq üç əsas bölməyə ayrılmışdır. Birinci bölmədə məktəbəqədər yaşlı uşaqlar və I-II sinif şagirdləri üçün olan ədəbiyyat, ikinci bölmədə III-IV sinif şagirdləri üçün, üçüncü bölmədə isə V-VIII sinif şagirdlərinə aid ədəbiyyat verilmişdir.

Biblioqrafik göstəricidə ədəbiyyat uşaqların yaş dərəcələrindən asılı olaraq ədəbiyyatın janrı üzrə qruplaşdırılmışdır. Janra görə - şifahi xalq ədəbiyyatı, poeziya və nəsr əsərləri kimi bölmələr əsas götürülmüşdür. Hər bölmə daxilində uşaqlar üçün tövsiyə olunan əsərlər əlifba qaydasında təsvir edilmişdir.

Biblioqrafik göstəricinin əhəmiyyətli cəhətlərindən biri odur ki, hər bir əsərə annotasiya verilmişdir. Bu annotasiya vasitəsilə uşaqlar tövsiyə olunmuş bədii əsərlərin məzmunu ilə tanış ola bilirlər.

Bu tövsiyə vəsaiti oxucu istiqamətinə görə uşaq kitabxanalarının işçiləri, aşağı sinif müəllimləri, tərbiyəçilər üçün nəzərdə tutulmuşdur. Biblioqrafik göstərici 1970-ci ildə çap edilmişdir. Vəsaitə müxtəlif yaşlı uşaqlar üçün cəmi 419 mənbə daxil edilmişdir.Vəsaitdən istifadəni asanlaşdırmaq üçün sonda köməkçi aparat verilmişdir. Köməkçi aparata "Müəlliflərin əlifba göstəricisi" və "Əsərlərin adlar göstəricisi" daxildir. Köməkçi aparat vasitəsilə müəllifləri və istənilən əsərləri adlarına görə axtarıb tapmaq olur.

"Azərbaycan uşaq ədəbiyyatı" adlı biblioqrafik göstərici F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən tərtib olunmuş vəsaitlərin ən maraqlısı hesab olunur.

Azərbaycanda uşaq ədəbiyyatı biblioqrafiyasının intensiv inkişafı 1970-ci ildən sonrakı illərə təsadüf edir. Bu sahədə fəaliyyət göstərən Respublika Dövlət Uşaq Kitabxanasının biblioqrafik nəşrlərinin sayı və keyfiyyəti xeyli artmışdır. Kitabxana tərəfindən 1970-ci il və sonrakı illərdə yubileylər, əlamətdar və tarixi günlər münasibətilə bir sıra vəsaitlər tərtib edilib çap olunmuşdur.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası yetişməkdə olan gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsinə kömək etmək üçün müxtəlif xarakterli kütləvi tədbirlər həyata keçirməklə bərabər, biblioqrafik vəsaitlər də hazırlayıb çap etdirmişdir.

Hərbi vətənpərvərlik üzrə mövcud ədəbiyyatın gənclər arasında təbliğ edilməsində tövsiyə xarakterli biblioqrafik vəsaitlərin əhəmiyyəti olduqca böyükdür. Aydın Abbasov tərəfindən tərtib olunmuş "Uşaqların

hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi” metodik-biblioqrafik vəsaiti 1972-ci ildə nəşr edilmişdir (2).

Biblioqrafik göstərici iki hissədən ibarətdir. Birinci hissədə uşaqların hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında kitabxanaçıya kömək məqsədilə kitab təbliğinin müxtəlif üsullarından, məktəblilərdə vətənpərvərlik hissinin aşılanmasında daha əhəmiyyətli kütləvi tədbirlərin maraqlı şəkildə təşkili və keçirilməsindən bəhs olunur. İkinci hissədə isə “Uşaqların hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi” mövzusu ilə əlaqədar olan mövcud ədəbiyyatın annotasiyalı biblioqrafik siyahısı da verilmişdir.

Metodik–biblioqrafik vəsaitə 1970-ci ilədək 5-8-ci sinif şagirdləri üçün çap edilmiş ən mühüm kitablar seçilib daxil edilmişdir. Vəsaitin biblioqrafiya hissəsində mövzu ilə əlaqədar 78 adda ədəbiyyatın təsviri verilmişdir. Biblioqrafik təsvir müəllifin familiyasına, müəllifsiz kitablar isə sərlövhələrinə görə verilmişdir. Burada hər kitaba yığcam annotasiya da verilmişdir.

F.Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanası, əsasən, uşaq və yeniyetmə oxuculara xidmət etdiyi üçün öz profilinə uyğun olaraq son illərdə də tövsiyə göstəriciləri tərtib edir. Belə ki, kitabxananın məlumat-biblioqrafiya şöbəsinin əməkdaşları oxucuların biblioqrafik informasiyaya olan tələbatını müntəzəm şəkildə ödəmək üçün tövsiyə biblioqrafik göstəriciləri tərtib edib çap etdirmişdir.

Belə biblioqrafik vəsaitlərdən biri də “Möcüzələr aləmində” adlı tövsiyə biblioqrafik göstərici 1990-cı ildə R.Hacıyeva tərəfindən tərtib olunmuşdur. Tövsiyə biblioqrafik göstərici 1965-1987-ci illərdə nəşr edilmiş uşaq ədəbiyyatını əhatə edir. Biblioqrafik vəsaitdə materiallar məzmun əlamətinə görə qruplaşdırılmışdır. Göstəricidə bir çox elm sahələrinə dair ədəbiyyat haqqında biblioqrafik məlumat verilmişdir. Biblioqrafik göstərici 10 bölmədən ibarətdir:

1. Fizika nəyi öyrənir?
2. Kibernetika və həyat
3. Fəzanın sabahı
4. Kimya bu gün və sabah
5. Maraqlı aləmə səyahət
6. Yerin sirləri açılır
7. Bizi əhatə edən mühit
8. Ədədlər aləmi
9. Düşünən maşınlar

*10.* Fantastika

"Fantastika" bölməsinə nəşr ilindən asılı olmayaraq maraqlı kitablar daxil edilmişdir. Göstərici hərtərəfli biliyə malik olmaq istəyən məktəbli oxucular üçün əlverişli biblioqrafik informasiya mənbəyidir (9).

1991-ci ildə dahi şairimiz N.Gəncəvinin anadan olmasının 850 illik yubileyi respublikamızın bütün mədəniyyət ocaqlarında, o cümlədən kitabxanalarda da təntənəli şəkildə qeyd olunmuşdur. Bu mənada F.Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanası 1991-ci ildə N.Gəncəvinin 850 illik yubileyi münasibətilə "Hikmət xəzinəsi" adlı tövsiyə biblioqrafik göstəricisi tərtib etmişdir. Göstəricidə materiallar Azərbaycan və rus dilində qruplaşdırılmışdır (tərtibçi: S.Əhmədova, red: F.Qasımova). Biblioqrafik göstərici 4 hissədən ibarətdir:

1. Həyat və yaradıcılığının əsas tarixləri
2. Əsərləri
3. Özü və yaradıcılığı haqqında

3-cü hissə iki yarımbölməyə ayrılır:

a) Kitablar
b) Dövri mətbuat

4. Köməkçi aparat

Biblioqrafik göstəricinin sonunda axtarışı asanlaşdırmaq məqsədilə N.Gəncəvi haqqında yazan müəlliflərin əlifba göstəricisi tərtib edilmişdir (6).

F.Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanasının məlumat-biblioqrafiya şöbəsinin əməkdaşları tərəfindən tərtib edilən tövsiyə göstəricilərindən biri də "Bizə kitab gəlib" adlanır (5). Müəllifləri S.Əhmədova və F.Qasımovadır. Göstəricidə kitabxanaya 1991-ci ildə daxil olan kitabların annotasiyalı təsviri verilmişdir. Vəsaitdə materiallar Azərbaycan dilində sistemləşdirilmiş, aşağıdakı bölmələr daxilində qruplaşdırılmışdır:

1. Azərbaycan ədəbiyyatı
2. Türk və slavyan xalqları ədəbiyyatı
3. Dünya ədəbiyyatı
4. Vətənimizin tarixindən
5. Xalq maarifi
6. Ədəbiyyatşünaslıq və tənqid
7. Dilimiz, varlığımız
8. Gözəllik aləminə səyahət
9. Sizi paklığa çağırırıq

10. Sağlam olmaq istəyirsinizmi?
11. Bunları bilmək maraqlıdır.

Hər bir bölmə daxilində materiallar yarımbölmələrə ayrılır. “Azərbaycan ədəbiyyatı” bölməsinə daxil olan bölmələr aşağıdakılardır:

1. Folklor
2. Poeziya
3. Nəsr
4. Publisistika

Bu biblioqrafik göstərici xüsusilə məktəbli oxucular üçün ayrı-ayrı xalqların ədəbiyyatını, ədəbi-bədii əsərlərin, təbiət sirlərinin öyrənilməsi baxımından çox əhəmiyyətli mənbə olmuşdur.

Respublikamız yenidən müstəqillik qazandıqdan sonra hər sahədə olduğu kimi uşaq ədəbiyyatının biblioqrafik nəşrlərinin yaranıb inkişaf etməsində yeni bir dövr başlanmışdır. Bu hər şeydən əvvəl Respublikamızın baş uşaq kitabxanası, uşaq ədəbiyyatının dövlət kitabsaxlayıcısı və uşaq kitabxanalarının elmi-metodik mərkəzi olan Firudin Bəy Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanasının biblioqrafik fəaliyyəti ilə bağlı olmuşdur.

F.B.Köçərli adına Respublika Dövlət Uşaq Kitabxanasının 1990-cı illərdən sonrakı biblioqrafik fəaliyyəti və uşaq ədəbiyyatını özündə əks etdirən biblioqrafik vəsaitlərin geniş təhlili barədə növbəti məqalədə bəhs ediləcəkdir.

## ƏDƏBİYYAT


1. *Abdulla Şaiq /Biblioqrafiya.-B.,1956.-9s.*
2. *Abbasov A. Uşaqların hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi.-B.,1972.-34s.*
3. *Azərbaycan kitabı: (Biblioqrafiya) üç cilddə.C.2, I kitab.-B.:Yazıçı,1982.-745s.*
4. *Azərbaycan SSR Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası. III c./1960-1965/ VII kitab.-B.,1984.-134s.*
5. *Əhmədova S. Bizə kitab gəlib (tövsiyə göstəricisi).-B.,1992.-42s.*
6. *Əhmədova S. Hikmət xəzinəsi.- B.,1991.-30s.*
7. *Əsədullayev A. Azərbaycan uşaq ədəbiyyatı: Annotasiyalı tövsiyə ədəbiyyat göstəricisi.-B.,1970.-76s.*

8. *Rzayev S. Uşaqları beynəlxalq müdafiə günü. (metodik-biblioqrafik vəsait).B.,1962.-22s.*
9. *Hacıyeva R. Möcüzələr aləmində (tövsiyə ədəbiyyat göstəricisi) .-B.,1990.-44s.*
10. *Süleyman Sani Axundov: Biblioqrafik göstərici.-B.,1975.-19s.*

***С. ИСМАИЛОВА***

**ВОЗНИКНОВЕНИЕ И РАЗВИТИЕ БИБЛИОГРАФИЧЕСКОЙ ПЕЧАТИ ДЕТСКОЙ И ЮНОШЕСКОЙ ЛИТЕРАТУРЫ В АЗЕРБАЙДЖАНЕ**

***РЕЗЮМЕ***

В статье рассматриваются вопросы становления и развития библиографии детской литературы в Азербайджане. Перечисляются и анализируются существующие библиографические указатели. В том числе, говорится о значении тех библиографических пособий в библиографической информационной обеспечении детей и юношей.

***S. İSMAİLOVA***

**RISE AND DEVELOPMENT OF BIBLIOGRAPHIC PRINT CHILDREN AND YOUTH LITERATURE IN AZERBAIJAN SUMMARY**

***SUMMARY***

There was analyzed the establishment and development of a bibliography of children's and youths literature in Azerbaijan. Identifies and analyzes existing bibliographies. Also, according to the meaning of the bibliographical aids in bibliographic information providing of the children and youths.

**Əliyusif MƏMMƏDOV**
***Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi***

# AZƏRBAYCANDA YER HAQQINDA ELMLƏR KOMPLEKSİNİN BİBLİOQRAFİK TƏMİNATININ BƏZİ MƏSƏLƏLƏRİ

Azərbaycanda son yüz il ərzində toplanmış elmi biliklər, texnologiyalar, insan kapitalı ölkəmizin Üçüncü minillikdəki inkişafı üçün mühüm hərəkətverici amil ola bilər. Lakin bildiyimiz kimi, istənilən ciddi elmi nəticələr o zaman əldə edilə, səmərəli elmi tədqiqatlar o zaman yerinə yetirilə bilər ki, bu sahələrin ilkin sənəd informasiya və biblioqrafik informasiya tələbatı lazımi səviyyədə öyrənilsin və bu tələbatların təmin edilməsi planauyğun şəkildə həyata keçirilsin. Təbiət elmlərinin mühüm sahəsi olan Yer haqqında elmlər də bu baxımdan istisna təşkil etmir.

Yer haqqında elmlər kompleksi müasir elmlər sisteminin elə bir qisminə aiddir ki, burada tam, dolğun və dəqiq ilkin sənədli informasiya təminatı xüsusi əhəmiyyətə malikdir və həmin təminatdakı istənilən çatışmazlıq tədqiqatlara çox güclü mənfi təsir göstərə bilər. Buna görə də, bu elmlərin ilkin sənəd və biblioqrafik təminat məsələsi həmişə diqqət mərkəzində olmalı, onun təkmilləşdirilməsi heç vaxt elmi-tədqiqat fəaliyyətini idarə edən qurumların gündəliyindən çıxarılmamalıdır. Bu problemi araşdırmazdan əvvəl ölkəmizdə bu elmlər kompleksinin inkişaf və formalaşmasına qısaca nəzər salmaq zəruridir.

Azərbaycanda müasir mənada elmi-tədqiqat fəaliyyətinin meydana gəlməsi XIX əsrin sonunda başlamış və bu proses XX əsrin əvvəllərində davam etmişdir. Bu dövr ərzində Azərbaycanda yaradılmış elmi tədqiqat müəssisələrinin, elmi cəmiyyətlərin fəaliyyəti az bir zamanda ölkəmizin elmi potensialının formalaşmasına səbəb oldu. Azərbaycan dünya elminin ən son nailiyyətlərini öyrənərək gənc nəslə çatdıran ali təhsil müəssisələri də ölkəmizin elmi potensialının sürətlə artmasına rəvac verdi. Başda Bakı Dövlət Universiteti olmaqla ali məktəblərimiz çox sayda elmi kadrlar, müxtəlif sahələr üçün mütəxəssislər hazırlamaqla ölkəmizdə elmin inkişafına güclü təkan verdi.

Azərbaycan elminin dünya orbitinə çıxmasında təbiətşünaslıq elmləri kompleksinin (fizika, astronomiya, kimya, biologiya, geologiya və coğrafiya) böyük rolu olmuşdur. Həmin elmlərdən Yer haqqında elmlər

kompleksi xüsusi mövqeyə malikdir. Təbiət elmləri içərisində ən qədim tarixə malik olan bu kompleks Yer qabığını və onun daha dərin qatlarını, Yer qabığının tərkibini, quruluşunu, hərəkətini, onun inkişaf tarixini, faydalı qazıntıların yerləşməsi qanunauyğunluqlarını öyrənir.Yer haqqında elmlər kompleksinin iki əsas istiqaməti coğrafiya və geologiya elmləridir.

Yer haqqında elmlər kompleksinə aid edilə bilən tədqiqatlar Azərbaycanda da çox erkən zamandan-orta əsrlərdən inkişaf etməyə başlamışdır. Həmin dövrdə elmlərin diferensasiyası indiki qədər dərin olmadığından bu elmlər sahəsindəki tədqiqatlar ümumən təbiyyətşünaslığın tərkibində inkişaf edirdi və bilavasitə o zamankı cəmiyyətin praktiki tələbatları ilə bağlı idi. Məsələn, Yerin təki, onun dərinliyində olan faydalı qazıntıların öyrənilməsi(indiki mənada geologiya) insanlara metalların istehsalı, yüngül sənaye üçün xammal əldə edilməsinə imkan yaradan məlumatlar verirdi.Yerin səthi, onun relyefinin xüsusiyyətləri, çayları, gölləri, dənizləri, torpaq örtüyü insanlara ilk növbədə kənd təsərrüfatı istehsalını təşkil etmək, iqlimlər haqqında bilikləri ümumiləşdirmək, yaxın və uzaq ölkələr haqqında məlumat əldə etmək (indiki mənada coğrafiya) imkanı yaradırdı. Azərbaycanda Yer haqqında elmlərə dair məlumatların xüsusilə intensiv toplanıb təhlil edilməsininm səbəbi ölkəmizin ərazisinin mürəkkəb geoloji relyefi, zəngin faydalı qazıntıları və sənayenin, sənətkarlığın inkişafı nəticəsində yeraltı sərvətləri öyrənmək zərurəti olmuşdur. Orta əsr Azərbaycan alimləri Ömər Aləmin, Həmdullah Qəzvinin tədqiqatları öz dövrlərinə görə çox qabaqcıl elmi səviyyəyə malik idilər.

Azərbaycanda müasir elmi mənada Yer haqqında elmlər kompleksi üzrə tədqiqatların başlanması XIX əsrin sonuna təsadüf edir. O zaman Rusiya İmperiyasında sənaye inqilabı, kapitalizmin inkişafı, neftə və digər yeraltı sərvətlərə kəskin ehtiyac yaratdı. Nəticədə Azərbaycanın iqliminin, relyefinin və ən başlıcası yeraltı sərvətlərinin, ilk növbədə neft yataqlarının intensiv öyrənilməsinə başlandı. Lakin ölkəmizdə Yer haqqında elmlər sahəsində tədqiqatların prinsipcə yeni mərhələsi XX əsrin 20-30-cu illərinə təsadüf edir. Bu ən əvvəl, Azərbaycanın qisa müddətdə olsa da, tam dövlət müstəqilliyi qazanması və 20-ci ildən etibarən isə yarımmüstəqil olsa da, Sovet respublikası şəraitində mövcud olaraq ictimai həyatın müxtəlif istiqamətlərində intensiv inkişafı ilə əlaqədar idi.

XX əsrin 20-30-cu illərindən başlayaraq sənayenin, elmin, təhsilin ümumi inkişafı fonunda Yer haqqında elmlər də çox sürətlə inkişaf

edirdi. Bu dövrün Azərbaycanda Yer haqqında elmlər kompleksinin inkişafı sahəsində ən əhəmiyyətli hadisəsi 1923-cü ildə Azərbaycanda müasir anlamda ilk elmi-tədqiqat müssisəsi-Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılması oldu.Görkəmli yazıçı və maarifçi Ə.Ə. Haqverdiyevin sədrlik etdiyi bu cəmiyyətdə üç bölmə var idi ki, onlardan biri Təbiyyat bölməsi idi. Yer haqqında elmlər üzrə tədqiqatlar Cəmiyyətin məhz bu bölməsi tərəfindən həyata keçirilirdi. !929-cu ildə həmin cəmiyyətin bazasında Azərbaycan Dövlət Elmi-tədqiqat İnstitutu (Azərbaycan DETİ) yaradıldı. 1932-ci ildə Azərbaycan DETİ-nin əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi təşkil edildi. Şöbəyə R.Axundov rəhbərlik edirdi. Şöbədə 11 bölmə və bir neçə komissiya fəaliyyət göstərirdi. Bu bölmələrdən biri geologiya bölməsi idi. Lakin Azərbaycanda Yer haqqında elmlər üzrə ilk elmi-tədqiqat institutunun-Azərbaycan MEA Geologiya İnstitutunun yaradılması tarixindən bəhs edərkən 1930-cu il əsas götürülür. Azərbaycanda SSRİ EA Azərbaycan Filialının Geologiya İnstitutunun təsis edilməsi ilə Azərbaycanda geologiya sahəsində elmi tədqiqatlarla məşqul olan ilk ayrıca müəssisə işə başladı. Az bir müddət ərzində respublikamızda Yer haqqında elmlər sahəsində planauyğun şəkildə geniş istiqamətdə tədqiqatlar aparılmağa başladı.

Ötən illər ərzində Azərbaycan MEA  Geologiya İnstitutunda neft və qaz geologiyası, filizlərin geologiyası, Yer qabığı və üst mantiyanın quruluşunun modelləşdirilməsi, faydalı qazıntıların yeni proqnoz metodlarının işlənməsi, fanerzoy dövrünün stratiqrafiyası və faunası, çökmə və vulkanikçökmə formasiyaları və onların formalaşması qanunauyğunluqları kimi istiqamətlərdə nailiyyətlər qazanılmışdır. Hal-hazırda İnstitutda petrologiya və metallogeniya, filiz yataqlarının geokimyası və mineralogiyası, regional geologiya və tektonika, neft və qaz geologiyası şöbələri, palçıq vulkanizmi, paleontologiya və stratiqrafiya, elmi nailiyyətlərin təsərrüfata tətbiqi bölmələri var. İnstitutun nəzdində həm də H.Zərdabi adına Təbiyyat Tarixi muzeyi və Geoloji muzey də fəaliyyət göstərir.

Biz bilirik ki, Azərbaycanda geologiya sahəsində elmi potensial təkcə Milli Elmlər Akademiyasının Geologiya İnstitutu ilə məhdudlaşmır. Bu institutdan başqa Akademiya sistemində uzun zaman Dərin Neft və Qaz Yataqlarının Nəzəri Problemləri İnstitutu fəaliyyət göstərmişdir ki, 2002-ci ildə həmin institut ləğv edilmiş və onun şöbələri MEA Geologiya İnstitutunun tərkibinə qatılmışıdır. Akademiyadan kənardakı elmi müəssisə və kollektivlərə gəldikdə isə Respublika

Ekoloğiya və Təbii Ehtiyatlar Nazirliyini, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin geoloji bölmələrini və həmin şirkətin tabeliyində olan Azərbaycan Elmi-Tədqiqat və Layihə Neft İnstitutunu, Azərbaycan Elmi-Tədqiqat Geofizika İnstitutunu, eləcə də BDU-nun geologiya fakültəsinin və Azərbaycan Neft Akademiyasının geologiya üzrə kafedralarını göstərmək lazımdır.

Yer haqqında elmlər kompleksinin ikinci tərkib hissəsi isə coğrafiya elmidir. Onun geologiyadan əsas fərqi ondan ibarətdir ki, əgər geologiya əsasən Yerin təkini, orada baş verən prosesləri öyrənirsə, cografiya yerin səthində baş verən təbii prosesləri tədqiq edir. Bu sahədə isə aparıcı elmi-tədqiqat müəssisəsi Milli Elmlər Akademiyasının Həsən Əliyev adına Coğrafiya İnstitutudur. 1937-ci ildə yaradılmış bu institut elm aləmində həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda yaxşı tanınır. Bundan başqa, ölkəmizdə coğrafiya sahəsində tədqiqatlar BDU-nun və respublikanın bir sıra universitetlərinin coğrafiya fakültələrində də aparılır.

Azərbaycanda geoloji tədqiqat müəssisələrinin flaqmanı olan Elmlər Akademiyasının Geologiya İnstitutunda və digər elmi-tədqiqat müəssisə və bölmələrində, elmi-pedaqoji kollektivlərdə çoxsaylı mütəxəssislər ordusu çalışır. Təbiidir ki, həmin kollektivlər və ayrı-ayrı mütəxəssislər öz peşə vəzifələrini yerinə yetirərkən ən müxtəlif informasiyaya tələbat meydana gəlir. Əgər həmin informasiya tələbatını sənəd vasitəsi ilə ödəmək olarsa və tələbatçı belə bir imkandan xəbərdardırsa, bu zaman həmin tələbat sənəd-informasiya tələbatı müstəvisindən biblioqrafik informasiya tələbatı müstəvisinə keçir. Beləliklə, biblioqrafik informasiya (biblioqrafik tələbatlar) sənəd tələbatlarından meydana çıxır, məzmun baxımından onunla eyniyyət təşkil edir, onun ödənilməsinə xidmət edir və sənəd tələbatının sadəcə xüsusi, biblioqrafik formada təzahüründən ibarətdir.

İnformasiya tələbatı, eləcə də biblioqrafik informasiya tələbatı öz təbiətinə görə obyektiv bir hadisədir və ayrı-ayrı fərdlərin arzularından az asılıdır. Bu tələbatın təzahürü yeni biliklər əldə edilməsi zərurətindən doğur ki, bunsuz da müasir elmin, o cümlədən, geologiyanın qarşısında duran vəzifələrin həll edilməsi qeyri-mümkündür.

Mütəxəssis geoloqlar sənəd vasitəsi ilə əks olunan informasiyanı, o cümlədən biblioqrafik informasiyanı həm formal, həm də qeyri-formal (şəxsi ünsiyyət) kanalları vasitəsi əldə edirlər.

Müşahidələr göstərir ki, tələbatçı öz informasiya ehtiyacını ilk növbədə qeyri-formal kanallarla ödəməyə çalışır. Bunun üçün o, iş yol-

daşlarına müraciət edir. Əgər həmin yolla informasiya əldə etmək mümkün olmazsa, mütəxəssis formal kanallara-bilavasitə informasiya xidməti ilə məşğul olan struktur bölməsinə (müəssisənin elmi kitabxanasına, elmi-texniki informasiya şöbəsinə, patent şöbəsinə) müraciət edir. Qeyd etmək lazımdır ki, Milli Elmlər Akademiyasının Geologiya İnstitutunda həmin bölmələrin hamısı mövcuddur. Mütəxəssisin sorğusu o zaman meydana çıxır ki, mütəxəssis bu və ya digər məsələnin həlli üçün əlavə biliklərə ehtiyacı olduğunu dərk etsin. Lakin nəzərə almaq lazımdır ki, bir çox hallarda sorğu mütəxəssisin informasiya tələbatını tam əks etdirmir. Bu vəziyyət biblioqraf tərəfindən nəzərə alınmalı və real tələbatın üzə çıxarılması üçün mütəxəssislə söhbət vasitəsilə sorğu dəqiqləşdirilməlidir.

Məlumdur ki, biblioqrafik fəaliyyətin optimal təşkili üçün onun hər iki əsas elementi-həm sənədlər, həm də informasiya tələbatçıları dərindən təhlil edilməlidir.

Söhbət Yer haqqında elmlərin, o cümlədən geologiya və coğrafiyanın ilkin sənədlərlə təminatından gedərkən müasir kitabxana işində və biblioqrafik fəaliyyətdə məlum olan sənədlər və onun konkret tipi olan nəşrlərin (çap əsərlərinin) bir çox növləri çox geniş təmsil olunmuşdur. Məlum standartda öz əksini tapmış elmi nəşrlər, monoqrafiyalar, dissertasiyaların avtoreferatları, elmi konfranslarda edilmiş məruzələrin tezisləri, elmi əsərlər məcmuələri, elmi kütləvi nəşrlər, tədris nəşrləri, dərsliklər, sıra nəşrləri, lüğətlər geologiya üzrə də mövcuddur və geologiyanın biblioqrafiyasının obyektini təşkil edir. Azərbaycanda Geologiya İnstitutunun və digər elmi kollektivlərin elmi yaradıcılığının məhsulu olan kitablar, monoqrafiyalar, məqalələr məcmuələri, Azərbaycan MEA Xəbərlərinin Yer haqqında elmlər seriyası, eləcə də tədris ədəbiyyatı həmin obyektə daxildir. Onu da qeyd etmək lazımdır ki, Yer haqqında elmlər digər təbiət elmlərindən onunla fərqlənirlər ki, burada sənəd kütləsinin və axının nəzərəçarpacaq hissəsini spesifik sənəd növləri-ən müxtəlif xəritələr, atlaslar, kadastrlar, sxem və diaqram şəklində olan sənədlər təşkil edirlər. Belə sənəd növləri kitabxananın, elmi informasiya şöbəsini katalaq-kartoteka sistemində, soraq-axtarış aparatında xüsusi olaraq əks etdirilir və bununla da həmin sənədlərin istifadəsi üçün daha rahat geniş imkanlar yaranır.

## ƏDƏBİYYAT

1. *Əliyev.Z.H. Azərbaycan biblioqrafiyasının tarixi: Dərslik.-Bakı:BDU, 2007.-185 s*

*2. Большой А.А., Захаров А.Г., Каленов Н.Е. Информационно-библиотечные потребности ученых Академии наук СССР.-Науч.и техн. Б-ки СССР, 1982, № 4, с. 9-15.*

*3. Закутина Г.П., Пряникова В.К. Характеристика и анализ потока первичных документов: Метод. Пособие. М., 1979.88 с*

***А.М.МАМЕДОВ***

## НЕКОТОРЫЕ ВОПРОСЫ БИБЛИОГРАФИЧЕСКОГО ОБЕСПЕЧЕНИЯ КОМПЛЕКСА НАУК О ЗЕМЛЕ В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

В статье вкратце рассмотрены предпосылки развития комплекса наук о Земле в Азербайджане, вследствие чего возникла необходимость в первично–документального и библиографического обеспечения. Особенное внимание уделено некоторым аспектам этого развития в примере академической науки.

***A.M.MAMMADOV***

## THE SOME İSSUES OF BİBLİOGRAPHİC PROVİSİON OF THE COMPLEX OF EARTH SCİENCES İN AZERBAİJAN

### *SUMMARY*

Given article describes basic conditions of development of the complex of Earth sciences in Azerbaijan as a result of was raised necessity of the documental and bibliographic provision of these sconces. The special attention was paid to some aspects of this development on the simple of institutions of Academy of Sconces.

**İradə BAYRAMOVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi***

# AZƏRBAYCAN RESPUBLIKASININ REGİONLARININ KİTABXANA-İNFORMASİYA RESURSLARININ İNKİŞAFININ BƏZİ MƏSƏLƏLƏRİ

***(Quba-Xaçmaz iqtisadi rayonunun nümunəsində)***

Azərbaycan Respublikası Prezidentinin imzaladığı «Regionların sosial- iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004-2008-ci illər)» nın 2008-ci ildə birinci mərhələsi başa çatsa da, regionların inkişafının daha da sürətləndirilməsi üçün dövlət qayğısı, hər bir sahədə olduğu kimi kitabxana-informasiya fəaliyyəti sahəsində də öz əksini tapmışdı (10).

Son illər Azərbaycanda informasiya cəmiyyətinin qurulması istiqamətində görülən işlər sırasında kitabxana işinin təşkili, idarə edilməsi, oxuculara informasiya xidmətində ənənəvi iş üsulları ilə yanaşı müasir texnologiyaların tətbiqinə başlanılması dövlətimizin kitabxana işi sahəsindəki siyasətinin prioritet istiqamətinə çevrilmişdir (9.s.318).

Kitabxanaların cəmiyyətin həyatındakı mühüm rolunu qiymətləndirərkən «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2007-ci il sərəncamında da qeyd edildiyi kimi, «Bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır» (5).

Sovet hakimiyyəti dönəmində, 1974-cü ildə qəbul edilən «Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında» verilmiş qərarın əsas müddəalarından biri, kitabxanaların mərkəzləşdirilməsi kimi bir vəzifəni qarşıya qoymuşdu. Kitabxanaların mərkəzləşdirilməsi keyfiyyətcə yeni mərhələnin başlanması demək idi.

1976-cı ildən rayon kitabxanalarının mərkəzləşdirilməsi onların biblioqrafik fəaliyyəti üçün yaxşı şərait yaratmışdı. Cəmiyyətin bütün sahələrində kitabxanalar, bir informasiya məkanı kimi mühüm rol oynayırdı (7.s.92).

Ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi sərvətlərin toplanılmasını, mühafizəsini, onlardan istifadə imkanlarının artırılmasını təmin etmək, kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində, müasir kitabxana-informasiya infrastrukturunun yaradılması və onun dünya standartları səviyyəsinə çatdırılması üçün, dövlətimiz geniş-miqyaslı işlərin görülməsi məqsədi ilə, yeni bir fəaliyyət strategiyasıişləyib hazırladı.

Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı» təsdiq olundu (4.s.6-29).

Bu proqramın tələblərinə uyğun olaraq, Azərbaycan Dövlət Statistika Komitəsi tərəfindən 2009-cu il sentyabr ayının 1-dən 10-dək statistik müayinə keçirilmişdir. Belə ki, bu müayinənin keçirilməsində əsas məqsəd, əhaliyə göstərilən kitabxana-informasiya xidmətinin səviyyəsinin yüksəldilməsi, kitabxanaların kadr təminatının yaxşılaşdırılması, fasiləsiz təhsilin təmin edilməsi, virtual kitabxanaların yaradılması istiqamətində aparılan işlərin vəziyyətini öyrənməkdən ibarət olmuşdu.

2009-cu ildə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin nəşr etdirdiyi «Kitabxanaların fəaliyyəti haqqında» statistik müayinənin nəticələri barədə statistik bülletenindən məlum olur ki, Azərbaycan Respublikasında 110994331 nüsxə kitabxana fondu var. Bu fondun 89399527 nüsxəsi kitablardır ki, bu da 80,5% deməkdir. Fonda 76114 nüsxə elektron informasiya daşıyıcıları, 3912645 nüsxə jurnallar, 2082879 nüsxə qəzetlər, 15523166 nüsxə digər materiallar daxildir (bax:cədvəl.3).

Kitabxana fondunun 34,6%-i ümumtəhsil məktəblərində, 32%-i Mədəniyyət və Turizm Nazirliyinin nəzdində olan kitabxanalarda, 21,4%-i elmi və elmi-texniki kitabxanalarda, 12%-i isə digər təşkilatların kitabxanalarında yerləşir. Kitabxanalarda olan fondun 65,5%-i azərbaycan, 31,1%-i rus, 2%-i ingilis, 1,4%-i digər dillərdədir. Azərbaycan dilində olan ümumi fondun 71,9%-i latın, 28,1%-i isə kiril əlifbasındadır. Azərbaycan dilinin latın qrafikasında olan fondunun xüsusi çəkisi şəhər yerlərində 81,6%, kənd yerlərində 56,8%-dir. Kitabxana fondunun cəmi 0,1%-ni elektron informasiya daşıyıcıları təşkil edir ki, onların da əksəriyyəti şəhər yerlərindədir.

Respublikamızdakı kitabxanaların 23,4% -i Aran, 14,9%-i Gəncə-Qazax, 11,2%-i Lənkəran, 9%-i Şəki-Zaqatala, 8,4%-i Bakı şəhəri,

8,2%-i Quba-Xaçmaz 7,1%-i Yuxarı Qarabağ, 5,8%-i Naxçıvan, 4,9%-i Dağlıq Şirvan, 4,5%-i Kəlbəcər-Laçın və 2,1%-i Abşeron iqtisadi rayonunun payına düşür.

2009-cu ilin 1-ci yarısında kitabxanalara 4,8 milyon müraciət qeydə alınmış, 53,4 milyon kitab və ya digər informasiya mənbələrindən istifadə edilmişdir. Müraciətlərin 39,6%-i 18 yaşınadək uşaq və gənclər tərəfindən olmuşdur. İnternet vasitəsi ilə elektron kitabxanalara edilən müraciətlər kitabxanalara olunan ümumi müraciətlərin cəmi 2%-ni təşkil etmişdir.

Kitabxanalardakı 1695 kompüterdən 94,2%-i şəhər,5,8%-i isə kənd yerlərinin payına düşür. Müayinənin nəticələrinə görə mövcud kompüterlərdən 56,5%-i istifadəçilər üçün,43,5%-i isə kitabxana əməkdaşları üçündür. Eyni zamanda bu kompüterlərin 705 ədədi və ya 41,6%-i internetə qoşulmuş, 86 itabxanada elektron poçt, 30 kitabxanada elektron kataloq mövcuddur. Bu kitabxanalar isə şəhər yerlərində yerləşir.

Respublikamızda yerləşən bütün kitabxanalarda işləyən işçilərin cəmi 3346 nəfəri və ya 38,3%-i kitabxana üzrə ali və orta ixtisas təhsili, 2579 nəfəri yaxud 29,6%-i digər sahələr üzrə ali və orta ixtisas təhsili, 2802 nəfəri ə ya 32,1%-i isə ümumi orta təhsili olan şəxslərdir.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2009-cu ilə olan statistik məlumatına görə, respublikamızda 8507 kitabxana var. Bu kitabxanaların 2322-si, yəni 27,3%-i şəhər yerlərində, 6185, başqa sözlə, 72,7%-i kənd yerlərində yerləşir. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 3812, yəni 44,8% kitabxana yerləşir.

Azərbaycan Respublikasında 10 iqtisadi rayon var. Onlardan biri də Quba- Xaçmaz iqtisadi rayonudur.

Respublikanın şimal-şərq hissəsində yerləşən Quba-Xaçmaz iqtisadi rayonunun əlverişli təbii şəraiti, bu bölgənin bütün tarixi dövrlərdə, iqtisadi inkişafına müsbət təsir göstərmişdir. Ərazisi 7 min kv.km olan iqtisadi rayon, respublika ərazisinin 8%-ni əhatə edir. Bölgənin dəniz sahillərindən yüksək dağlıq sahələrə qədər uzanan ərazisi, iqtisadi rayonun çoxsahəli təsərrüfatının inkişafına zəmin yaratmışdır. İqtisadi rayonun ümumi ərazisinin 37%-i Quba, 22,1 %-i Qusar,15,6% -i Xaçmaz, 11,3%-i Siyəzən,14%-i isə Şabran inzibati rayonlarının payına düşür (13).

Quba-Xaçmaz iqtisadi rayonunun relyef müxtəlifliyi ərazidə məhsuldar qüvvələrin inkişafına və əhalinin qeyri-bərabər məskunlaşmasına səbəb olmuşdur.

Rayonun istehsal sahələrinin inkişafında təbii resursların zənginliyi xüsusi əhəmiyyət kəsb edir (13.s.191-192).

Quba-Xaçmaz iqtisadi rayonunda, 2009-cu il əhalinin siyahıya alınmasına görə 487000 nəfərin məskunlaşdığı qeydə alınmışdır.

Ayrı-ayrı inzibati rayonların əhalisinin sayı və milli tərkibi də müxtəlifdir.Quba rayonunda 151900, Qusar rayonunda 87500, Xaçmaz rayonunda 158800, Şabran rayonunda 51200,Siyəzən rayonunda 37600 nəfər əhali yaşayır ( bax: cədvəl.4).

İqtisadi rayonda yaşayan ümumi əhalinin 72%-i azərbaycanlılar, 22,7 %-i ləzgilər, 2,1%-i tatlar, 1,6 %-i türklər və s. təşkil edir. Əhalinin siyahıya alınma məlumatlarına görə, burada yaşayan əhalinin 29,8 %-i Xaçmaz, 28,6 %-i Quba, 17,9 %-i Şabran, 16,6 %-i Qusar, 6,9 %-i Siyəzən inzibati rayonunun payına düşür (13).

Quba-Xaçmaz iqtisadi rayonu üzrə cəmi təhsil alanların sayı 388672 əfərdir. Onların yalnız 4,1%-i ali təhsillilər, 0,2%-i isə natamam ali təhsillilərdir.

İqtisadi rayonun əsas bölgələrindən biri olan Quba rayonunun ərazisi 2,58 min kv.m-dir.

Rayonda Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1932-ci ildə yaradılmış kitabxana əsasında formalaşdırılmışdır. Kitabxananın 107 filialı var ki, bunlar Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində yerləşir (bax: cədvəl.4; cədvəl.1).

Bundan başqa, rayonda 1 elmi, 1 ali təhsil müəssisəsi , 1 orta ixtisas təhsili müəssisəsi, 2 ilk peşə-ixtisas təhsil müəssisəsi, 106 ümumtəhsil müəssisəsi, 2 musiqi məktəbi, 1 səhiyyə müəssisəsi kitabxanaları fəaliyyət göstərir. Rayon ərazisində yerləşən kütləvi kitabxanalar 48,3 % təşkil edir.

Quba rayonunda təhsil alan 1197724 nəfər, iqtisadi rayon üzrə cəmi təhsil alanların 30,8%-ni təşkil edir ki, bunlardan 4,32%-i və ya 5172 nəfəri ali təhsilli kadrlardır. Rayonda 416 nəfər natamam ali təhsili,7754 nəfər orta ixtisas təhsilli, 46554 nəfər və ya 38,88% ümumi orta təhsilli,21447 nəfər və ya 17,91% natamam orta təhsilli, 3298 nəfər peşə təhsilli şəxs var.

Ümumiyyətlə, rayonda cəmi 221 kitabxana var ki, onlardan 34-ü və ya 15,4%-i şəhərdə, 187-si və ya 84,6%-i kəndlərdə yerləşir. Bu

kitabxanalarda 14 ədəd kompüter var. Onlardan 12 ədədi şəhər kitabxanalarında, 2 ədədi isə kənd kitabxanalarında yerləşir. Kompüterlərin 8 ədədindən informasiya tələbatçıları, 6 ədədindən isə kitabxana işçiləri istifadə edir.

Kitabxana-biblioqrafiya ehtiyatının əsas komponenti fond və informasiyan tələbatçıları, oxuculardır (11).

Quba rayonunda kitabxana fondu 1498735 nüsxə təşkil edir. Fondun 1456171 nüsxəsi kitablar, 43 nüsxəsi elektron informasiya daşıyıcıları, 28129 nüsxəsi jurnallar,7538 nüsxəsi qəzetlər,6854 nüsxəsi isə digər materiallardan ibarətdir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2007-ci ildə nəşr etdirdiyi «Azərbaycan kitabxanaları 21-ci əsrin informasiya məkanında» adlı 2 cildlik kitabda, 2004-2005-ci illərdə Quba rayonunda kütləvi kitabxanalarda işləyən mütəxəssislərin ümumi sayının 144 nəfər olduğu göstərilir (1).

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2009-cu ildə apardığı statistik müayinə zamanı, ümumiyyətlə, Quba rayonunda kitabxanalarda işləyən mütəxəssislərin 169 nəfər olduğu hesablanmışdır. Bu işçilərin 6 nəfərinin yəni 3,6 %-nin ali ixtisas təhsilli mütəxəssis,5 nəfərinin yəni 3% -nin ali qeyri - ixtisas təhsilli, 29 nəfərinin, yəni 17,2 %-nin orta ixtisas təhsilli, 36 nəfərinin orta qeyri-ixtisas təhsilli, 93 nəfərinin, yəni 54,9%-nin ümumi orta təhsilli olduğu bildirilir (bax:cədvəl.2).

Quba-Xaçmaz iqtisadi zonasında yerləşən Qusar rayonu da mühüm bölgələrdən biridir. Rayonun ərazisi 1,54 min kv.m-dir.

Qusar rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi, 1930-cu ildə yaradılmış kitabxananın bazası əsasında qurulmuşdur. Kitabxananın 75 filialı var . Bu filialların 512400 nüsxə kitab fondu, 16200 nəfər oxucusu var (bax: cədvəl.1).

Qusar rayonunda ümumilikdə 146 kitabxana var. Onlardan 68-i, yəni 46,5%-i ümumtəhsil məktəblərində,1-i musiqi məktəbində, 1-i səhiyyə müəssisəsində yerləşir (bax: cədvəl.4).

Rayonda yerləşən bütün kitabxanaların cəmi 1008583 nüsxə kitab fondu var. Bu fondun 1002611 nüsxəsi kitablar, 10 nüsxəsi elektron informasiya daşıyıcıları, 194 nüsxəsi jurnallar, 394 nüsxəsi qəzetlər, 5374 nüsxəsi isə başqa nəşrlərdir.

Qusar rayonundakı kitabxanalarda statistik məlumatlara görə, 107 nəfər mütəxəssis çalışır. Onlardan 7 nəfəri, yəni 6,5%-i ali ixtisas

təhsilli, 8 nəfəri, yəni 7,5%-i ali qeyri- ixtisas təhsilli, 32 nəfəri, yəni 29,9%-i orta ixtisas təhsilli, 22 nəfəri, yəni 20,6%-i orta qeyri-ixtisas təhsilli, 38 nəfəri, yəni 35,5%-i isə ümumi orta təhsilli işçilərdir (bax:cədvəl.2).

Qusar rayonunda cəmi təhsil alanlar 70884 nəfərdir ki, onların da 3407 nəfəri, yəni 4,81%-i ali, 139 nəfəri natamam ali, 5851 nəfəri və ya 8,25%-i orta ixtisas, 26573 nəfəri və ya 37,49%-i ümumi orta, 11742 nəfəri və ya 16,57%-i natamam orta, 1803 nəfəri və ya 2,54%-i peşə təhsillidir.

Ümumiyyətlə, əhalinin təhsil səviyyəsi ilə, peşə, ixtisas seçimi ilə bağlı kitabxanalara müraciət edənlərin bilavasitə əlaqədar olmasını, informasiya tələbatçılarının sırf bu baxımdan kəmiyyət və keyfiyyətinin yaxşılaşmasını nəzərə almaq lazımdır.

Qusar rayonunda 14 və ya 9,6% kitabxana şəhərdə, 132 və ya 90,4% kitabxana kəndlərdə yerləşir.Kitabxanalarda 4 ədəd kompüter var. Onlardan 2 dədi kitabxana işçiləri üçün, 2 ədədi informasiya tələbatçıları üçün nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, Quba-Xaçmaz iqtisadi rayonunda kitabxana informasiya xidmətindən, kitabxanaların fondunun zənginləşməsindən bəhs edərkən burada yaşayan əhalinin çoxmillətli olmasını nəzərdən qaçırmaq olmaz. Elə ona görə də müxtəlif millətlərin nümayəndələri olan informasiya tələbatçılarının dünyagörüşü, təhsil səviyyələri və təbii ki,informasiya maraqları da müxtəlif olacaq.

Quba-Xaçmaz iqtisadi rayonuna daxil olan Xaçmaz rayonunun ərazisi 1,05 min kv.m-dir.

Xaçmaz rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1976-cı ildə yaradılmışdır. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 101 kitabxana filialı var ki, bu da 51,5% edir. İlk peşə-ixtisas təhsil müəssisəsində 2, ümumtəhsil məktəblərində 88, yəni 45%, musiqi məktəblərində 3, səhiyyə müəssisələrində 2 kitabxana fəaliyyət göstərir (bax:cədvəl.4).

Xaçmaz rayonunda cəmi 196 kitabxana var ki, onların da 29-u, yəni 14,8%-i şəhər yerlərində,167-si, yəni 85,2%-i kənd yerlərində yerləşir. Bu kitabxanalarda 1331227 nüsxə kitab fondu var. Fondun 1331089 nüsxəsi kitablar, 32 nüsxəsi jurnallar, 31 nüsxəsi qəzetlər, 75 nüsxəsi digər materiallardır (bax:cədvəl.3).

Xaçmaz rayonunda yerləşən kitabxanalarda, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına görə 160 nəfər

mütəxəssis işləyir. Mədəniyyət və Turizm Nazirliyinin "Azərbaycan kitabxanaları 21-ci əsrin informasiya məkanında" adlı itabında göstərildiyi kimi, aparılan hesablamalar zamanı, bu mütəxəssislərin 149 nəfərinin kütləvi kitabxanalarda işlədiyi məlum olur (1. bax:cədvəl.1).

Kitabxanalarda işləyənlərin təhsil səviyyələrinə görə bölgüsündə, kitabxana üzrə ali ixtisas təhsilli kadrların 7 nəfər, yəni 4,4%, ali qeyri- ixtisas təhsilli 3 nəfər, yəni 1,9%, orta ixtisas təhsilli 27 nəfər, yəni 16,9%, qeyri- orta ixtisas təhsilli 11 nəfər, yəni 6,9%, ümumi orta təhsillilərin 112 nəfər, yəni 69,9% olması diqqəti cəlb edir (bax: cədvəl.2).

Xaçmaz rayonunda cəmi təhsil alanların sayı 128171 nəfərdir. Bunların da 4553 nəfəri ali təhsillilərdir ki, bu isə əhalinin 3,55%-ni təşkil edir. Natamam ali təhsilli 358 nəfər, orta ixtisas təhsilli 7395 nəfər, ümumi orta təhsilli 50858 nəfər və ya 39,68%, natamam orta təhsilli 24513 nəfər və ya 19,13%, peşə təhsillilər 3900 nəfərdir.

Xaçmaz rayonunda yerləşən kitabxanalarda cəmi 11 ədəd kompüter var ki, onlardan 9 ədədi şəhər kitabxanalarında, 2 ədədi isə kənd kitabxanalarında yerləşir. Kompüterlərdən 5 ədədi kitabxana-informasiya tələbatçıları üçün, 6 ədədi isə kitabxana işçilərinin istifadəsi üçün nəzərdə tutulmuşdur (6.s.57-65).

Mədəniyyət və Turizm Nazirliyinin 2004-2005-ci illər üzrə verdiyi məlumata görə, internetdən istifadə edənlərin sayı 808 nəfər olmuşdur (bax:cədvəl.1).

Quba- Xaçmaz inzibati rayonunda turizmin də inkişafını nəzərə alsaq, onu deməliyik ki, bu regionun iqtisadiyyatının inkişafı, əhalinin təhsil və mədəni səviyyəsinin yüksəlməsinə müsbət təsir etməklə, kitabxanaların da üzərinə böyük vəzifələr qoyur. Sosial-iqtisadi potensialın inkişafı və yüksək olması, kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində kitabxanaların da inkişafı, fondun zənginləşməsinə, bir sözlə, dünya standartlarına cavab verə biləcək kitabxanaların yaranmasına zəmin hazırlayır.

Quba-Xaçmaz iqtisadi rayonunda yerləşən Şabran rayonunun ərazisi 1,09 min kv.m-dir.

Quba-Xaçmaz iqtisadi rayonuna daxil olan Şabran rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1979-cu ildə yaradılmışdır. MKS-in Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində 54 kitabxana filialı var ki, bu da 58,7% edir. Ümumiyyətlə, rayonda cəmi 92 kitabxana var. Kitabxanaların idarə mənsubiyyətinə görə bölgüsü zamanı, ilk

peşə-ixtisas təhsil müəssisəsində 1, ümumtəhsil məktəblərində 35 və ya 38%, musiqi məktəbində 1, səhiyyə müəssisəsində 1 kitabxana olması nəzəri cəlb edir (bax: cədvəl.1; 4).

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2009-cu il statistik hesablamalarına görə, Şabran rayonunda 654275 nüsxə kitabxana fondu var. Bu fondun 640886 nüsxəsi kitablar, 138 nüsxəsi jurnallar, 13249 nüsxəsi qəzetlər, 2 nüsxəsi digər materiallardır. Kitabxanada elektron informasiya daşıyıcıları yoxdur (bax:cədvəl.3).

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik müayinəsinin nəticələrinə görə, kitabxanalarda 79 nəfər mütəxəssis çalışır. Məlum olur ki, kitabxanalarda işləyənlərin 4 nəfəri və ya 5,1%-i ali təhsilli, 4 nəfəri və ya 5,1%-i ali qeyri-ixtisas təhsili, 14 nəfəri və ya 17,7%-i orta ixtisas təhsili, 7 nəfəri və ya 8,9%-i qeyri-orta ixtisas təhsilli, 50 nəfəri və ya 63,2%-i isə ümumi orta təhsillilərdir (bax:cədvəl.2).

Ümumiyyətlə, Şabran rayonunda cəmi təhsil alanlar 40471 nəfərdir. Onlardan 1650 nəfəri və ya 4,18%-i ali təhsilli, 66 nəfəri natamam ali təhsilli, 3170 nəfəri orta ixtisas təhsilli, 13878 nəfər, və ya 34,29%-i ümumi orta təhsilli, 7983 nəfər, və ya 19,73%-i natamam orta təhsilli, 1967 nəfəri isə peşə təhsillilərdir.

Oxucuların sayı 25615 nəfər olan kitabxanalarda, cəmi 6 ədəd kompüter var ki, onlardan 5-i şəhər kitabxanalarında, 1-i isə kənd kitabxanalarında yerləşir (6.57-65).

Quba-Xaçmaz iqtisadi regionuna daxil olan daha bir rayon isə Siyəzən rayonudur. Rayonun ümumi sahəsi 0,70 min kv.metrdir.

Siyəzən rayonunda Azərbaycan Dövlət Statistika Komitəsinin statistik müayinəsinin nəticələrinə görə, cəmi 43 kitabxana var. Onlardan 19-u Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində yerləşir. Bu da 44,2% edir.

Qeyd etmək lazımdır ki, Siyəzən rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 1992-ci ildə yaradılmışdır. Ümumiyyətlə, rayon ərazisində yerləşən kitabxanaların fondu 289783 nüsxədir. Fondun informasiya mənbələrinə görə bölgüsündən də göründüyü kimi, kitablar 285922 nüsxə, elektron informasiya daşıyıcıları 115 nüsxə, jurnallar 246 nüsxə, qəzetlər 609 nüsxə, digər materiallar 2891 nüsxə təşkil edir (bax:cədvəl.3).

Siyəzən rayonunda yerləşən kitabxanaların idarə mənsubiyyətinə görəbölgüsündə ilk peşə-ixtisas təhsil müəssisəsində 1, ümumtəhsil məktəblərində 21, və ya 48,9%, musiqi məktəbində 1, digər müəs-

sisələrdə 1 kitabxana olduğu görünür.Kitabxanalarda cəmi 9 ədəd kompüter var. Onlardan 8 ədədi şəhər kitabxanalarında, 1 ədədi kənd kitabxanalarındadır. Kompüterlərin 5 ədədi kitabxana-informasiya tələbatçıları üçün, 4 ədədi kitabxana işçiləri üçün nəzərdə tutulmuşdur.

Statistik hesablamalara görə, kitabxanada 54 nəfər mütəxəssis çalışır. Kitabxana kadrlarının təhsil səviyyəsinə görə bölgüsünə əsasən, məlum olur ki, ali ixtisas təhsilli kadrlar 2 nəfər və ya 3,7%-dir. Ali qeyri-ixtisas təhsilli 3 nəfər və ya 5,6%, orta ixtisas təhsilli 4 nəfər və ya 7,4 %, orta qeyri- ixtisas təhsilli 2 nəfər, ümumi orta təhsilli 43 nəfər, yəni 79,6%-dir (bax:cədvəl.2).

Siyəzən rayonunda cəmi təhsil alanlar 29422 nəfərdir. Onların 1195 nəfəri, və ya 4,06%-i ali təhsilli, 64 nəfəri natamam ali təhsilli, 1966 nəfəri orta ixtisas təhsilli, 11700 nəfəri, və ya 39,77%-i ümumi orta təhsilli, 5389 nəfəri və ya 18,32%-i natamam orta təhsilli, 721 nəfəri peşə təhsillilərdir.

Quba-Xaçmaz regionunda ümumilikdə 698 kitabxana var. Onların 356-sı və ya 51%-i Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində yerləşir. Bu kitabxanalarda 569 nəfər ştatda olan kadr var. Onlardan cəmi 26 nəfərinin və ya 4,6%-nin ali ixtisas təhsili, 23 nəfərinin yəni 4%-nin ali qeyri-ixtisas təhsili, 106 nəfərinin və ya 18,6%-nin orta ixtisas təhsili, 78 nəfərinin və ya 13,7%-nin orta qeyri- ixtisas təhsili,336 nəfərinin və ya 59,1%-nin ümumi orta təhsili var.

Qloballaşma nəticəsində dünyada baş verən sosial-iqtisadi, demoqrafik və ekoloji dəyişikliklər nəzərə alınmaqla, Azərbaycanın milli iqtisadiyyatının formalaşması, intellektual insan əmək və kadr potensialının qiymətləndirilməsi, inkişafa nail olmaq ən mühüm vəzifələrdən biridir (14.s508-512).

Quba-Xaçmaz iqtisadi rayonunda kitabxana-informasiya resurslarından bəhs edərkən, şəhərlərdə yaşayan əhalinin həm təhsil səviyyəsinin, həm də mədəni-intellektual potensialının zəngin olmasını nəzərə almaq lazımdır. İnformasiya tələbatçılarının sorğularının daha dolğun ödənilməsi, həm də regionlarda yaşayan əhalinin milli tərkibinin müxtəlifliyi, müxtəlif dillərdə olan informasiyanın fondda toplanılmasını tələb etdiyindən ixtisaslı kitabxanaçı, biblioqrafların da üzərinə çətin və məsuliyyətli vəzifə düşür.

Şəhərlərin mühüm sənaye və mədəniyyət mərkəzləri kimi formalaşması kitabxana-biblioqrafiya ehtiyatlarının ən iri informasiya mərkəzlərinin bu məntəqələrdə yerləşməsinə gətirib çıxarmışdır (12).

Təhlil etdiyimiz bu regionda oxucuların sayına görə, adambaşına neçə nüsxə kitab düşdüyünü hesablasaq, belə bir nəticə ilə qarşılaşarıq:

Təkcə Mədəniyyət və Turizm Nazirliyi tabeliyində olan kitabxanalarda olan kitab fondu 2273009 nüsxə, oxucuların sayı 115795 nəfər, filialların sayı 356 olduğunu nəzərə alsaq, ali və orta ixtisas təhsilli işçilərin sayı 137 nəfər, qeyri - ali və qeyri-orta ixtisas təhsilli işçilərin sayının isə 50 nəfər olduğunu görə bilərik ki, burada oxucuların hər birinə düşən kitabların sayının təqribən 19 nüsxə olduğunu hesablamış oluruq. Bu da təqribən 5,9% edir. Eyni zamanda hər 845 nəfər oxucuya 1 nəfər ixtisaslı kitabxanaçı- biblioqraf xidmət edir.

Kitabxanaların ixtisaslı kitabxanaçı-biblioqraf kadrlarla yaxşı təmin edilməsi, kitabxana-informasiya tələbatçılarının sorğularının da daha yaxşı ödənilməsinə, keyfiyyətinin yaxşılaşdırılmasına müsbət təsir edir.

Quba-Xaçmaz iqtisadi rayonunda əhalinin milli tərkibinin müxtəlifliyi kitabxanalarda olan fondun da müxtəlif dillərdə olmasına yəni azərbaycan, ləzgi, rus və s. dillərdə olmasına şərait yaradır.

Görkəmli kitabxanaşünas alim, professor A.A.Xələfov yazır:" Müasir informasiyalaşdırılmış cəmiyyətin ən mühüm atributlarından biri olan kitabxanalar informasiya ehtiyatlarını qoruyub saxlayan, onu cəmiyyətin istifadəsisinə verən, cəmiyyət üzvlərinin hər birinin sorğu və tələbatını ödəyən, internet vasitəsi ilə bəşəriyyətin yaratmış olduğu mənəvi sərvəti oxuculara yaxınlaşdıran bir müəssisədir. Dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə əsasən demək olar ki, kitabxanalar dünyada iqtisadi tərəqqinin, elm, təhsil və mədəniyyətin inkişaf bazasıdır. Məhz buna görədir ki, müasir informasiyalaşdırılmış cəmiyyətdə onların qarşısında daha böyük, qlobal vəzifələr durur" (8.s.285).

Müasir cəmiyyətin tələbləri səviyyəsində hərtərəfli inkişaf etmiş insanların gündən-günə artan, genişlənən elmi maraqlarını təmin etmək və bu maraqlara cavab verən kitabxana şəbəkələrinin yaradılması və inkişaf etdirilməsi üçün, «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nda da göstərildiyi kimi, qarşıda duran mövcud problemləri həll etməklə, sistemli şəkildə fasiləsiz təhsilin təmin edilməsi, kitabxana-informasiya resurslarının dünya məkanına inteqrasiyasının təmin edilməsi və s. nəzərə alınmalıdır.

Proqramda əhalinin bütün təbəqələrinə kitabxana-informasiya xidməti səviyyəsinin yüksəldilməsi, müasir idarəetmənin tətbiqi, kadr islahatının həyata keçirilməsi, kitabxana işi sahəsində elmi - tədqiqat işlərinin aparılması, kitabların nəşri, kitabxanaların beynəlxalq əlaqələrinin genişlənməsi, beynəlxalq informasiya mübadiləsinin həyata keçirilməsi və. s kimi vəzifələrin də həyata keçirilməsi qarşıya qoyulmuşdur.(4.)

Dövlət proqramının həyata keçirilməsi üçün hazırlanmış Tədbirlər Planında, sırf regionlarla bağlı bir sıra məsələlər də göstərilmişdir. Onlardan 2010 -2011-ci illərdə «Kitabxana fondları-regionun inkişafının əsas informasiya resursu kimi» mövzusunda dəyirmi masaların keçirilməsi, regionlardakı kitabxanalar arasında «Ən yaxşı ictimai internet mərkəzi», «Ən maraqlı veb-sayt» mövzusunda respublika müsabiqəsinin keçirilməsi, regionlarda MKS-lərin bazasında kitabxanaların mövcud ştat vahidləri çərçivəsində və ictimai əsaslarla informasiya mərkəzlərinin yaranması, regionlarda nəşr edilən yerli qəzetlərdə diyarşünaslığa dair materialların toplanması, qorunması məqsədi ilə onların biblioqrafik uçotunun aparılması, əlifbanın kiril qrafikasından latın qrafikasına çevrilməsi, informasiya daşıyıcılarına köçürülməsi, «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı» çərçivəsində xarici ölkələrin ali məktəblərinin magistratura şöbələrində milli kitabxanaçı kadrların hazırlığının təşkili məqsədi ilə müvafiq tədbirlərin keçirilməsi və s. göstərmək olar (4).

Ümumilikdə, Azərbaycan Respublikasında informasiya tələbatçıları tərəfindən kitabxanalara olunan müraciətlərə nəzər saldıqda, bu müraciətlərin kitabxanaların növlərinə görə dəyişməsi, şəhər və kənd yerlərində müxtəlif olması diqqəti cəlb edir. Belə ki, şəhər və kənd yerləri də daxil olmaqla, cəmi müraciətlərin sayı 4774977 dəfə olmuşdur. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kütləvi kitabxanalara olunan müraciətlərin sayı 2543312 dəfə olmuşdur ki, onların 493014-ü, yəni 19,4%-i 18 yaşınadək istifadəçilər tərəfindən edilmişdir. Bunların arasında virtual istifadəçilər tərəfindən olunan müraciətlərin sayı 26490 dəfədir. Onda belə bir nəticə əldə etmiş oluruq ki, cəmi kütləvi kitabxanalara edilən müraciətlərin sayı 53,3% olmuşdur.

Elmi kitabxanalara, ali və orta ixtisas təhsil müəssisələrində, ümumtəhsil məktəblərində, digər idarə, müəssisələrdə yerləşən kitabxa-

nalara olunan müraciətlərə diqqət yetirdikdə, bu müraciətlər arasında gənclərin də önəmli yer tutduğunu görə bilərik.

Bu müraciətlərin şəhər yerlərində yerləşən kitabxanalara görə bölgüsü zamanı, cəmi 2864282 dəfə qeydə alınmasını görürük.Bu müraciətlər 1295300 dəfə kütləvi, 333167 dəfə elmi, 441707 dəfə ali təhsil müəssisələrinin kitabxanalarına edilmişdir. Eyni zamanda onların içərisində virtual istifadəçilər tərəfindən edilən müraciətlərin sayını da nəzərə alsaq, ümumilikdə bu müraciətlərin sayının 33,8%-nin 18 yaşınadək uşaq və gənclər tərəfindən edildiyi görünür.

Təbii ki, müraciətlərdən bəhs edərkən, kənd yerlərində yerləşən kitabxanalara edilən müraciətləri də nəzərdən qaçırmaq olmaz. Belə ki, bu müraciətlərin sayı ümumilikdə 1910695 dəfə olmuşdur. Onlardan 922970 dəfə və ya 48,3%-i 18 yaşınadək gənclər tərəfindən edilmişdir. Bu informasiya tələbatçıları arasında virtual istifadəçilər yoxdur. Bununla belə, bu istifadəçilər tərəfindən Mədəniyyət və Turizm Nazirliyi tabeliyində olan kütləvi kitabxanalara 1248012 dəfə müraciət olunmuşdur. Bu müraciətlərin 275358 dəfəsi və ya 22,1%-i 18 yaşınadək uşaq və gənclər tərəfindən olunmuşdur. Ümumilikdə isə bu müraciətlər 65,2%-dir, onların da, 29,8%-i 18 yaşınadək uşaq və gənclər tərəfindən edilmişdir. Kənd yerlərində yerləşən kitabxanalara olunan müraciətlərə diqqət yetirdikdə, ümumtəhsil məktəblərində yerləşən kitabxanalara olunan müraciətlərin də önəmli yerlərdən birini tutduğunu görürük. Belə ki, bu müraciətlərin sayı cəmi 639264 dəfə olmuşdur.

İnformasiya tələbatçılarına verilmiş kitab və digər informasiya mənbələrinin sayı cəmi 53377 min nüsxə olmuşdur ki, onların 11926 min nüsxəsi 18 yaşınadək istifadəçilərə verilmişdir. Kütləvi kitabxanalar tərəfindən oxuculara 42624900 nüsxə kitab verilmişdir. İnternet vasitəsi ilə elektron kitabxanalardan istifadə edənlərin informasiya təlabatları 41,8% ödənilmişdir.

Şəhər yerlərində tələbatçılara verilmiş kitab və digər mənbələrin cəminin 272223 min nüsxə olduğunu, onlardan 206136 min nüsxənin kütləvi,19872 min nüsxənin elmi,10846 min nüsxənin ali təhsil müəssisələrində yerləşən kitabxanalar tərəfindən verildiyini görürük.

Kənd yerlərində istifadəçilərə verilmiş kitab və digər informasiya mənbələrinin sayı cəmi 261547 min nüsxə olmuşdur.Onların 67688 min nüsxəsi 18 yaşınadək uşaq və gənclər tərəfindən istifadə olunmuşdur. Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində yerləşən

kütləvi kitabxanalar tərəfindən informasiya tələbatçılarına 220113 min nüsxə informasiya mənbələri verilmişdir.

Ümumiyyətlə, informasiya tələbatçılarının cəmi 84,2% sorğuları ödənilmişdir.Bunun da 48,8%-i 18 yaşınadək uşaq və gənclər olmuşdur. Ümumtəhsil məktəblərində 41283 min nüsxə informasiya mənbələri verilmişdir ki, bu da 15,8% edir.

Azərbaycan Respublikasının regionları üzrə kitabxanalarda informasiya və kommunikasiya texnologiyalarının mövcudluğuna görə bölgüsündən göründüyü kimi, Quba-Xaçmaz iqtisadi rayonunda yerləşən 698 kitabxanada cəmi 2 ədəd və ya 6,7% elektron katoloq, 2 ədəd və ya 2,3% elektron poçt var.

Regionda yerləşən kitabxanalarda ştatda olan, mütəxəssislərin sayının 569 nəfər olduğunu nəzərə alsaq, onların təhsil səviyyələrinə, kənd və şəhər yerlərində necə yerləşmələrinə baxaq. Bu kitabxanaçılardan 26 nəfəri və ya 4,6%-i kitabxana üzrə ali təhsilli mütəxəssis, 23 nəfəri və ya 4%-i ali qeyri-ixtisas təhsilli, 106 nəfəri və ya 18,6%-i kitabxana üzrə orta ixtisas təhsilli mütəxəssis, 78 nəfəri və ya 13,7%-i orta qeyri- ixtisas təhsilli, 336 nəfəri isə orta təhsillilərdir. Şəhər yerlərində yerləşən kitabxanalarda 90 nəfər mütəxəssis çalışır ki, onlardan 10 nəfəri kitabxana üzrə ali ixtisas təhsilli, 9 nəfəri isə kitabxana üzrə orta ixtisas təhsillidir. Kənd yerlərindəki kitabxanalarda çalışan 479 nəfər işçidən 16 nəfəri kitabxana üzrə ali ixtisas təhsilli, 97 nəfəri kitabxana üzrə orta ixtisas təhsilli,12 nəfəri ali qeyri- ixtisas təhsilli,292 nəfəri ümumi orta təhsillilərdir.

Beləliklə, Quba-Xaçmaz regionunda məskunlaşmış əhali respublika əhalisinin 5%-ni, kitabxanalarda çalışan mütəxəssislər 6,5%-ni, kitab fondu isə 8,2%-ni təşkil etdiyini görürük.

Regiondakı ayrı-ayrı rayonlarda yerləşən kitabxanalarda mütəxəssislərin təhsil səviyyələrinə görə bölgüsünü hər bir rayon üzrə ayrıca apardığımızdan, ixtisaslı kadrlarla kitabxanaların tam təmin olunması yüksək səviyyədə deyil. Kitabxanalarda mütəxəssislərin sayının çox olmasının, informasiya tələbatçılarının sorğularının daha dolğun ödənilməsi demək olduğunu nəzərə alsaq, bu sahədə çatışmazlıqların olması diqqəti cəlb edir. Belə ki, yuxarıda bəhs etdiyimiz kimi, hər oxucuya düşən kitab sayını, ixtisaslı kitabxanaçı-biblioqrafların neçə oxucuya xidmət etmələrini və s. nəzərə alsaq, onda bu sahədə dövlətin də diqqət mərkəzində olan kadr potensialının artırılmasını nəzərə almaq lazımdır.

Ümumiyyətlə, kitabxanaların fondunu zənginləşdirmək, əhaliyə kitabxana-informasiya xidmətinin səviyyəsini daha da yaxşılaşdırmaq, kitabxanaların inkişaf etmiş cəmiyyətin tələblərinə uyğun şəkildə inkişafını təmin etmək üçün, "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ı qarşıya bir çox məsələlərin yerinə yetirilməsi kimi mühüm bir vəzifə qoyur. Bunlardan: kompüterləşdirilmiş kitabxana infra-strukturunun qurulması; kitabxanaların yeni texnologiyalarla təchiz edilməsi; kitabxana fondlarının mühafizəsi və təhlükəsizliyinin təmin edilməsi; kitabxana işi sahəsində elmi-tədqiqat və elmi-metodiki fəaliyyətin stimullaşdırılması, sahəyə aid ədəbiyyat nəşrinin genişləndirilməsi; Azərbaycanda kitabxana-informasiya şəbəkəsinin modernləşdirilməsini təmin edən layihələrin işlənməsi üçün dövlət və donor təş kilatlarının cəlb edilməsi və s. göstərmək olar (3).

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı kitabxanalarda keçiriləcək tədbirlər arasında şəhər və rayonlarda bir çox kitabxana filiallarının birləşdirilməsi, internetin mövcud veb-saytlarında Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti və incəsənəti haqqında informasiyaların monitorinqi, regionlarda nəşr edilən yerli qəzetlərdə diyarşünaslığa dair materialların toplanması, qorunması məqsədi ilə onların biblioqrafik uçotunun aparılması,ümummilli lider Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" çoxcildli kitabının biblioqrafik göstəricisinin və elektron nəşrinin hazırlanması və s. var.

Hörmətli prezidentimiz İlham Əliyev cənablarının, son illərdə regionlarla bağlı verdiyi bir sıra qanun və sərəncamlarda, həmçinin, regionlara səfəri zamanı, əhalinin mədəni və təhsil səviyyəsinin artırılmasına, regionlarda iqtisadiyyatın daha da inkişaf etdirilməsinə və bu kontekstdə kitabxanaların da inkişafına önəm verməsi diqqəti cəlb edir.

Quba-Xaçmaz iqtisadi rayonunda yerləşən MKS-lər (cədvəl.1)

| № | MKS-lər | Yaran-dığı Illər | Kitab-xana fondu | əhalinin sayı | Oxucu - ların sayı | Kitab-xanada işləyən-lərin sayı | İnternet-dən istifadə edənlər | Filial-ların sayı | Ali ixtisa təhsillil ər | Ali-qeyri ixtisa-slılar | Orta ixtisas təhsil-lilər | Orta təhsil-lilər | Orta Qeyri ixtisaslılar | Texniki işçilər |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Quba rayon MKS | 1932 | 666.30 0 | 136845 | 32.400 | 144 | _ | 107 | 7 | 1 | 31 | 87 | _ | 9 |
| 2. | Qusar rayon MKS | 1930 | 512.40 0 | 80816 | 16.200 | 180 | _ | 75 | 9 | 1 | _ | 62 | 27 | 82 |
| 3. | Xaçma z rayon MKS | 1976 | 667804 | 142622 | 31531 | 149 | 808 | 101 | 15 | 1 | 48 | 74 | _ | 11 |
| 4. | Şabran rayon MKS | 1979 | 314.44 4 | 86193 | 25615 | 141 | _ | 53 | 10 | 2 | _ | 51 | 16 | 62 |
| 5. | Siyəzə n rayon MKS | 1992 | 112061 | 33462 | 10049 | 60 | _ | 19 | 5 | 1 | 12 | 16 | 1 | 25 |
| Cə mi | | | 227300 9 | 479938 | 115795 | 674 | | 355 | 46 | 6 | 91 | 290 | 44 | 189 |

Cədvəl №-2

## Azərbaycan Respublikasının Quba-Xaçmaz iqtisadi və inzibati rayonları üzrə kitabxana mütəxəssislərinin təhsil səviyyəsinə görə bölgüsü

| İqtisadi və inzibati rayonların adı | Ərazi, Min kv. m | 01.01.2009-cu ilə əhalinin sayı, min nəfər | Ştatda olan mütəxəsislərin sayı (müdir də daxil olmaqla) – sayı | | o cümlədən: | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Kitabxana üzrə ali | | Qeyri-kitabxana üzrə ali | | Kitabxana üzrə orta ixtisas | | Qeyri-kitabxana üzrə orta ixtisas | Ümumi orta | | | |
| | | | ədəd | %-lə | ədəd | %-lə | ədəd | %-lə | ədəd | %-lə | ədəd | %-lə | ədəd | %-lə | |
| A | | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | |
| Azərbaycan Respublikası | 86.6 | 8896.9 | 8727 | 100.0 | 1579 | 18.1 | 1318 | 15.1 | 1767 | 20.2 | 1261 | 14.4 | 2802 | 32.2 | |
| Şabran rayonu | 1.09 | 51.2 | 79 | 100.0 | 4 | 5.1 | 4 | 5.1 | 14 | 17.7 | 7 | 8.9 | 50 | 63.2 | |
| Xaçmaz rayonu | 1.05 | 158.8 | 160 | 100.0 | 7 | 4.4 | 3 | 1.9 | 27 | 16.9 | 11 | 6.9 | 112 | 69.9 | |

Cədvəl №-3

**Azərbaycan Respublikasının Quba-Xaçmaz iqtisadi və inzibati rayonları üzrə kitabxana fondunun bölgüsü**

| İqtisadi və inzibati rayonların adı | Kitabxana fondu – cəmi | | o cümlədən: | | | | Yekuna görə, %-lə | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | şəhər yerlərində | | kənd yerlərində | | cəmi | şəhər yerlərində | kənd yerlərində |
| | nüsxə | %-lə | nüsxə | %-lə | nüsxə | %-lə | | | |
| A | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| Azərbaycan Respublikası | 110994331 | 100.0 | 80767634 | 72.8 | 30226697 | 27.2 | 100.0 | 100.0 | 100.0 |
| Şabran rayonu | 654275 | 100.0 | 238203 | 36.4 | 415972 | 63.6 | 0.6 | 0.3 | 1.4 |
| Xaçmaz rayonu | 1331227 | 100.0 | 414582 | 31.1 | 916645 | 68.9 | 1.1 | 0.5 | 3.0 |
| Quba rayonu | 1498735 | 100.0 | 521094 | 34.8 | 977641 | 65.2 | 1.4 | 0.7 | 3.2 |
| Qusar rayonu | 1008583 | 100.0 | 297290 | 29.5 | 711293 | 70.5 | 0.9 | 0.4 | 2.4 |
| Siyəzən rayonu | 289783 | 100.0 | 120779 | 41.7 | 169004 | 58.3 | 0.3 | 0.1 | 0.6 |
| Cəmi | 4782603 | 100.0 | 1592048 | 33.3 | 3190555 | 66.7 | 4.3 | 2.0 | 10.6 |

Cədvəl №-4

## Azərbaycan Respublikasının Quba-Xaçmaz iqtisadi rayonunda kitabxanaların

## idarə mənsubiyyəti və növlərinə görə bölgüsü

| İqtisadi və inzibati rayonların adı | Ərazi, Min kv. m | 01.01.2009 -cu ilə əhalinin sayı, min nəfər | Kitabxabaların sayı – cəmi | | o cümlədən: | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kütləvi kitabxanalar | | elmi kitabxanalar, elmi müəssisələrdə kitabxanalar | | ali təhsil müəssisələrində | | orta ixtisas təhsil müəssisələrində | | ilk peşə-ixtisas təhsil müəssisələrində | | ümumtəhsil məktəblərində | | musiqi məktəblərində | | səhiyyə müəssisələrində | | digər | |
| | | | ədəd | %-lə | ədəd | %-lə | ədəd | %-lə | ədəd | %-lə | ədəd | %-lə | ədəd | %-lə | ədəd | %-lə | ədəd | %-lə | ədəd | %-lə | ədəd | %-lə |
| A | | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| Azərbaycan Respublikası | 86.6 | 8896.9 | 8507 | 100.0 | 3812 | 44.8 | 72 | 0.8 | 57 | 0.7 | 60 | 0.7 | 107 | 1.3 | 4081 | 48.0 | 154 | 1.8 | 69 | 0.8 | 95 | 1.1 |
| Şabran rayonu | 1.09 | 51.2 | 92 | 100.0 | 54 | 58.7 | - | - | - | - | - | - | 1 | 1.1 | 35 | 38.0 | 1 | 1.1 | 1 | 1.1 | - | - |
| Xaçmaz rayonu | 1.05 | 158.8 | 196 | 100.0 | 101 | 51.5 | - | - | - | - | - | - | 2 | 1.0 | 88 | 45.0 | 3 | 1.5 | 2 | 1.0 | - | - |
| Quba rayonu | 2.58 | 151.9 | 221 | 100.0 | 107 | 48.3 | 1 | 0.5 | 1 | 0.5 | 1 | 0.5 | 2 | 0.9 | 106 | 47.9 | 2 | 0.9 | 1 | 0.5 | - | - |
| Qusar rayonu | 1.54 | 87.5 | 146 | 100.0 | 75 | 51.4 | - | - | - | - | - | - | - | - | 68 | 46.5 | 1 | 0.7 | 1 | 0.7 | 1 | 0.7 |
| Suyəzən rayonu | 0.70 | 37.6 | 43 | 100.0 | 19 | 44.2 | - | - | - | - | - | - | 1 | 2.3 | 21 | 48.9 | 1 | 2.3 | - | - | 1 | 2.3 |
| cəmi | 6.96 | 487.0 | 698 | 100.0 | 356 | 51.0 | 1 | 0.1 | 1 | 0.1 | 1 | 0.1 | 6 | 0.9 | 318 | 45.7 | 8 | 1.1 | 5 | 0.7 | 2 | 0.3 |

## DƏBİYYAT


1. *Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında. I və II c.- Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.-B Nurlar,2007.-820 s.*

2. *«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004- 2008-ci illər)»// Azərbaycan.- 2004.- 11 fevral.*

3. *«Azərbaycan Respublikası regionlarının 2009- 2013-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı»-Bakı: Nurlar, 2009.-184s.*

4. *«Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı» // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri, metodiki və təcrübi jurnal.-2008.№ 2.-S.6-29.*

5. *«Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında». Azərbaycan Respublikası Prezidentinin sərəncamı//-Azərbaycan.-2007.-21 aprel.*

6. *«Kitabxanaların fəaliyyəti haqqında» statistik müayinənin nəticələri barədə. Statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.-B.-2009.-88s.*

7. *Əliyev Z.H. Müasir biblioqrafik fəaliyyətin təşkili, inkişafı və tətbiqi məsələləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal.-2009.-№ 1.- s.91-98.*

8. *XələfovA.A. Kitabşünaslığa giriş: Dərslik(3 hissədə).-H.3.-B.,2003.- 314s.*

9. *İsmayılov X. İ. İsmayılov N. İ. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının biblioqrafik informasiya təminatı // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: ali məktəblərarası elmi məqalələr məcmuəsi.-Bur.7.-B, Mütərcim,2007.-s.318-320.*

10. *İsmayılov.X.İ, İsmayılov.N.İ, Bayramova.İ.Z, Azərbaycan Respublikası regionlarının kitabxana-informasiya resurslarının inkişafının bəzi məsələləri (Gəncə-Qazax iqtisadi rayonunun nümunəsində) // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2009.-№ 1.-S.99-112.*

11. *İsmayılov.N.İ. Azərbaycanda kitabxana-biblioqrafiya ehtiyatlarının yerləşməsi və istifadəsinin bəzi məsələləri // Kitabxanaşünaslıq*

*və biblioqrafiya: elmi- nəzəri və təcrübi jurnal.-B.:BUN,1999,-№1, s. 94-100.*

*12. İsmayılov.N.İ. Azərbaycanın kitabxana-biblioqrafiya ehtiyatı // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi- nəzəri və təcrübi jurnal.-B.: BUN, 1998.-№2.-s. 81-89.*

*13. Məmmədov.Z.S. Regionların iqtisadi inkişaf problemləri.-B.: Elm,2007.-465s.*

*14. Muradov.Ş.M. İnsan potensialı: Əsas meyllər, reallıqlar, problemlər.-B.: Elm.2004.- 660 s.*

*15. Müstəqil Azərbaycan 10 il.- B.:Səda, 2001.- 698 s.*

***И.З.БАЙРАМОВА***

**НЕКОТОРЫЕ ВОПРОСЫ РАЗВИТИЕ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ В РЕГИОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ( НА ПРИМЕРЕ ЭКОНОМИЧЕСКОГО РАЙОНА КУБА-ХАЧМАЗ )**

***РЕЗЮМЕ***

В статье говорится о развитии Централизированной Библиотечной Системы (ЦБС) во втором большом регионе Азербайджанской Республики-экономическом районе Куба-Хачмаз, проявление заботы государства в этой области, о роли обеспечения в повышение интеллектуально-культурного развития населения.

***İ.Z.BAYRAMOVA***

**SOME PROBLEMS OF DEVELOPMENT OF LİBRARY-İNFORMATİON RESOURCES OF REGİONS OF AZERBAİJAN REPUBLİC( ON A MODEL OF GUBA- KHACHMAZ ECONOMİC REGİON)**

**SUMMARY**

This Article deals with development of Centralized Library Systems (CLS) of Guba-Khachmaz Economical region-the second largest region of Azerbaijan Republic, consern for this field provided by our government and the role of library-information supply in increasing intellectual and cultural level of population.

**Kompüter tərtibçisi:** **Esmira ZƏRBALİYEVA**


*Jurnal Azərbaycan Respublikası*
*Mətbuat və İnformasiya Nazirliyində*
*qeydə alınmışdır.*
*Şəhadətnamə № 575. 27 mart 1997.*

*Yığılmağa verilmişdir:01.06.2010*
*Çapa imzalanmışdır: 21.06.2010*
*Kağız formatı 70x100 1/16*
*Fiziki ç.v. 9*
*Sayı 300*
*Qiyməti müqavilə ilə.*

*Ünvan: AZ-1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23*
*Bakı Universiteti Nəşriyyatı*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*